

# Prezident Ziya Selçuku qəbul etdi

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 27-də Türkiyə milli təhsil naziri Ziya Selçuku qəbul edib.*

*"Unikal" xəbər verir ki, bu haqda Prezidentin Mətbuat xidməti məlumat yayıb. Türkiyəli naziri salamlayan Prezident İlham Əliyev deyib:*

*- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və əlaqələrimiz bütün başqa sahələrdə olduğu kimi...*

Səh.3


# UNİKAL

№19 (2057) 28 may 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Elman Rüstəmovun effektsiz qərarları...

## Bunu biz demirik, Hesablama Palatasının sənədindən belə nəticə çıxır

*Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatasının "2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və büdcənin icrasına dair illik hesabata verdiyi rəy açıqlandı. Rəydə kifayət qədər maraqlı nüanslara rast gəlinir. Bunlardan biri də Mərkəzi Bankın uçot dərəcələri üzrə faiz endirimi qərarları ilə bağlı Palatanın yanaşmasıdır. Həmin yanaşmadan belə aydın olur ki, ölkənin baş bankının sözügedən qərarları faktiki olaraq effektsiz təsir bağışlayıb. Belə ki, qurumun sözügedən rəyində qeyd edilir ki, ötən il Azərbaycanda pandemiya ilə mübarizə tədbirlərinin reallaşdırılması bank sektoru üzrə əsas göstəricilərə əhəmiyyətli təsir edib, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə il ərzində bir neçə dəfə uçot dərəcələri üzrə faiz endirimi...*

Səh.8

Səh.13



# Ermənilər sərhddə təxribat törətdi, sərt cavab aldı

## "Ermənistan onsuz da çıxılmaz vəziyyətdədir"



*Ermənistan tərəfinin təxribatçı əməlləri davam edir. Öncə erməni əsgərlərinin sərhədimizi pozması, əsgərlərimizə hücumu, ardınca isə dirversiya qruplarının məlum addımları ciddi narahatlıq yaradıb. Lakin ordumuzun müvafiq bölmələrinin keçirdiyi adekvat tədbirlər nəticəsində düşmən zərərsizləşdirilib.*

Səh.4

## Emin Əmrullayev baxçaları icra başçılarından geri alır



*Azərbaycanda baxçalarla bağlı növbəti qalmaqal yaşandı. Bu dəfə Bakıda baxça müəllimməsi müdiri tərəfindən döyüldüyünü iddia edib. Belə ki, "White City Kindergarden" uşaq bağçasında işləyən müəllimə Səfərova Vəfa Bahadur qızı öz şikayətində bildirib ki, çalışdığı müəssisədə maaşlar vaxtında...*

Səh.12

## Zahid Oruc hökuməti tənqid etdi



*"Dövlət başçısının son iki ildə Yeni Hakimiyyət Quruculuğu siyasəti idarəçilikdə yeni keyfiyyət mərhələsi, xüsusilə əvvəlki məmur sahibkarlığından azad olmağa şərait yaratmaqla, təkcə kadrların deyil, eləcə də bütövlükdə idarəçilik tələblərinin dəyişdirilməsinə yol açdı, Yeni Elitanın...*

Səh.9

# Roza Zərgərli: "Vaxtında mənim yolumu kəsən İlhamə Quliyeva olub"



***"Biri sübut etsin ki, Roza Zərgərli deyib İlhamə Quliyevaya oxşayıram. Hər zaman demişəm ki, məni oxşadırlar".***

Bu sözləri müğənni Roza Zərgərli "Xəbər-ətər" proqramında deyib. Sənətçi mərhum Xalq artisti İlhamə Quliyevaya bənzədilməsinə cavab verib:

"Xasiyyətcə biz heç oxşamırıq. Vaxtında mənim yolumu kəsən İlhamə Quliyeva olub. Məni görəndə, "canım atəşim" deyirdi, kənarda yolumu kəsirdi. Bunun şahidləri də var. Onunla oxşamıram, çünki sənətə addım atandan hər kəsə əl tutmuşam. Bilirlər ki, sözümün kəsəri var. Danışanda haqqına danışıram. Bir şey məni narahat etmirsə, niyə onun haqqında danışıram? Ona görə də bu günə kimi bu haqda danışmırdım".

# "Rihannanı deyirik, Aygün Kazımovanı deyə bilmərik?"



***Elçin Cəfərov, Zamiq Hüseynov, Rəhim Rəhimlinin geyimlərini bəyənirəm. Ümumiyyətlə, bir çox kişi ifaçılarımız qəşəng geyinir. Gündəlik geyimlərimdə rahatlığa üstünlük verirəm. Amma kliplərdə obraza girməyə etiraz etmirəm. İncəsənət qurban tələb edir.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Elvin Abdullayev "10-da başladıq" proqramında deyib. İfaçı sənət adamlarının geyimlərindən danışıb.

Əməkdar artist Elza Seyidcahanın tərzi ilə bağlı suallara "Elza Seyidcahan çərçivədən çıxıb. Onun gördüyü işlər, geyindiyi libaslardan xoşum gəlir. Onu daş-qalaq edirlər. Bu insan heç vaxt neqativ cavab vermir və öz istədiyini edir" cavabını verib.

Elvin şəhərdə qızların geyimlərini tənqid edib: "Elə xanımlar var ki, elə geyimlər geyinir... Açıq-saçıqlıqdan söhbət getmir, bu, hər kəsin öz seçimidir. Zövqsüz geyinirlər, dırnaqlarını elə rəngə boyayırlar ki... Bunlar heç bir saytlara, dəblə bağlı səhifələrə baxmırlar?".

Aparıcı Samir Bayramlının "Bu yaxınlarda Aygün Kazımovanın 26 yaşındakı çıxışını izlədim. Onun həmin səhnədə geyindiyi paltarla Rihanna 20 il sonra klip çəkdirib" sözlərinə müğənni "Rihannanı deyirik, Aygün Kazımovanı deyə bilmərik?" reaksiyasını verib.

# Zaur Kamaldan Manafla bağlı etiraf: "Pul istədim, söylədi ki..."

***Aparıcı Zaur Kamal müğənni Manaf Ağayevlə bağlı bir etiraf edib.***

"Unikal" sherq.az-a istinadən xəbər verir ki, "Həmin Zaur" proqramında M.Ağayev ən əliaçıq müğənni olduğu söylənilib. Lakin Z.Kamal bunun tam əksini deyib: "Çox çətin vaxtlarımda ondan 1500 manat pul istədim. Söylədi ki, Bakıda deyiləm".

# Namiq Qaraçuxurlu ilə bağlı işə polis qarışdı



***Meyxanaçı Namiq Qaraçuxurlu ona qarşı dələduzluq edən şəxslərin tapılması üçün polisin hərəkətə keçdiyini söyləyib.***

Bunla bağlı video açıqlama yayan ifaçı bunları əlavə edib: "Xəbər paylaşdım ki, mənə qarşı dələduzluq ediblər. Rəsmi olaraq müraciət etməmişəm. Polis dərhal hərəkətə keçib. Məni Türkiyədən tapdılar və yardım etmək istədiklərini dedilər. Bakıya gələndə rəsmi olaraq polisə şikayət edəcəm".

Qeyd edək ki, meyxanaçı İnstaqramda sosial şəbəkədə "@luxury_house_ks" adlı onlayn alış-veriş səhifəsinin onu və bir çoxlarını aldatdığını deyib.

# "Hələ də kirayədə yaşayıram" - Rühəngiz Allahverdiyeva



***Əməkdar artist Rühəngiz Allahverdiyeva evi olmamasından gileylənib.***

Müğənni hazırda kirayədə yaşadığını bildirib. O qeyd edib ki, həyat yoldaşı da onun qədər pul qazanmır:

"Hazırda bina evində qalıram. Özü də kirayədəyəm. Qazanıb uşaqlarımı oxudub, özümü geyindirmişəm. Ürəyim açıqdır, çoxuna çox şey etmişəm. Biri deyib telefonum yoxdur almışam, birinin borcu olub ödəmişəm. Bir ara səsim batdı, toylara getmədim. Həyat yoldaşım mənim qədər qazanmır. Hansı müğənninin həyat yoldaşı ondan çox qazanır? Həyat yoldaşları olsun ki, qazansınlar da".

# "Səssiz gedən qadın bilin ki, çox susub" - Ayan



***"Ümidlərin bitdiyi yerdə hər zaman möcüzələr başlayır. Önəmli olan kitabda yazılan yox, sənin qəlbindən qayıdanlardı. Səssiz gedən qadın bilin ki, çox susub. Bilir ki, danışsa, heç nə dəyişməyəcək və gedir".***

"Unikal" xəbər verir ki, bu sözləri müğənni Ayan Babakişiyeva "Səhər mərkəzi" proqramında deyib. Sənətçi həyatından bəhs edib: "İnsan həyatda özünün psixoloqu, həkimi olmalıdır. İnsan qarşısında dəyər verdiyi insanlara bir yerə qədər icazə verər ki, onun həyatında nəyəsə zərər vursun. Bunu da psixologiyası zəif insanlar edir. Bir yerə qədər sərhəd qoyursan. Düşünürsən ki, həddini aşır, çıxar həyatından. İnsan həyatda ancaq öz qərarları ilə hərəkət etməlidir. Fərqli insanların təsiri altında yaşamayın. Mənə məsləhət verən insanlar çoxdur, amma öz bildiyimi edirəm".

# “Dövlət sərhədi haqqında” qanuna dəyişiklik olundu



***Dənizə çıxarkən balıqçılıq təyinatlı mühərrikli kiçik həcmli gəmilərlə sahildən on dəniz milinədək, digər üzmə vasitələri ilə isə sahildən iki dəniz milinədək uzaqlaşmağa yol veriləcək.***

“Unikal”ın xəbərinə görə, bu barədə Milli Məclisin bu gün keçirilən plenar iclasında I oxunuşda müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” qanuna dəyişiklik layihəsində öz əksini tapıb.

Əvvəllər sadəcə dənizə və sərhədboyu çayların, çöllərin başqa sututarların sularına çıxmağa qeydə alınmış mühərrikli və mühərriksiz üzmə vasitələrinə dənizə çıxarkən sahildən iki milədək uzaqlaşmağa yol verilirdi.

Bu zaman Hərbi-Dəniz Qüvvələrinin istifadəsində olan üzmə vasitələri, habelə Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən Dövlət Gəmi Reyestrində qeydiyyata alınan gəmilər və dənizə və sərhədboyu çayların, çöllərin başqa sututarların sularına çıxmağa qeydə alınmış mühərrikli və mühərriksiz üzmə vasitələri nəzərə alınır.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

# “Düşmənin məqsədi təminat yolunu minalamaq olub” - Anar Eyvazov



***Ermənistan tərəfi mayın 27-i saat 03.00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində kəşfiyyat-diversiya qruplarının törətdiyi təxribatları ört-basdır etmək məqsədilə həmişə olduğu kimi yenə də yalan məlumat yayıb.***

“Unikal” xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov deyib. Onun sözlərinə görə, Ermənistan əsgərləri Kəlbəcərin Yuxarı Ayrım kəndi ərazisində tərksilah ediliblər.

Sərhəd yaxınlığında düşmən tanklarının cəmləşməsi müşahidə edildi”Eyni zamanda tank birləşmələri daxil olmaqla ön xəttə qüvvələri konsentrasiya ediblər. Sərhədimizi keçərək ərazimiz daxilində mina işlərini aparmağa və təxribat əməllərini törətməyə cəhd göstərən diversiya qrupunu ermənilər guya mühəndis-istehkamçılar kimi qələmə verir. Əgər elədirsə, o zaman erməni hərbi mühəndisləri Azərbaycan ərazisində nə kimi mühəndis işləri görə bilər? Hərb işindən azacıq xəbəri olan hər bir kəs anlayır ki, kiçik qruplarla mühəndis işləri həyata keçirilmir. Bu tərkibdə qruplar kəşfiyyat-diversiya dəstələrində olur və aydındır ki, onlar məhz təxribat törətmək məqsədilə ərazimizə keçiblər. Onların məqsədi sərhəddə xidmət edən qüvvələrimizin arxasına keçərək təminat yolunu minalamaq olub. Belə ki, təminat yolundan istifadə edən qüvvələr minaya düşsünlər və şəxsi heyət arasında itkilər olsun”, - MN rəsmisi vurğulayıb.

# Vətən müharibəsi qəhrəmanlarının imtiyazları təsdiqləndi

***Azərbaycanda Vətən müharibəsi qəhrəmanları ilə bağlı yeni imtiyazlar müəyyən edilir.***

“Unikal”ın məlumatına görə, bununla bağlı Milli Məclisin iclasında Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri müzakirəyə çıxarılıb.

Dəyişikliklər haqqında deputat Arzu Nağıyev məlumat verib. A.Nağıyev bildirib ki, Əmək Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, Vətən müharibəsi qəhrəmanlarına məzuniyyət verilməsi qaydası müəyyənləşir. Dəyişikliyə əsasən, Azərbaycan Respublikası Vətən müharibəsi qəhrəmanlarına məzuniyyət 46 təqvim günündən az olmayaraq veriləcək.

A.Nağıyev qeyd edib ki, Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən isə Vətən müharibəsi qəhrəmanlarına vergi güzəştləri tətbiq ediləcək. Qanun layihələri müzakirələrdən sonra səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

# Emin Əmrullayev baxçaları icra başçılarından geri alır

## 10 il öncəki qərar özünü doğrultmadı – hər gün yeni fəsadlar ortaya çıxır...

***Azərbaycanda baxçalarla bağlı növbəti qalmaqal yaşandı. Bu dəfə Bakıda baxça müəlliməsi müdiri tərəfindən döyüldüyünü iddia edib. Belə ki, “White City Kindergarden” uşaq bağçasında işləyən müəllimə Səfərova Vəfa Bahadur qızı öz şikayətində bildirib ki, çalışdığı müəssisədə maaşlar vaxtında verilmədiyi üçün işdən çıxmaq istəyib. Bu zaman sözügedən baxçanın müdiri İnarə Məhərrəmova ilə aralarında yaranan mübahisə zəminində döyülüb.***

“08.05.2021 il tarixində bağçadan işdən çıxmaq istədim. Buna görə bağça müdiri İnarə Məhərrəmova qəflətən mənə hücum edərək döydü. Bu barədə Daxili İşlər Nazirliyinin “102” Çağrı Mərkəzinə müraciət etdim. Polis əməkdaşları gələnə qədər İ.Məhərrəmova qaçdı. Məni Xətai rayon 37-ci Polis Şöbəsinə apardılar. Hadisə ilə bağlı orada izahat yazdım” deyən şikayətçi əlavə edib: ”Mənim bədənimdəki xəsarətlər, yaralar sağalır, lakin aldığım psixoloji travma keçmir. Bu işin arxasında kim durubsa, o, polisə də tabe olmur. Bu gün işçisini döyən, sabah uşaqlara da ziyan vurar”.

Baxça müdiri isə 3 illik işçisinin onun haqqında irəli sürdüyü fikirlərin əsassız olduğunu deyib.

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən baxçalarla bağlı qalmaqallı xəbərlərin ardı-arası kəsilmir. Bu xəbərlərin motivləri müxtəlifdir - rüşvətdən tutmuş, yeyintiyə, uşaqlara keyfiyyətsiz qidaların verilməsindən tutmuş onlarla doğru rəftar edilmədiyinədək... Bu siyahıda baxça müdirinin müəllimi döyməsi barədə iddia çatışmırdı, axır ki, onu da eşitdik.



Maraqlı məqam orasındadır ki, özəl və ya dövlət uşaq baxçaları ilə bağlı qalmaqallı xəbərlər xüsusilə son illərdə, bir az da konkretləşdirsək, 2011-ci ildən bəri xeyli artıb. Belə ki, həmin ilədək nazirliyin balansında olan bu sahə yerli icra hakimiyyətlərinin tabeliyinə verilmişdi. Bu yerdəyişmələr uşaq bağçaları ilə bağlı problemlərin həllinə heç bir faydası olmadı, əksinə, neqativ hallar baş verdi, yeni bağçalar tikilmədi, uşaq müəssisələrində yer olmadı və bu da müxtəlif arzuolunmaz fikirlərə yol açdı.

Düzdür, aradan keçən on ildə uşaq baxçalarının yenidən Təhsil Nazirliyinin tabeliyinə qaytarılması barədə fikirlər səsləndirilib, iddialar ortaya atılıb, təkliflər irəli sürülüb. Lakin həmin gözlənti gerçəkləşməyib.

İndi isə bu məsələ yenidən müzakirə predmetidir. Hətta artıq məsələ ilə bağlı yaxınlarda həlledici qərar veriləcəyi də deyilir.

Ekspertlər də bunun qaçılmaz olduğunu vurğulayırlar. Onlar birmənalı olaraq belə qənaətdədirlər ki, əvvəla, məktəbəqədər təhsil də daxil olmaqla, təhsilin bütün pillələri vahid mərkəzdən idarə edilməlidir. İkincisi, vaxtilə baxçalara nəzarətin Təhsil Nazirliyindən alınıb yerli icra hakimiyyətinə verilməsi müəyyən obyektiv və subyektiv səbəbləri olduğunu deyən mütəxəssislərin sözlərinə görə, 1990-cı illərdə 300-ə qədər baxça özəlləşdirməyə çıxarıldı. ”Bu, özəl sektorun inkişaf etdirilməsi demək idi. Yeni bağçalar özəlləşdirilərkən öz təyinatları əsasında işləməli olacaqdılar. Lakin 300 baxçadan 250-si özəlləşdi və təyinatı üzrə işləmədi. Elə bir situasiya yarandı ki, ölkəmizdəki bağçalarda defisit əmələ gəldi. Beləliklə də müəyyən problemlər meydana çıxdı” deyən təhsil eksperti Nadir İsrafilovun fikrincə, hazırkı situasiyada baxçaların Təhsil Nazirliyinin nəzarətində olması daha effektivdir: “Bu zaman prosesləri həyata keçirmək daha çevik olar. Çünki nazirlikdə baxça təhsilinə dair mütəxəssislər və məktəbəqədər şöbə var. Nazirlikdə həmçinin baxçaların bütün metodiki proqram planı mövcuddur. İcra hakimiyyətləri baxçalara Təhsil Nazirliyi kimi nəzarət edə bilməz. Uşaqların məktəbəqədər təhsilinə dair böyük narazılıqlar var. Bu narazılıqlara tez-tez rast gəlirik. Ona görə də təhsildə fasiləsizlik və çevikliyin təmin edilməsi üçün baxçaların mütləq Təhsil Nazirliyinin tabeliyinə keçməsi lazımdır”.

İddialar bu yöndədir ki, mütəxəssislərin qənaətini Təhsil naziri Emin Əmrullayev də bölüşür. O, dilə gətirməsə də məktəbəqədər təhsil müəssisələrinə nəzarətin də rəhbərlik elədiyi nazirlikdə olmasının tərəfdarıdır.

Məlum məsələ ətrafında ictimai rəyin də yekdil olması uşaq baxçalarının icra hakimiyyətlərinin nəzarətindən çıxarılaraq Təhsil Nazirliyinin tabeliyinə qaytarılması ilə bağlı qərar veriləcəyini söyləmək imkanı verir. Hər halda aradan keçən on il icra başçılarının bu təhsil müəssisələri ilə bağlı çoxsaylı problemləri həll eləmək iqtidarında olmadığını təsdiqləyib. Bu da azmış kimi, uşaq baxçalarındakı problemlər daha da artıb, dərinləşib. Deməli, 2011-ci ildəki yanlışı düzəltmək qaçılmazdır...

***Toğrul Əliyev***

# Ermənilər sərhddə təxribat törətdi: 6 hərbçi əsir götürüldü

## Məğlubiyyətlə barışmayan erməni silahlılarına lazımi cavab sərt bir şəkildə veriləcək

***Mayın 27-də saat 03.00 radələrində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində ərazimizə keçməyə cəhd göstərib.***

Bu barədə "Unikal" Müdafiə Nazirliyinə istinadən xəbər verir. Məlumata görə, düşmən Azərbaycan Ordusunun sərhəddə yerləşən mövqelərinə aparan təminat yolunda minalama fəaliyyəti həyata keçirərkən dərhal görülən əməliyyat tədbirləri nəticəsində qarşı tərəfin 6 hərbi qulluqçusu mühasirəyə alınaraq zərərsizləşdirilib və onlar əsir götürülüb. Səhər saatlarında sərhəd yaxınlığında Ermənistan silahlı qüvvələrinin tanklar da daxil olmaqla bir neçə döyüş texnikasının cəmləşməsi müşahidə edilib. Tərəfimizdən görülən tədbirlər nəticəsində onların hərəkətinin qarşısı alınıb. Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Ermənistanın Müdafiə Nazirliyi Azərbaycanla dövlət sərhədində təxribat törətməyə cəhd edərkən saxlanılan erməni diversantların adlarını açıqlayıb. Saxlanılan şəxslər A.N. Abqaryan, İ.A. Sarkisyan, V.V Sarkisyan, B. S. Ohanyan, A.Q. Budoyan və V.O. Rafaelyandır. Onların müqaviləli hərbi qulluqçular olduğu bildirilib.

Müdafiə Nazirliyindən bildirilib ki, ilkin məlumata görə, qarşı tərəfin iki kəşfiyyat-diversiya qrupu dövlət sərhədimizi iki istiqamətdə keçib. Qrupların biri 9, digəri isə 15 hərbi qulluqçudan ibarət olub. Kəşfiyyat-diversiya qruplarının hərəkəti nəzarətə götürülüb. Ərazimizdəki təminat və digər keçid yollarında minalama fəaliyyəti həyata keçirərkən Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hər iki qrupuna qarşı dərhal əməliyyat tədbirləri görülüb.

Nəticədə düşmənin birinci kəşfiyyat-diversiya qrupundan 1-i zabit olmaqla 4, digərindən isə 2 hərbi qulluqçu, ümumilikdə 6 nəfər tərksilah edilərək saxlanılıb. Kəşfiyyat-diversiya qrupunun saxlanıldığı ərazinin coğrafi koordinatları: 40 dərəcə 09 dəqiqə 06 saniyə şimal enliyi, 45 dərəcə 58 dəqiqə 07 saniyə şərq uzunluğu (N 40°09'06''; E 45°58'07''). Digər erməni hərbi qulluqçuları ərazimizi dərhal tərk edərək geriyə çəkiliblər.

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın sərhəddə təxribat törətməsi ilə bağlı açıqlama yayıb. Məlumatda deyilir: "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən cari ilin mayın 27-də Ermənistan Silahlı Qüvvələrinin iki qrupdan ibarət kəşfiyyat-diversiya dəstəsi Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətində Azərbaycan ərazilərinin dərinliyinə daxil olaraq, ərazidə kəşfiyyat-diversiya əməliyyatları və yolların minalanmasına yönəlmiş təxribat terror fəaliyyəti həyata keçirməyə cəhd göstəriblər. Həmin qruplar aşkar edilib, onların bir hissəsi qaçıb, 6 nəfər isə (bir qrupdan 2, digər qrupdan 4 nəfər olmaqla) Azərbaycan Ordusu tərəfindən tərkisilah edilərək saxlanılıblar. Ermənistan tərəfindən bir müddətdir ki, iki ölkənin sərhədyanı ərazilərində qəsdən gərginliyin artırılması siyasəti həyata keçirilir. Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun Azərbaycan ərazisinə keçməsi və ərazini minalama və digər diversiya cəhdləri terror-təxribat əməli kimi qiymətləndirilir.




Azərbaycan Ermənistanın illər ərzində basdırdığı minalardan əziyyət çəkdiyi halda, Ermənistanın diversant qrupu tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdləri Azərbaycan hərbçilərinin və gələcəkdə mülki insanların həyatı üçün ciddi təhlükə ola bilərdi.

Azərbaycan, Ermənistan-Azərbaycan dövlət sərhədində gərginliyin danışıqlar yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə əlaqədar beynəlxalq ictimaiyyətin çağırışlarını dəstəkləyir. Azərbaycanın sərhədlərinin pozulmasına yönəlik cəhdlər yolverilməzdir. Ermənistan iki ölkənin sərhədində gərginliyin artırılmasına yönəlmiş əməllərdən çəkinməli və qonşu dövlətin sərhədlərinə hörmətlə yanaşmalıdır".

Sərhəddə baş verən hadisələri "Unikal"a şərh edən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Ermənistanın dünənki təxribatı qeyri-adi hadisə sayılmamalıdır: "Son günlər Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr, o cümlədən Kəlbəcər və Gədəbəy istiqamətində və Şuşa şəhərinin ətrafında erməni silahlıları tərəfindən atəşkəsin pozulması bir daha Ermənistanın sülh və mehriban qonşuluq siyasətində yaşamağa hazır olmadığını göstərir. Hazırda Kəlbəcər istiqamətində törədilən təxribat artıq Azərbaycanın buna adekvat addım atmasına vadar edir. Düşünürəm ki, bu addımların qarşısını almaq üçün 44 günlük müharibədə erməni ordusunu darmadağın edən silahlı qüvvələrimiz potensial gücə və vasitələrə malikdir. Hesab etmirəm ki, bu fəaliyyətlər hansısa bir şəkildə cavabsız qala bilər. Azərbaycan həm Ermənistan sərhədində, həm də digər təhdid törədilə biləcək ərazilərdə şəxsi heyət və texnika sayını artırmaqla, bu təxribata əl atan əsgərləri keçən ilin noyabrın 26-da Hadrut istiqamətində olduğu kimi əsir götürüb və onları Azərbaycanın ədalət məhkəməsi önünə çıxartması üçün əlindən gələni edəcək. Azərbaycan əsgərləri ərazilərimizə müdaxilə etmək istəyən və məğlubiyyətləri ilə barışmayan erməni silahlılarını gərəkən cavabı yaxın günlərdə və sərt bir şəkildə verəcəkdir".

"Azərbaycan 6 erməni hərbçisini sərhəddə mina basdırarkən əsir götürüb. Nikol Paşinyan bu vəziyyətdə nə edəcək? Ermənistanın baş nazir vəzifəsini icra edən şəxs yenə ətraf aləmdən kömək istəyəcək. Artıq Paşinyan Rusiyadan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından narazılığını açıq dilə gətirməyə başlayıb". Bunu mayın 27-də Kəlbəcər istiqamətində saxlanılan erməni diversantlarla bağlı hadisəni şərh edən siyasi ekspert Elxan Şahinoğlu bildirib. Onun sözlərinə görə, Paşinyanın lideri olduğu partiyanın parlamentdəki qrup rəhbəri də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını sərt tənqid edərək onları proseslərə seyrçi qalmaqda ittiham edib. "Paşinyana dəstək yenə Qərbin bəzi ölkələrindən gələcək, kimlərsə Azərbaycan əleyhinə açıqlama verəcək və rəsmi İrəvan həmin açıqlamaları geniş yayacaq ki, əhalini sakitləşdirsin. Ermənistan müxalifəti erməni həbrçilərin Azərbaycan hərbçiləri tərəfindən əsir götürülməsini seçki öncəsi Paşinyanın mövqelərini zəiflətmək üçün istifadə etməyə çalışacaq. Əgər biz həmin 6 əsiri seçkiyə qədər İrəvana təhvil versək tam əksinə bu Paşinyanın reytinqinə müsbət təsir edəcək. İplər bizim əlimizdədir",-E.Şahinoğlu bildirib.

Sərhəddə baş verən hadisələri şərh edən hərbi ekspert Şair Ramaldanov isə deyib ki, əslində Ermənistanın bugünkü təxribatı qeyri-adi bir hadisə sayılmamalıdır. Çünki, biz ermənilərin indiyə kimi törətdiyi əməlləri unutmamışıq: "Heç uzağa getməyək. Son 30 ilin hadisələri göz önündədir. Ona görə də, postmüharibə dövründə hər şeyin sakit şəkildə öz axarı ilə davam edəcəyi, onların öz yerlərində dinc duracaqlarını gözləmək olmazdı. Bu yanaşma sivil, normal dövlətlər arasında olan münasibətlərə uyğundur ki, müharibədən sonra dinclik təmin olunsun. Biz sivil davranırıq, qarşı tərəf isə, əvvəlki xislətindən əl çəkmir. Hələlik yalnız biz belə deyirik ki, müharibə bitib, torpaqlar azad olunub deyə, artıq sonrakı proseslər normal qonşuluq münasibətlərinə yönəlməlidir. İrəvan isə sülhə hazır görünmür".

Şair Ramaldanovun sözlərinə görə, hazırda Ermənistanda gedən siyasi prosesləri, seçkiöncəsi gərginliyi və erməni tarixini, bu millətin xüsusiyyətini nəzərə alsaq, məlum addımların atılması, təxribatların olacağı gözlənilləndir: "Azərbaycanın güc strukturları yola saldığımız bu aylar ərzində çox böyük işlər görüblər. Azad olunan ərazilərdə bütün istiqamətləri incələyib, ola biləcək təxribatları nəzərdən keçiriblər. İndi bu ayıqsayıqlığın nəticəsidir ki, erməni təxribat qruplarının qarşısı alınır. Ona görə də, erməni hərbçilərinin belə planlar qurmalarında təəccüblü bir şey görmədim. Çünki əgər İrəvan sülh müqaviləsi bağlamayıbsa və indiyə kimi rəsmilər bu ölkədə revanşist fikirlər səsləndirən siyasətçilərin, ictimai xadimlərin ağzından vurmayıblarsa, deməli, bu cür məsələlər hələ gündəmdə olacaq. Biz hər zaman təxribatlara hazır olmalıyıq. Bir daha xüsusi olaraq qeyd edirəm ki, Azərbaycanın güc strukturlarının bütün lazım olan tədbirlərə hazırlığını əvvəlcədən görmələri təqdir edilməlidir".

Bundan əlavə, hərbi ekspert regionun ciddi şəkildə nəzarət altında saxlanıldığını vurğulayıb. Onun sözlərinə görə, Monitorinq qrupu, pilotsuz uçan aparatlarla havadan nəzarət və s. tipli tədbirlərlə istənilən təxribatın qarşısı alınacaq: "Zənnimcə, erməni diversant qrupun ələ keçirilməsi və onlara qarşı cinayət işinin açılması qarşı tərəfə də ciddi siqnal ola bilər. Biz belə təxribatların qarşısını nə qədər çox alsaq, o qədər də bu xain planlar azalacaq. Onların əvvəlki iştahlarından əsər-əlamət qalmayacaq. Görəcəklər ki, mənfur niyyətlərini reallaşdıra bilmirlər. Bu gün təxribatlara getmək, cəmiyyətin diqqətini bu cür diversiya əməliyyatlarına çəkmək müəyyən siyasi oyunlara girərək dividentlər qazanmaq, hansı yolla olur -olsun hakimiyyətə yiyələnmək İrəvanda təbii prosesdir. Bu ölkə üçün seçki öncəsi dövrdə belə hərbi qalmaqalların yaradılacağını gözləmək olardı. Ona görə də, mənim şəxsi fikrim belədir ki, bugünkü təxribat sonuncu olmayacaq. Bundan sonra da onlar yeni arzuolunmaz addımlar ata bilərlər. Amma istənilən təxribatın qarşısı Azərbaycanın güc strukturları tərəfindən peşəkarlıqla alınacaq".

***Z.Məmmədli***

# İlham Əliyevə təbriklər gəlməkdə davam edir



***Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik ünvanlayıb.***

Unikal.org xəbər verir ki, təbrikdə deyilir:

"Zati-aliləri. Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Qətər Dövlətinin xalqı adından, şəxsən öz adımdan Sizə və qardaş xalqınıza səmimi salamlarımı, ürəkdən gələn təbriklərimi və gözəl arzularımı çatdırmaqdan böyük məmnunluq və fərəh duyuram.

Zati-alinizə ən xoş diləklərimi çatdırır, xalqınıza inkişaf və firavanlıq, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da möhkəmlənməsini arzulayıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin".

Qətər Dövləti Əmirinin müavini Abdullah bin Həməd Al Tani də Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib.

Təbrikdə deyilir:

"Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi salamlarımı, təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq və fərəh duyuram. Zati-alinizə möhkəm cansağlığı və səadət diləyir, qardaş xalqınıza rifah və tərəqqi arzulayıram. Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin".

Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri Mahmud Abbas Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Təbrik məktubunda deyilir: Milli bayramınız - Respublika Günü münasibətilə Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, Sizə, hökumətinizə və qardaş xalqınıza xeyir-bərəkət və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan və onların mənafeyinə xidmət edən qardaşlıq əlaqələrinin möhkəmləndirilməsini arzulayıram. Xalqımızın azadlığa və müstəqilliyə nail olması üçün onun qanuni hüquqlarına verdiyiniz həmrəylik dəstəyinizi və mövqeyinizi yüksək qiymətləndirirəm.

Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına və qardaş xalqınıza daim tərəqqi və firavanlıq arzulayıram. Əziz qardaşım, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm".

İraq Respublikasının Baş naziri Mustafa Al-Kazımi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Mətndə deyilir: "Zati-aliləri. Sizi Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə İraq Respublikası Hökuməti və xalqı adından, şəxsən öz adımdan təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasında yaxın dostluq və əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayıram.

Cənab Prezident, Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına və Hökumətinə tərəqqi və rifah arzulayıram.

Ən dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# Əhməd İsmayılov jurnalistikaya dair yenilikləri açıqladı

***Medianın İnkişafı Agentliyi media subyektlərinin işinin təkmilləşdirilməsinə, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, onların sosial müdafiəsinin gücləndirilməsinə, media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkilinə, habelə media savadlılığının yüksəldilməsinə yönəlmiş bir sıra layihələr üzərində işləri artıq yekunlaşdırmaq üzrədir.***



"Unikal" xəbər verir ki, bu barədə AZƏRTAC-a müsahibəsində agentliyin icraçı direktoru Əhməd İsmayılov bildirib. Onun sözlərinə görə, qeyd olunan layihələrə dair ətraflı məlumatlar mərhələli şəkildə ictimaiyyətə təqdim olunacaq.

O bildirib ki, yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına şərait yaradacaq.

Həmçinin modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi istiqamətlərin, innovativ yanaşmaların həyata keçirilməsinə təkan verəcək.

"Biz Azərbaycan mediasında mövcud problemlərin xarakteri və məzmununun müəyyənləşdirilməsi məqsədilə təhlillər aparmış və onların aradan qaldırılmasının optimal həlli yolları üzərində işləmişik.

Gəldiyimiz nəticələr və mövzuya dair ətraflı fikirlərimiz yaxın müddətdə media ictimaiyyətinə açıqlanacaq", - deyə Ə.İsmayılov əlavə edib.

# "Azərbaycan qarşıdakı illərdə daha da uğurlara imza atacaq" - Sahibə Qafarova

***"Sabah xalqımız Respublika gününü qeyd edəcək. Bugünkü Azərbaycan Respublikası XX əsrin əvvəllərində mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisidir".***

Unikal.org-un xəbərinə görə, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin bu gün keçirilən iclasında deyib.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüz bərpa olunub. Bu gün Azərbaycan söz sahibi olan qüdrətli dövlətdir. Azərbaycan dövləti qarşıdakı illərdə daha da uğurlara imza atacaq. Respublika günü münasibətilə hər birinizi təbrik edirəm. Təklif edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubu ünvanlayaq", - Milli Məclisin sədri bildirib.



# Məhkəmə sədrinin gömrükdə işləyən kürəkəni həbs edildi

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Dövlət Gömrük Komitəsinin əməkdaşları birgə əməliyyat keçirib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Dövlət Gömrük Komitəsinin şöbə müdiri Orxan Zöhrabov saxlanılaraq, barəsində Binəqədi rayon məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib.



Qeyd edək ki, Orxan Zöhrabov Nəsimi rayon məhkəməsinin sədri İlham Cəfərovun qızının həyat yoldaşıdır.

# Yoluxanların sayı açıqlandı

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 220 yeni yoluxma faktı qeydə alınıb, 533 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 6 nəfər COVID-19-dan vəfat edib.

# Vilayət Eyvazov bu bölməyə yeni rəis təyin etdi



***Daxili işlər orqanlarında yeni kadr təyinatı olub.***

Unikal.org report-a istinadən xəbər verir ki, bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, polis polkovnik-leytenantı Samir Quliyev Suraxanı Rayon Polis İdarəsinin (RPİ) 33-cü Polis Bölməsinə (PB) rəis təyin edilib.

Qeyd edək ki, S.Quliyev bu təyinata qədər Qaradağ RPİ-nin Cinayət Axtarış Şöbəsinin rəisi vəzifəsində çalışıb.

# Azərbaycan Ordusunun əsgəri həlak oldu

***Azərbaycan Ordusunun hərbi qulluqçusu vəfat edib.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, Azərbaycan Ordusunun hərbi qulluqçusu, əsgər Sadıqov Qorxmaz Elşad oğlunun qeyri-döyüş şəraitində həlak olması ilə bağlı məlumatı təsdiq edib. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.



# Yaz sessiyasının sonuncu iclası olacaq

***Milli Məclisin növbəti plenar iclası mayın 31-də keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə spiker Sahibə Qafarova məlumat verib.

Qeyd edək ki, 31 may Milli Məclisin yaz sessiyasının sonuncu iclası olacaq.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Prezident Ziya Selçuku qəbul etdi

## İlham Əliyev: "Ərdoğanın səfəri çərçivəsində Şuşada məktəbin təməli qoyulacaq"



***Azərbaycan Prezidenti İlham Əliyev mayın 27-də Türkiyə milli təhsil naziri Ziya Selçuku qəbul edib.***

"Unikal" xəbər verir ki, bu haqda Prezidentin Mətbuat xidməti məlumat yayıb. Türkiyəli naziri salamlayan Prezident İlham Əliyev deyib:

- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və əlaqələrimiz bütün başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də daha sürətlə inkişaf edəcək.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir və elə sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. İki qardaş ölkə kimi biz bütün sahələrdə qarşılıqlı hörmət və qarşılıqlı maraqlar əsasında əməkdaşlıq edirik. Təhsil sahəsi də əməkdaşlığımızın önəmli bir hissəsidir. Çünki, gənc nəslin yetişdirilməsi, bir-birinə bağlı olması üçün, əlbəttə ki, bu sahədə çox önəmli addımlar atılmalıdır və əslində atılır. Əminəm ki, sizin budəfəki səfəriniz çərçivəsində bir çox önəmli məsələlər müzakirə olunacaq və gələcək işbirliyimiz haqqında konkret planlar tərtib ediləcəkdir.

Bizim ölkəmizdə indi yeni dövr başlamışdır. İkinci Qarabağ müharibəsindən sonra bərpa və yenidənqurma dövrü başlamışdır. Mən sizə azad olunmuş torpaqlarda Ermənistan tərəfindən törədilmiş dağıntılara həsr edilmiş kitabı da təqdim edəcəyəm. Görəcəksiniz ki, bizim torpaqlarımız nə qədər böyük dağıntılara məruz qalıb. İndi şəhərlərin baş planı hazırlanır və bu baş planların tərkib hissəsi kimi məktəblərin tikintisi nəzərdə tutulur. Şuşa şəhərində ermənilər tərəfindən dağıdılmış məktəbin təməli bu ay qoyulmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın səfəri çərçivəsində Türkiyə tərəfindən təklif edilmiş bir hədiyyə kimi, məktəbin də təməlqoyma mərasimi proqramda öz əksini tapıbdır.

Biz hazırda bu sahə ilə bağlı çox ciddi islahatlar aparırıq. Türkiyənin təcrübəsi bizim üçün çox önəmlidir. Həm təhsil, təhsilin keyfiyyətinin qaldırılması, eyni zamanda, Türkiyə və Azərbaycan gənclərinin bir-birinə daha sıx bağlı olması ilə əlaqədar əlavə təkliflər də müzakirə edilməlidir. Çünki, biz elə bir güclü müttəfiqlik yaratmışıq ki, gələcək nəsillər öz addımlarını bu müttəfiqliyə, bu qardaşlığa uyğun atmalıdırlar və indidən bir-birinə sıx bağlı olmalıdırlar. Hesab edirəm ki, bu məqsədlə müxtəlif tədbirlər - gənclər forumları, birgə təhsil proqramları və digər tədbirlər keçirilməlidir. Əminəm ki, siz səfər çərçivəsində bu məsələləri öz həmkarınızla geniş müzakirə edəcəksiniz.

Bir daha xoş gəlmisiniz.

Türkiyənin milli təhsil naziri Ziya Selçuk deyib:

- Hörmətli cənab Prezident. Bizi qəbul etdiyiniz, vaxt ayırdığınız üçün çox təşəkkür edirik. Hörmətli Prezidentimizin, Türkiyə xalqının salamları ilə buraya gəldik və böyük bir sevinclə gəldik. Qarabağ Zəfərinin - tarixə yazılan bu Qarabağ Zəfərinin qəlbimizdəki sevinci ilə buradayıq. Min ildən sonra da Sizin adınız tarixdə uşaqlar tərəfindən tərənnüm ediləcək və uşaqlar Sizin adınızı, xalqın, şəhid olan əsgərlərimizin adını əzbər söyləyəcəklər, İnşallah. Bu, küçələrə çıxan bütün Türk vətəndaşlarının son dövrlərdə yaşadığı ən böyük sevincdir və biz çox xoşbəxtik.

Bununla yanaşı, bizim aramızdakı təhsil proqramları, təhsilin inkişafı, gələcəklə bağlı görüləcək işlərlə əlaqədar heç bir problem ola bilməz. Biz hamısını həll edərik. Mən bunların texniki tərəfləri ilə Sizi məşğul etmək istəmirəm. Həmkarım, dostumla birlikdə biz nə lazımdırsa, artıqlaması ilə edərik. Heç narahatlığınız olmasın. Sizin əmrləriniz bizim üçün kifayətdir. Bu çərçivədə peşə fəaliyyəti ilə bağlı imzaladığımız protokol da hazırda həyata keçirilir. Bu gün də onunla bağlı müzakirələri davam etdirəcəyik. Bizim əlaqələrimiz, münasibətimiz rəsmi münasibətdən də yüksək səviyyədə davam edir. Proseslərin, işlərin sürətləndirilməsi üçün nə lazımdırsa, birlikdə edirik.

Digər məsələlər də həll edilir. Xüsusilə, FETÖ məsələsində Sizin göstərdiyiniz qətiyyət, verdiyiniz dəstək bizim üçün çox mühümdür. O da bizə böyük xoşbəxtlik və sevinc verir. Bunun üçün çox şadıq. Bundan başqa, biz görüləli olan bütün iş və prosesləri qaydasına qoyacağıq, dostlarımızla birlikdə həll edəcəyik və sonra da Sizə məruzə edəcəyik, cənab Prezident. Heç narahat olmayın. Nə lazımdırsa, biz bu işlərin başındayıq, izindəyik, cənab Prezident.

Mən bizi qəbul etdiyiniz üçün bir daha təşəkkürlərimi və ehtiramımı bildirirəm.

Prezident İlham Əliyev: Sağ olun. Mən çox şadam ki, peşə təhsili ilə bağlı işlər davam edir. Buna çox böyük ehtiyac var. Xüsusilə, Azərbaycan, dediyim kimi, bu gün böyük quruculuq işlərinin astanasındadır və həm azad edilmiş torpaqlarda, həm də bütün ölkə üzrə yeni təhsilli kadrların hazırlanması çox böyük önəm daşıyır. Ona görə, azad edilmiş torpaqlarda ixtisaslar üzrə, o bölgələrin potensialına uyğun olaraq peşə məktəbləri yaradılmalıdır. Əlbəttə ki, biz Türkiyə tərəfinin dəstəyinə ümid edirik.

Mən artıq göstəriş vermişəm ki, bizim təhsil proqramlarımızda, məktəblərdə və ali məktəblərdə, universitetlərdə tarix dərsliklərinə İkinci Qarabağ müharibəsi mövzusu mütləq salınsın. İndi bizim müvafiq qurumlar, o cümlədən Təhsil Nazirliyi bu məsələ üzərində çalışır ki, bizim bu şanlı tariximiz dəqiqliklə öyrənilsin. Çünki beynəlxalq mətbuatda bu günə qədər İkinci Qarabağ müharibəsi ilə bağlı yanlış və təhrif edilmiş məlumat dərc edilir. Ona görə, real həqiqətləri, həqiqətə əsaslanmış bu tarixi biz həm öz vətəndaşlarımıza, həm də dünyaya çatdırmalıyıq. Ümid edirəm ki, Türkiyənin tarix dərsliklərində də bu məsələ öz əksini tapacaq. Xüsusilə, nəzərə alsaq ki, Türkiyə müharibənin ilk saatlarından Azərbaycana çox böyük siyasi və mənəvi dəstək göstərmişdir. Əziz Qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk dəqiqələrdən, ilk saatlardan bəyanatlarla çıxış etmiş və demişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Bunun çox böyük mənəvi və siyasi əhəmiyyəti olmuşdur. Azərbaycan 44 gün ərzində ədaləti, öz ərazi bütövlüyünü bərpa etdi və 30 illik işğala son qoyuldu.

Ona görə, bizim gənc nəslimiz, əlbəttə ki, tarixi olduğu kimi bilməlidir. Mən oxuduğum dövrdə biz təhrif edilmiş tarixi öyrənirdik. Azərbaycan xalqının qanını axıdan daşnak-bolşevik bandalarının rəhbərləri qəhrəman kimi təqdim edilirdi. Mən məktəbdə və ali məktəbdə oxuyarkən bu kitablar, bu saxta tarix kitabları əsasında oxumuşam. Biz müstəqilliyə qovuşandan sonra real tarixi bildik. Qəhrəmanlar düşmən kimi göstərilirdi, düşmənlər qəhrəman kimi. Ona görə, biz - sovetlər birliyində yaşamış insanlar, - sovetlər birliyi dağılanda mənim 30 yaşım var idi, bütün təhsilimi bitirmişdim, - ondan sonra öyrəndim ki, bizə nə qədər ziyanlı və saxta tarix təqdim edilirmiş. Ona görə indiki şəraitdə biz həm qədim tariximizi, eyni zamanda, müasir tariximizi olduğu kimi təqdim etməliyik və bu sahədə bərabər çalışacağıq.

Ziya Selçuk: İnşallah.

Prezident İlham Əliyev Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.



## Ceyhun Bayramov Ermənistanla sərhədin delimitasiyasından danışdı

***Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası heç zaman baş verməyib. Burada hər hansı fikir ayrılığı olduğu təqdirdə belə bunun beynəlxalq səviyyədə qəbul olunmuş həll mexanizmi var.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov AzTV-yə müsahibəsində deyib.

O bildirib ki, həll mexanizmi ondan ibarətdir ki, lazım olarsa, dövlətlər işçi qrupu yaratmalıdır:

"Müəyyən işçi komissiyası yaradılmalı, mütəxəssislər cəlb edilməlidir. Burada hər hansı siyasi isteriya formasında deyil, normal praqmatik formada iş aparılmalıdır. Sərhədlərin delimitasiyası olmalıdır. Bundan sonra hər bir tərəf beynəlxalq sərhədlərə hörmətlə yanaşmalıdır".

## "İqtisadi islahatlar öz bəhrəsini verir" - Mikayıl Cabbarov

***2021-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozların icrası 131,7% təşkil edir.***



"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb. Onun sözlərinə görə, büdcəyə nəzərdə tutulandan 780,7 mln. manat artıq vəsait daxil olub ki, bunun da 451,0 mln. manatı qeyri neft-qaz sektorunun payına düşür.

Nazir, həmçinin əlavə edib ki, vergi daxilolmaları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 266,9 mln. manat artıqdır.

"İqtisadi islahatlar və özəl sektorun inkişafı öz bəhrələrini verir", - deyə M.Cabbarov vurğulayıb.

## Gələn ay qeyri-iş günlərinin sayı AÇIQLANDI

***İyun ayında bayramlarla əlaqəli 3 qeyri-iş günü olacaq.***

Unikal.org xəbər verir ki, 15 iyun - Milli qurtuluş günü, 26 iyun isə Silahlı Qüvvələr Günüdür.

Həmin günlər Nazirlər Kabinetinin müvafiq qərarı ilə ölkədə qeyri-iş günləri hesab olunur.

26 iyun şənbə gününə təsadüf etdiyindən həmin gün 28 iyunla əvəz ediləcək. Bununla da gələn ay ölkədə 3 (15, 26 və 28 iyun) qeyri-iş günü olacaq.

# Vaşinqtonda Azərbaycanla bağlı bəyannamə imzalandı



***Vaşinqton şəhərinin meri Myuriel Bauzer Azərbaycan Demokratik Respublikasının yaranmasının 103-cü ildönümü ilə əlaqədar 28 May tarixini Respublika Günü elan edib və bununla bağlı bəyannamə imzalayıb.***

"Unikal" xəbər verir ki, bəyannamədə 1918-ci ildə müsəlman dünyasında ilk dəfə olaraq parlamentli demokratik respublikanın yaradılması qeyd edilib.

Vurğulanır ki, dünyada 50 milyon azərbaycanlı yaşayır, 10 milyon azərbaycanlı diasporu təşkil edir və Vaşinqton şəhəri bu icma üçün ilk 10 şəhər arasında yer alır.

Eyni zamanda, bu il Azərbaycanın müstəqilliyinin bərpasından otuz il və ABŞ ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasından iyirmi doqquz il keçdiyi bildirilir. Azərbaycanın ABŞ-ın Cənubi Qafqaz və Xəzər dənizi bölgəsində strateji tərəfdaş olduğu vurğulanaraq hər iki ölkənin qlobal enerji təhlükəsizliyinə və regional sabitliyə, sülhə və firavanlığa dəstəyi diqqətə çatdırılır. Azərbaycan Respublikasının ABŞ-dakı Səfirliyi və ABŞ-Azərbaycan Ticarət Palatası xüsusilə ölkənin paytaxtında müxtəliflik və fürsət yaratmaq üçün iqtisadi sahədə və insanlar arasında mübadilənin vacibliyini tanıyır.

# Qazaxıstandakı soydaşlarımız "YAŞAT" xeyriyyə marafonuna qoşulublar

***Kostanay vilayətindəki soydaşlarımız "YAŞAT" xeyriyyə marafonuna qoşulublar.***

Unikal.org xəbər verir ki, Qazaxıstanın Kostanay vilayətində fəaliyyət göstərən azərbaycanlı icmasının "Birlik" etnomədəni cəmiyyətinin təşəbbüsü ilə "YAŞAT" xeyriyyə marafonuna dəstək tədbiri keçirilib.

Tədbirdə çıxış edən "Birlik" cəmiyyətinin sədri Rafail Hacıbalayev deyib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il Vətən müharibəsində Qələbəni bizə yaşadanlara və Zəfər tarixini yazanlara dəstək olmaq hər bir azərbaycanlının borcudur: "Qazaxıstan azərbaycanlıları da böyük xalqımızın bir hissəsi olaraq hər an dövlətimizə dəstək olmaq üçün əlindən gələni etməyə hazırdırlar".

Cəmiyyətin tədbirdə iştirak edən 51 üzvü "YAŞAT" xeyriyyə marafonuna qoşulduğunu bildirib və ianə edib.

# Konqresmen Qosar Azərbaycanı təbrik etdi

***ABŞ Konqresinin üzvü Pol Qosar bəyanatla çıxış edərək, Azərbaycan Respublikasının 103 illiyi və Sovet İttifaqından müstəqilliyinin 30 illiyi ilə bağlı öz təbriklərini çatdırmışdır.***

Azərbaycanın ABŞ-dalə Səfirliyindən verilən məlumata görə, bəyanatda, Azərbaycanın bölgədə vacib tərəfdaş kimi demokratiya və müstəqilliyin parlaq nümunəsi olmaqda davam etdiyi xüsusi vurğulanır.

Əsrlər boyu Rusiya imperiyası və Sovet İttifaqının qəddar idarəçiliyi altında olan Azərbaycanın müstəqilliyə nail olduğu, ABŞ-ın dost Azərbaycanla birgə Respublikanın 103 illiyini qeyd etdiyi diqqətə çatdırılır.

ABŞ və Azərbaycanın azadlıq, demokratiya və müstəqillik kimi birgə amalları bölüşdüyü Konqres üzvü tərəfindən qeyd olunur və digər Konqres üzvləri təbriklərə qoşulmağa dəvət edilir.

# "Ermənistan onsuz da çıxılmaz vəziyyətdədir"

## Cavid Osmanov: "Cənab Prezidentin sülh mesajından sonra Ermənistan tərəfinin bu təxribatı indiki hakimiyyətinə qarşı siyasi təzyiq kimi qiymətləndirilə bilər"

***Ermənistan tərəfinin təxribatçı əməlləri davam edir. Öncə erməni əsgərlərinin sərhədimizi pozması, əsgərlərimizə hücumu, ardınca isə dirversiya qruplarının məlum addımları ciddi narahatlıq yaradıb. Lakin ordumuzun müvafiq bölmələrinin keçirdiyi adekvat tədbirlər nəticəsində düşmən zərərsizləşdirilib. Təbii ki, son olaylar sıradan hadisə deyil. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, deputat Cavid Osmanov "Unikal"a müsahibəsində bu barədə danışıb.***

***-Cavid müəllim, Azərbaycanla Ermənistan sərhədində baş verənlərlə bağlı fikirlərinizi bilmək istərdik.***

-Əlbəttə ki, burada erməni hiyləsi, erməni xisləti var. Hər zamankı kimi onlar təxribatçı əməllərini davam etdirirlər. Azərbaycan Vətən Müharibəsində parlaq qələbə qazandı və dövlətimiz bölgədə yeni reallıq yaratdı. Bu reallıqlara uyğun olaraq, Azərbaycan Prezidenti yeni qarşılıqlı əlaqələrin qurulması, münasibətlərin tənzimlənməsi və eyni zamanda, bir neçə gün əvvəl cənab İlham Əliyev tərəfindən bir daha bəyan olundu ki, biz Ermənistanla sülh müqaviləsi bağlamağa hazırıq. Amma bunun üçün də Ermənistan tərəfi Azərbaycanın beynəlxalq hüquq normaları çərçivəsində tanınmış sərhədləri və ərazi bütövlüyünü tanımalıdır. Bütün bunların fonunda Azərbaycan tərəfi bir daha bəyan etdi ki, sərhəddə baş verən təxribatla bağlı heç bir iştirakı yoxdur. Bu, sadəcə olaraq Ermənistanın növbəti təxribat cəhdidir. Ancaq göründüyü kimi, Azərbaycan tərəfi lazımi tədbirləri görüb və layiqli cavab verilib.

***-Sizcə, bu təxribatları intensivləşdirməkdə məqsəd nədir?***

-Burada biz bir şeyi yaddan çıxarmamalıyıq ki, iyunun 20-də Ermənistanda seçkilər keçiriləcək. Artıq bu yeni hal deyil ki, Ermənistanda seçkiöncəsi, yaxud hər hansı siyasi proseslərdə həm ölkə daxilində, həm sərhəddə belə təxribatlar həyata keçirilir. Ona görə də burada təəccüblü bir şey yoxdur. Çünki erməni xislətindən hər şey gözləmək olar.

***-Ancaq sərhddəki insidentlə bağlı yayılan videoya münasibət birmənalı deyil. Sərhəddin mühafizəsinin təşkilində problemlərin olduğu ilə bağlı narazılıqlar var. Bu barədə Siz nə düşünürsünüz?***

-44 günlük müharibə dövründə də, Azərbaycan torpaqlarının işğaldan azad edildiyi zamanda da öz sərhədlərimizi qurmağa başlamışdıq. Yəni, işğalçıları ərazilərimizdən qovurduq, həmin ərazilərdə möhkəmlənirdik. Bildiyiniz kimi, İranla sərhədlərimizi bərpa elədik. Torpaqlarımız işğaldan azad edildikcə Azərbaycan öz sərhədlərinin mühafizəsini lazımi formada təşkil edirdi. Təbii ki, müharibə yeni bitib, cəmi 6 ay keçib,hər hansı xırda nöqsanın olması mümkündür. Amma ümumən götürəndə Azərbaycan tərəfi bütün sərhəd boyu lazımi və zəruri addımları atır.

***-Erməni tərəfindən hər hansı təxribat törədiləndə, hansısa insident yaşananda rus sülhməramlılarının fəaliyyətinin qənaətbəxş olmadığı gündəmə gəlir. Bəzi hallarda onların öz missiyalarını yerinə yetirə bilmədikləri narazılıqla qarşılanır...***

-Bu məsələylə bağlı ölkə Prezidenti cənab İlham Əliyevin mövqeyi ortadadır. Prezidentimiz Rusiya sülhməramlılarının fəaliyyətini yüksək qiymətləndirib. Təbii ki, istisna halların olması mümkündür. Hansısa mənfi tendensiyanı ümumi sülhməramlı kontingentinə aid eləmək də doğru olmaz. Bir daha deyirəm, müharibə yeni bitib və burada təhlükəsizlik məsələləri çox vacibdir. Hər iki tərəf arasında vaxtaşırı hansısa narazılıqlar baş verə bilər. Amma xırda insidentləri çıxmaq şərtiylə ümumilikdə sülhün, əminamanlığın təmini üçün ciddi problemlər hələki yoxdur.

***-Fakt odur ki, müəyyən insident yaşanır, amma birmənalı fikir yoxdur. Bəziləri iddia edir ki, bu gərginliyi Qarabağ klanının nümayəndələri, bəziləri isə Paşinyanın özü tərəfindən bu cür təxribatların hazırlandığı bildirilir...***

-Söhbətimizin əvvəlində qeyd etdiyim kimi, Ermənistanda seçkilərə görə müəyyən qüvvələrin bu cür təxribatlar təşkil edəcəyi istisna deyil. Ermənistanın dövlət siyasətinin mərkəzində terrorizm dayanır. Bilirik ki, hansısa siyasi məqsədə çatmaq üçün Ermənistanda terror aktı törədilə bilər. Bu gün də insanların siyasi mövqeyinə görə həbs olunması, təqiblərə məruz qalması faktları var. İndiki fonda qarşılıqlı ittihamlar da var və günbəgün artır. Belə bir məqamda bir tərəfin digər tərəfə zərbə vurması üçün sərhəddə bu cür təxribatların törədilməsi mümkündür. Bütün bunlar daxili çəkişmələr fonunda baş verir.



***-Maraqlısı odur ki, bu cür təxribatlar Azərbaycan Prezidentinin sülh çağırışından sonra daha da intensivləşib. Sizcə, bu təsadüfdür, yoxsa...***

-Ermənistan elə bir dövlətdir ki, orada nə baş verdiyini proqnozlaşdırmaq çətindir. Vətən Müharibəsinin Azərbaycanın qələbəsi ilə bitməsi Ermənistanda böhranın daha da dərinləşməsi, tənəzzülə uğraması ilə nəticələndi. Bütün bunlara görə erməni xisləti yenidən işə salınır və təxribatlar törədilir. Əlbəttə ki, Azərbaycan Prezidentinin sülhlə bağlı verdiyi mesajlar bütün dünyaya çatdı. Bu günlərdə cənab İlham Əliyevə ünvanlanan təbrik məktublarında bu məsələlər öz əksini tapmışdı. Amma Ermənistanın daxilindəki gərginlik, revanşist ritorika ilə danışanların sayının çox olması Azərbaycanafobiyanın geniş yayılmasından irəli gəlir. Xüsusən də bunlar seçkidə təsiredici vasitəyə çevrilib. Ermənistan onsuz da çıxılmaz vəziyyətdədir. İndi isə daha çətin duruma düşüb. Vətən Müharibəsindən sonra diqtə edən tərəf , yeni reallıqlar yaradan Azərbaycandır. Bunun fonunda Ermənistan nə iləsə cavab verə bilmir. On görə də daxili gərginliyə uyğun olaraq müəyyən çəkişmələrə əl atırlar. Cənab Prezidentin sülh mesajından sonra Ermənistan tərəfinin bu təxribatı indiki hakimiyyətinə qarşı siyasi təzyiq kimi qiymətləndirilə bilər.

***Z.Məmmədli***

# Milli Məclisdə Şuşa haqqında müzakirə...

## Deputat: “Qanun layihəsi qəbul olunandan sonra ermənilər Şuşa şəhəri haqqında xulyalardan əl çəkəcəklər”



***Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə 15 məsələ daxil edilib.***

Öncə “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb.

“Şuşa mədəniyyət paytaxtı olmaqla bərabər həm də qəhrəmanlıq nümunəsidir. Bundan sonra Şuşada daha böyük və mühüm tədbirlər keçiriləcək”. Bu sözləri Milli Məclisin iclasında Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri Şuşa şəhəri haqqında təkliflərini səsləndirib: “Şuşa müqəddəs məkandır. Şəhərin inzibati sərhədləri daxilində qoruğun yaradılması şəhərin qorunmasına, mədəniyyət nümunəsi kimi mühafizəsinə xidmət edir. Şuşa şəhərinə Mədəniyyət Paytaxtı adının verilməsi haqqında qanunda nəzərdə tutulan Şuşa Fondunun yaradılmasını təqdirəlayiq hesab edirəm. Hər kəsi bu fondun yaradılmasına dəstək göstərməyə dəvət edirəm”.

Tahir Rzayev Şuşaya “Qəhrəman Şəhər” adının verilməsini təklif edib: “Bu şəhər qəhrəmanlıq nümunəsidir. Şuşanın görkəmli bir yerində əsgərlərimizin şücaətini əks etdirən abidənin qoyulmasını məqsədəuyğun hesab edirəm. Bundan əlavə Bakıda yaradılan “Qənimətlər parkı”nın simasında Şuşada da bunun kimi bir parkın yaradılması doru olardı”.

Deputat çıxışının sonunda əlavə edib ki, Bülbülün dağıdılan ev muzeyinin bərpası və hansısa formada insanların ziyarətinə təqdim edilməsi yaxşı olardı.

Milli Məclisin deputatı Vahid Əhmədov parlamentin plenar iclasında bir neçə vacib məqama toxunub. Deputat Şuşa şəhəri haqqında hazırlanmış qanun layihəsinin çox vacib və aktual olduğunu qeyd edib:”Qanun layihəsinin hazırlanması təkcə Şuşa yox, bütün Qarabağ üçün beynəlxalq əhəmiyyətli məsələdir. Qanun layihəsi qəbul olunandan sonra ermənilər Şuşa şəhəri haqqında xulyalardan əl çəkəcəklər”.

Vahid Əhmədov Şuşanın tarixinə də qısa nəzər salıb: “1939-cu ildə Şuşa rayonu yaradılıb. Şuşaya 37 kənd daxil edilib. Kəndlərin siyahısına baxanda çoxunun siyasi əhəmiyyət kəsb etdiyini görmək olar. Vaxtilə o kəndlərdə yaşayançılar 96% azərbaycanlı, 4% erməni olub. Həmin kəndlərdə hazırda ermənilər və sülhməramlılar fəaliyyət göstərir. Bu kəndlərin işğal altında olması gələcəkdə ermənilərə impuls verə bilər. Ciddi problemlər yarada bilər. Şuşa şəhəri Şuşa rayonuna daxildir. Onun idarəetmə məsələsi qanunda öz əksini tapsa, yaxşı olar. Bu subyektiv fikrimdi. Həmkarlarim və hüquqşünaslar bu haqda fikirləşsinlər”.

“Şuşa Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təsis edilməsini təklif edirəm”. Bu təkliflə Milli Məclisin iclasında Şuşaya mədəniyyət paytaxtı adının verilməsi haqqında qanunun müzakirəsi zamanı deputat Fəzail Ağamalı çıxış edib. Deputat qeyd edib ki, bu məsələ əlavə maddə olaraq qanunda qeyd edilə bilər:

“Həmçinin, qanunun preambula hissəsində qeyd edilməlidir ki, Şuşa 18-ci əsrdən etibarən Azərbaycanın mədəniyyət paytaxtı kimi fəaliyyət göstərir.

Bu vaxtdan bəri digər şəhərlərin mədəniyyətə töhfələrini müqayisə etdikdə görünür ki, Şuşanın xidmətləri daha üstündür”.

“Şuşa mədəniyyət paytaxtı və Qoruq şəhər elan edilir. Onun idarəsi publik hüquqi şəxsə tapşırılır. Bəs şəhərdə İcra hakimiyyəti və digər idarəetmə strukturları saxlanılacaqmı?”. Milli Məclisin iclasında çıxış edən Qüdrət Həsənquliyev Şuşa haqqında belə bir sual ünvanlayıb. Deputat qeyd edib ki, bu məsələlər hələ də dəqiqləşdirilməyib: “İdarəetmənin formasını dəyişmək Milli Məclisin səlahiyyətində deyil. Amma yerlərdə idarəetməni həyata keçirən İcra hakimiyyəti və bələdiyyələrin aqibətinin necə olacağı aydın deyil”.

Parlamentin birinci vitse-spikeri Əli Hüseynli isə deputatın sualına cavabında qeyd edib ki, həmin qurumların fəaliyyəti yerində qalacaq: “Şuşa şəhərində hazırda prezidentin xüsusi nümayəndəsi idarəçiliyi həayata keçirir. Eyni zamanda, publik hüquqi şəxs yaradılıb. Bu təsisat yalnız qoruğun idarəçiliyinə məsuldur”.

Milli Məclisin plenar iclasında Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası ilə bağlı qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsinə əsasən, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 681 milyon 734,6 min manat, xərcləri isə 26 milyard 416 min 297,5 min manat təşkil edilib. Büdcə kəsiri 1 milyard 734 milyon 562 912 manat təşkil edib. 2021-ci il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı isə 1 milyard 526 milyon 094 088 manat olub.

Müzakirə zamanı çıxış edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili büdcənin icrası ilə balı bir sıra rəqəmləri səsləndirib: “Müharibə şəraiti, döyüşün maliyyələşdirilməsi, şəhid ailələri və qazilər üçün həssaslıq dövlət büdcəsi qarşısında vacib məsələlərdən biri olub. Bununla yanaşı, bir sıra xərclərin dövlət büdcəsində icrası 99,1 %-ə çatıb. Pandemiya səbəbindən iqtisadi aktivlik, əhalinin hərəkəti məhdudlaşdırılıb. Son 5 ildə sosalyönümlü xərclərin dövlət büdcəsində xüsusi çəkisi 5 dəfə artıb. Ölkədə koronavirus pandemiyası ilə mübarizədə 2 milyard manata yaxın vəsaitin icrası təmin edilib. 2020-ci il dövlət büdcəsinin icrası zamanı bəzi çatışmazlıqlar müəyyən edilib. Komitədə aparılan təhlillər o qənaətə gəlməyə imkan verir ki, ”Büdcə sistemi haqqında qanun”un təkmilləşməsinə ehtiyac var. Yaxdud bununla bağlı yeni qanunun qəbulu daha çevik qərarların qəbul edilməsin səbəb ola bilər. Dünyada son zamanlar böhranlı durumların baş verməsi bu sahədə yeniliklərin təkmilləşməsini tələb edir”.

“2020-ci ildə Azərbaycan iqtisadiyyatı 2 böyük şokla qarşılaşıb. Bunlardan biri pandemiya, ikincisi isə dünya bazarlarında xam neftə tələbatın azalmasıdır”. Bunu Milli Məclisin iclasında 2020-ci il dövlət büdcəsinin icrası ilə balı qanun layihəsinin müzakirəsi zamanı çıxış edən maliyyə naziri Samir Şərifov deyib. Nazir qeyd edib ki, bu məqamlar iqtisadiyyata mənfi təsir göstərib: “Dövlət büdcəsinin xərc strukturunda əhəmiyyətli dəyişiklik edilib. İqtisadi baxımdan ötən il bütün dünya ölkələri üçün ağır il kimi qalacaq. Dünya üzrə qlobal iqtisadi artım göstəricisi 3,3 faiz bənd azalıb. Ortalama bu göstəricinin bir qədər yuxarı olması Cənub-Şərqi Asiya dövlətlərində iqtisadi tənəzzül tempinin aşağı olması ilə bağlıdır.

Ötən il Prezident İlham Əliyevin tapşırığı əsasında kompleks sosial tədbirlər proqramı hazırlanıb. Nazir qeyd edib ki, yaranmış vəziyyətə uyğun yeni xərclər maliyyələşdirilib: “Gəlirlərin azalması Dövlət Neft Fondundan transfertin məbləğinin artırılması ilə tənzimlənib. Hesabat ilində götürülmüş bütün sosial öhdəliklər tam yerinə yetirilib. Eyni zamanda, pandemiyadan zərərçəkən sahələrin dəstəklənməsi nəticəsində pandemiyanın ölkə iqtisadiyyatına təsirinin azaldılmasına nail olunub. Pandemiyaya baxmayaraq, ordu quruculuğu, təhlükəsizlik xərcləri təmin olunub. Manatın məzənnəsinin sabitliyi qorunub. Pandemiyanın dünya iqtisadiyyatına təsirlərini göstərdiyi ilk aylarda Azərbaycanın valyuta bazarında gərginlik yaşanırdı. Azərbaycan dövlətinin 2020-ci il ərzində pandemiya ilə mübarizə sahəsində atdığı addımlar beynəlxalq təşkilatlar tərəfindən də izlənir. Beynəlxalq Valyuta Fondu Azərbaycan hökumətinin bu sahədə gördüyü tədbirlərin mühüm rolunu vurğulayıb və hökumətin keçirdiyi tədbirləri çevik və adekvat qiymətləndirib”.

***H.İsgəndərov***

# Fuad Muradov azərbaycanlıları təbrik etdi



***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 28 may - Respublika Günü münasibətilə dünya azərbaycanlılarını təbrik edib.***

Unikal.org xəbər verir ki, komitə sədrinin təbrik müraciətində deyilir:

"Əziz dünya azərbaycanlıları! Sizi xalqımızın milli bayramı - Respublika Günü münasibətilə təbrik edir və hər birinizə ən xoş arzularımı bildirirəm.

Cənab Ali Baş Komandanın rəhbəriyi ilə əldə edilmş tarixi Qələbəmiz builki 28 may - Respublika Gününə xüsusi sevinc bəxş edir.

Türk və islam dünyasına nümunə olan, 103 yaşını qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti, ilk parlamentli demokratik respublika və dünyəvi dövlət nümunəsi kimi, xalqımızın tolerant, beynəlxalq hüquq normalarına dəyər verən ali xarakterinin göstəricisidir. Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş 28 may tarixi soydaşlarımızın yaşadığı bütün ölkələrdə qeyd edilir.

Bu gün Cümhuriyyətin varisi olan müstəqil Azərbaycan Respublikası möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyanın dinamik inkişaf edən, qalib dövlətidir.

Bir daha Sizləri 28 may - Respublika Günü münasibətilə təbrik edir, doğma Vətənimizin maraqlarının qorunması, xalqımızın zəngin milli-mədəni irsinin təbliği yolunda uğurlar arzu edirəm. Yaşasın müstəqil, qüdrətli Azərbaycan Respublikası".

# "Fədailər" adlı kitabının təqdimatı keçirilib

***Şairə, publisist, ömrünü şəhidlərimizin tanıdılmasına həsr edən vətənpərvər şairə Manya Səxavətqızının şəhidlərimizə həsr etdiyi növbəti "Fədailər" adlı kitabının təqdimatı keçirilib.***

"Fədailər" kitabında müəllifin 100-ə yaxın şəhidimizə həsr etdiyi ithaf şeirlər, ümumilikdə isə 240-a yaxın şəhid mövzulu şeirlər yer alıb. Kitabın ön sözü Respublikanın əməkdar artisti, bədii-qiraət ustası Ağalar Bayramova məxsusdur. Tədbir Nərimanov Rayon İcra hakimiyyətinin gənclər və idman idarəsinin təşkilatçılığı ilə Təfəkkür Unversitetində keçirilib. Ölkəmizdə baş verən pandemiya səbəbindən məhdud sayda qonaqların iştirakı ilə baş tutan tədbirdə bir çox şəhid ailələri ilə yanaşı qazilər, hərbçilər, ilahiyyatçı alim Hacı Ramil Bədəlov və vətənpərvər gənclər iştirak edib.

Tədbirdə ilk olaraq Nərimanov Rayon İcra hakimiyyətinin gənclər və idman idarəsinin idarə rəisi Nəcəf Novruzov çıxış edib. Tədbirdə Mayor Rasim Məmmədovun qardaşı Şahin Məmmədov, Zakir Cəfərovun anası Kəmalə Cəfərova, Fəxrəddin Qurbanovun atası Seyfəddin Qurbanov, Cabbarxan Hacıağayevin atası İlham Hacıağayev, Sənan Axundovun xanımı Nəcibə Axundova, ilahiyyatçı Hacı Ramil Bədəlov, Vətən muharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdürü qazi Anar Məmmədov, qazi Ülvi Qədirov və vətənpərvər gənc Tamerlan Əkbərov çıxış ediblər. Tədbiri yekun çıxışı ilə kitabın müəllifi Manya Səxavətqızı tamamlayıb. Daha sonra kitab ailələrə təqdim olunub, xatirə şəkili çəkilib.

# Cahangir Əsgərova qarşı 215 milyon manatlıq şok...

## AZAL "şef"i külli miqdarda dövlət vəsaitini geri qaytarmalı olacaq

***Koronavirus pandemiyasının mənfi təsirinin azaldılması məqsədilə həyati vacib sərnişindaşıma və digər sərnişindaşıma fəaliyyəti göstərən hüquqi şəxslərə ayrılan vəsaitlərin təhlili ilə bəzi təşkilatlar tərəfindən bu vəsaitlərin kənar məqsədlərə istifadəsi hallarına yol verilib. Dəstək məqsədilə ayrılmış büdcə vəsaitlərindən vergi borcları, həmçinin kreditor borcların ödənilməsi və s. məqsədlərlə istifadə olunduğu, həmçinin, pandemiya ilə mübarizəyə xidmət etməyən istiqamətə də vəsaitin yönəldildiyi müəyyən edilib.***

Bu, "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatda Hesablama Palatasının rəyində əks olunub.

Rəydə qeyd olunub ki, "Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) nəzərdə tutulmuş 230,9 mln. manatın 215,5 mln. manatı AZAL-a, 15 mln. manatı isə Milli Aviasiya Akademiyasına ödənilib.

Mövzunu şərh edən iqtisadçı ekspertlər isə maraqlı fikirlər səsləndirirlər. Məsələn, iqtisadçı-ekspert Ruslan Atakişiyev yerli mətbuata açıqlamasında bildirib ki, pandemiya ilə bağlı olaraq 2020-ci il dövlət büdcəsindəki ayırmalar əmək müqaviləsi bağlanmış şəxslərin işdən azad olunmasına dair sosial ödəmələr verilib: "Bu da 4 ayı əhatə edirdi. Prosedur qaydalarına görə, dövlət tərəfindən əmək haqqı fonduna yönəldilmiş yardım və dəstəklər müəssisə tərəfindən digər xərclərə yönəldilə bilməz. Belə olduğu halda həmin vəsait geri qaytarılmalıdır. Səhmlərin və payların böyük hissəsi dövlətə məxsus olan şirkətlərə pandemiya ilə bağlı olan dəstəklər sırf həmin istiqamətə xərclənməlidir. Ona görə də vəsaitlərin xərclənməsindəki yayınmalar mütləq üzə çıxarılır və bunun üçün tədbirlər görülür".



Göründüyü kimi, AZAL rəhbəri Cahangir Əsgərov növbəti dəfə dövlət vəsailərindən kənar məqsədlərlə, yəni təyinatı üzrə olmayan şəkildə istifadəyə yol verib. İndi isə bu məqam ortaya çıxarılıb və Əsgərovun həmin pulu - 215,5 milyon manatı geri qaytarmaq məcburiyyəti ortaya çıxıb.

Əslində AZAL "şef"inin məlum addımında qeyri-adi heç nə yoxdur. İndiyədək yerli media və vətəndaş cəmiyyəti nümayəndələri, o cümlədən, iqtisadi ekspertlər dəfələrlə vurğulayıblar ki, "Azərbaycan Hava Yolları" QSC-də qeyri-şəffaflıq hökm sürür; bu dövlət işlərinin istər gəlirlərinin, istərsə də ona ayrılan dövlət subsidiyalarının hara xərcləndiyi barədə hesabatlılıq çox zəifdir. Elə bu qeyri-şəffaflığın və qeyri-hesabatlılığın nəticəsidir ki, AZAL-ın borcları 1 milyard manatı aşıb, hətta bəzi qaynaqlara görə, 1,5 milyard manata yaxınlaşıb. Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?! Lakin təəccüblənməyə dəyməz: bir qurumda şəffaflıq və hesabatlılıq yoxdursa, üstəlik, şirkət idarəçiliyi dövrün tələbləri ilə ayaqlaşmırsa, onda borc da qaçılmazdır, zərər də!

Əyani nümunə koronavirus pandemiyasının mənfi təsirinin azaldılması məqsədilə həyati vacib sərnişindaşıma və digər sərnişindaşıma fəaliyyəti göstərən hüquqi şəxslərə ayrılan vəsaitlərin AZAL-ın timsalında təyinatsız xərclənməsidir! Bu qanunsuzluğa Cahangir Əsgərovun qol qoyması bir daha təsdiqləyir ki, ölkə rəhbərliyinin ötən ay "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 16 aprel tarixli 2761 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə imzaladığı sərəncam növbəti doğru addımlardan biridir. Həmin sərəncamla AZAL-ın fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək məqsədilə sədr də daxil olmaqla 7 (yeddi) üzvdən ibarət Müşahidə Şurası yaradıldı. Onu da yada salaq ki, Müşahidə Şurasına Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev rəhbərlik edəcək.

Ümid edək ki, Azərbaycanın borc bataqlığında çapalayan daha bir dövlət şirkətinin idarəçiliyində bu cür dəyişiklik AZAL-ın daha çətin günlər yaşamasının önünü kəsəcək. Bu isə ilk növbədə qarşıdakı mərhələdə monopolist mövqelərə malik olduğu halda hər il daha çox ziyan edən və borclanan "Azərbaycan Hava Yolları"ndakı çox sayda qanunsuzluqların üstünün açılması, adıçəkilən QSC-də korrupsiyanın miqyasının, masştabının gözlər önünə sərilməsi ilə mümkündür.

Əks halda müsbət dəyişikliyə inanmaq elə də asan deyil...

***Sənan Mirzə***

# Kəlbəcərdə hərbi yük maşınımız minaya düşdü

***Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətində Azərbaycan Müdafiə Nazirliyinin hərbi yük maşını Azərbaycan postları istiqamətində təchizat yolunu izləyərkən minaya düşüb.***

"Unikal" xəbər verir ki, bu haqda Haqqın.az məlumat yayıb. Qeyd edilir ki, Azərbaycan hərbçiləri itki verib, yaralılar var.

Azərbaycan komandanlığı əvvəlcə minanın keçənilki döyüş əməliyyatları zamanı qoyulduğunu güman edib. Lakin Ermənistan Baş nazirinin bugünkü rəsmi açıqlaması (Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan hökumət iclasında bir qrup erməni hərbçisinin təxribatı və Kəlbəcər bölgəsi ərazisində hərbi əməliyyat hazırlanması barədə Azərbaycan hərbi idarəsinin məlumatını dolayı yolla təsdiqləyib) düşmənin əsl niyyətini ortaya qoyub, ilkin şübhələri təsdiqləyib və Azərbaycana qarşı döyüş əməliyyatlarına hazırlıq planını sübuta yetirib.



Erməni təxribatçılarının Azərbaycanın arxa cəbhəsini minalamaq növləri, Azərbaycan hərbi komandanlığının ilkin qiymətləndirməsinə görə, bir məqsədə - döyüş əməliyyatlarının başlanmasına xidmət edib. Erməni tankları məhz, bu məqsədlə cəbhə bölgəsinə köçürülüb. Ermənistan ordusunun hərbi hissələrinin irəliləməsindən sonra Azərbaycan silahlı qüvvələrinin ehtiyat qoşunları bu təchizat yolu boyunca düşmənlə görüşə gələcəkdi. Və dəstək qrupunun irəliləməsi zamanı Azərbaycan tərəfindəki itkilərin miqyasını təsəvvür etmək olar. Digər tərəfdən, erməni tanklarının Kəlbəcər bölgəsinə doğru irəliləməsi üçün maneəsiz bir yol açardı.

Lakin Azərbaycan tərəfinin sayıqlığı və qabaqlayıcı tədbirləri təxribatçı hərəkətlər və aqressiv planlar həyata keçirmək məqsədi ilə Azərbaycan ərazisinə daxil olan düşmənin məkrli və xain planını pozub. Erməni təxribatçılarını zərərsizləşdirdikdən və tutduqdan sonra, İrəvan hərbi texnika və şəxsi heyətini əvvəlki mövqelərinə çəkmək məcburiyyətində qalıb.

# Malik Həsənovun birdən-birə "məşhurlaşması"...

## Həftənin replikası: niyə bəzi deputatlar, məmurlar cəmiyyətdə yalnız hansısa mənfi hərəkətdən sonra tanınırlar?



***Biz mütəmadi olaraq mətbuatda müxtəlif millət vəkilləri ilə bağlı qalmaqallı hadisələr barədə oxuyuruq. Belə hadisələri bircə-bircə xatırlatmağa ehtiyac yoxdur, çünki xatırlatmaq istəyənlər üçün yaxın və uzaq keçmişdə yaşanan kifayət qədər səs-küylü hadisə var.***

Məsələn, bu yaxınlarda Nəsimi Rayon Polis İdarəsinin (RPİ) əməkdaşları tərəfindən xüsusi karantin rejimi ilə əlaqədar olaraq həyata keçirilən nəzarət tədbirləri zamanı fəaliyyətinə müvəqqəti icazə verilmədiyi halda müştərilərə xidmət göstərən daha bir obyekt aşkar edilmişdi. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən mətbuata verilən məlumatda deyilirdi ki, keçirilən profilaktik tədbir zamanı rayon ərazisində yerləşən "Anderqraund" adlı idman zalı xüsusi karantin rejiminin tələblərini pozaraq müştəri qəbul etdiyi müəyyənləşib. Obyektə baxış zamanı orada olan ümumilikdə 56 nəfər şəxsin karantin rejiminin tələblərini pozması aşkar edilib.

Sonradan aydınlaşdı ki, onlardan biri deputat Malik Həsənovun oğlu İsmayıl Həsənov imiş.

Bu informasiya cəmiyyətdə geniş müzakirələrə səbəb oldu, istər KİV-də, istərsə də sosial şəbəkələrdə sərt tənqidlərlə dilə gətirildi. Sadə vətəndaşlarla müqayisədə imkanlı, vəzifəli şəxslərin özlərinin, övladlarının qanunvericiliyin tələblərinə dırnaqarası münasibəti ciddi ictimai qıcıq doğurdu.

Lakin biz məsələyə başqa prizmadan yanaşmaq istərdik. Məsələ burasındadır ki, bir çoxları Malik Həsənov ad-soyadda millət vəkilinin varlığından məhz bu xəbər sayəsində xəbər tutdu. Maraqlıdır ki, bu, bizim reallıqda tez-tez rastlanan haldır: əksər millət vəkilləri adətən qalmaqallı açıqlamaları, davranışları ilə gündəmə gəlir və geniş ictimaiyyət yalnız bundan sonra belə bir deputatın da olduğunu öyrənir. Malik Həsənov ilə bağlı da eyni təcrübə yaşandı.

Düzdür, jurnalistlərin əksəriyyəti M.Həsənov ad-soyadlı deputatın varlığından xəbərdardırlar. Lakin geniş ictimaiyyətin bu barədə məlumatsızlığı diqqət çəkirdi. Məlum xəbər yayıldıqda hər kəsin ilk işi internet üzərindən kiçik axtarış aparmaq, həmin deputatın kimliyini, hansı rayondan seçildiyini öyrənmək oldu (və aydınlaşdı ki, zaman-zaman haqqında çoxsaylı tənqidi fikirlər səslənən, geniş biznesə və sabiq "əmlak şefi" Kərəm Həsənovla qohumluğa malik Həsənovun az qala başqa hər hansı xüsusi özəlliyi yoxdur!) Və qeyd eləmək lazımdır ki, göstərdiyimiz örnək heç də ilk deyil. İlk olmadığı kimi son olmayacağına da şübhə yoxdur. Bundan sonra da cəmiyyət bəzi deputatları yəqin ki, hansı qalmaqallı informasiyadan, olaydan sonra tanıyacaq...

Əlbəttə, biz israr etmirik ki, hər hansı deputat mütləq cəmiyyətdə böyük məşhurluğa malik olmalıdır. Hərçənd ki, cəmi 125 millət vəkilimiz var və onların adsoyadları ilə rastlaşdıqda kimsə dodaqlarını çəkib belə bir deputatın varlığı barədə ilk dəfə eşitdiyini söyləməməlidir. Ancaq indi söyləmək istədiyimiz tamamilə başqadır: cəmiyyət hansısa millət vəkilinin mövcudluğundan xəbərsiz ola bilər. Ancaq heç bir millət vəkili ictimaiyyətin tənqidinə qalmaqallı xəbərlərin, hadisələrin iştirakçısı kimi gəlməməli, bu xəbərlər, hadisələr nəticəsində tanınmamalıdır.

Baxmayaraq ki, bəzi deputatlar belə xəbərlərlə, hadisələrlə gündəmə gəldikdə qınaq obyekti kimi medianı, sosial şəbəkələri günahkar elan etməyə çalışırlar. Guya hər şey "jurnalist qərəzindən", ya da sosial şəbəkə istifadəçilərinin qeyri-obyektivliyindən irəli gəlir. Bununla razılaşmaq mümkün deyil. Adsoyadınızı ilk dəfə eşidən bir jurnalist, yaxud sadə vətəndaş, sıradan sosial şəbəkə istifadəçisi niyə sizə qərəz bəsləsin, niyə sizinlə intriqa aparsın, niyə sizə qarşı düşmən olsun? Bu absurdu izah etmək mümkündürmü?

Çətin ki, mümkün olsun. Bunun da səbəbi var. Həqiqət, həm də çox sadə həqiqət ondan ibarətdir ki, bəzi millət vəkilləri, məmurlar özləri barədə ictimai rəydə mənfi rəyin formalaşmasında başqalarını qınamaq, hansısa "günah keçisi" axtarmaq yerinə, elə özlərinə, daha doğrusu, öz fəaliyyətlərinə nəzər salsalar yaxşıdır. O zaman görəcəklər ki, medianı, yaxud sadə vətəndaşı suçlamağa ehtiyac yoxdur: tüstü həmişə od olduğu yerdən çıxır!

***Toğrul Əliyev***

# Rayonlara gedəcək sərnişinlərdən COVİD-19 pasportu tələb olunacaq? - Dövlət Xidmətindən cavab

***Mayın 31-i günü Bakıdan və cənub avtostansiyasından 6 mindən çox sərnişinin regionlara səfəri gözlənilir.***

Bunu Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat katibi Nuridə Allahyarova bildirib.

N.Allahyarovanın sözlərinə görə, həmin gün ümumilikdə regionlararası 450 min sərnişinin daşınması proqnozlaşdırılır

"Bu göstərici pandemiyadan əvvəlki sərnişindaşıma ilə bağlı rəqəmlərin 75 faizini təşkil edilir. Yay ərzində bu nəticənin artacağı istisna olunmur".

DANX rəsmisi deyib ki, artıq Bakı və 56 region avtovağzallarında hazırlıq işlərinə start verilib.

"Avtovağzalın ərazisi, avtobuslar, bilet kassaları, sərnişin gözləmə zalları




dezinfeksiya olunur. Sərnişinlərdən COVID pasportu və ya digər sənəd tələb olunmayacaq. Sərnişinlərin avtobusun yanında hərarətləri ölçüləcək. Qızdırması və ya koronavirusa oxşar əlamətləri olan sərnişinlər tibb məntəqəsində yönəldiləcək. Avtobuslarda sərnişinlər hər zamankı kimi oturacaq, ara məsafəsi olmayacaq. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən avtobuslarda kondisionerlər maksimum dərəcədə qoşulmayacaq, havalandırma olacaq. Amma müəyyən temperatur həddi keçiləndən sonra bu qərar qüvvədə olmayacaq və kondisionerlər qoşulacaq".

N.Allahyarova bildirib ki, mayın 31-dən 566 marşurut xətti üzrə 1864 avtobus hərəkətdə olacaq.

"Mayın 30-dan artıq biletlərin satışına başlanılacaq. İyunun ortasından onlayn biletlərin alınmasına şərait yaradılacaq. Pandemiya şəraitində vətəndaşlardan kassalar qarşısında sıxlığına yaranmaması üçün onlayn bilet almalarını tövsiyə edirik".

# Tahir Kərimlinin partiyasına az vəsait ayrılıb



***Maliyyə naziri Samir Şərifov Vəhdət Partiyasının sədri Tahir Kərimlinin partiyasına ayrılan vəsaitin azalmasıyla bağlı sualını cavablandırıb.***

Nazir bildirib ki, siyasi partiyaların maliyyələşdirilməsi qanunauyğun olaraq həyata keçirilir: "Həmin qanuna da Milli Məclis tərəfindən dəyişikliklər edilib. Bu dəyişikliklər nəzərə alınaraq həmin modellə hesablanır. Hər il vəsait ayrıldıqdan sonra bərabər şəkildə bölünür. Tahir müəllimin partiyasına da ayrılan vəsait digər partiyalar kimi eynidir.

Azalmanı onunla bağlayırıq ki, Milli Məclisdə təmsil olunan partiyaların sayı artıb. Bunun nəticəsində eyni məbləğdə olan vəsait partiyalar arasında bölündükdə daha az vəsait düşüb.

Partiya mənsubiyyəti olan deputatların sayı da parlamentdə artıb. Bu səbəbdən də Vəhdət Partiyasına ötən illə müqayisədə 3800 manat az vəsait ayrılıb. Ancaq bütün hesablamalar mövcud qanunvericiliyə uyğun hesablanır".

# İnzibati Xətalar Məcəlləsinə yeni maddə əlavə edildi

***Milli Məclisin bu gün keçirilən plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarılıb.***

Unikal.org-un xəbərinə görə, dəyişikliklə Məcəlləyə yeni 445-1.7-ci maddəsi əlavə edilir.

Yeni maddəyə əsasən, satınalan təşkilat tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda satınalma müqaviləsi üzrə ödəmələrlə bağlı tələblərin pozulmasına, yəni satınalma müqaviləsi üzrə ödəmələrin tenderin əsas şərtlər toplusunda və satınalma müqaviləsinin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada, məbləğdə və müddətdə həyata keçirilməməsinə, o cümlədən satınalma müqaviləsinin icrası tam başa çatdıqdan (texniki təminat müddəti daxil olmaqla) və bunu təsdiq edən sənədlər tərtib olunduqdan sonra ödənilməli məbləğin satınalma müqaviləsində müəyyən olunmuş müddətdə ödənilməməsinə, habelə ödənişin gecikdirilməsinə görə satınalma müqaviləsində müəyyən olunmuş məbləğdə hesablanmış faizlərin əsassız olaraq malgöndərənə (podratçıya) ödənilməməsinə görə - vəzifəli şəxslər 3 000 manatdan 6 000 manatadək məbləğdə cərimə ediləcək.

Dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq III oxunuşda qəbul edilib.

# "Bakıdan Naxçıvana avtobus işləməyəcək" - Nuridə Allahyarova

***Bakıdan Naxçıvana avtobusla sərnişin daşımalarının bərpa edilməsi hələ ki, nəzərdə tutulmayıb.***

Unikal.org xəbər verir ki, bunu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin mətbuat katibi Nuridə Allahyarova bildirib.

"Buna səbəb muxtar respublikaya səfərin İran üzərindən gerçəkləşdirilməsidir. Sərhədlər açılmadığı üçün Naxçıvana hələlik sərnişindaşıma həyata keçirilməyəcək. Gürcüstan digər ölkələrlə sərhədləri açsa da, ölkəmizdə belə bir qərar qəbul edilməyib. Gürcüstan və digər ərazilərə sərnişindaşıma ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarı olmalıdır", - deyə o, qeyd edib.



## Siyavuş Novruzov kredit faizlərindən şikayətləndi

Deputat: "...düzəlmir ki, düzəlmir"

***"Azərbaycan müstəqillik əldə edəndən bəri çox sahələrdə islahatlar aparıldı, amma bu kredit məsələsi düzəlmir ki, düzəlmir...".***

"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin iclasında çıxış edən deputat Siyavuş Novruzov səsləndirib: "Qanunun fəlsəfəsində o dayanır ki, biz kredit alanı yoxlayırıq, kredit verəni yox. Kredit verən təşkilatların fəaliyyəti yoxlanılmadığına görə günün günorta çağı qərar qəbul edirlər - 4 bank bağlanır. Hesab edirəm ki, müqavilə imzalananda kredilalanla bərabər, kredit verənin də yoxlanışları bəlli olmalıdır".

Deputat qeyd edib ki, problemlərdən biri də kredit faizləridir: "Kredit faizləri ilə depozit arasında 10-12 faiz fərq var. Kredit vətəndaşa 15-24 faizə təqdim edilir. Yoxlamalarda qeyd edilməlidir ki, 24 faizə kredit götürən şəxsin bunu qaytarmaq imkanı varmı? Girovlarla bağlı da problem var. Vətəndaş müəyyən miqdarda kredit götürürsə, 2-3 qat baha girovu necə qoya bilər. Nəticədə qohum-əqrəbanın evini, əmlakını girov qoyurlar. Bu da problemə gətirib çıxarır".

## "Azəriqaz"da İctimai Şuraya sədr seçildi

***"Azəriqaz" İstehsalat Birliyi yanında vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə yaradılmış İctimai Şuranın ilk iclası keçirilib.***

Şuraya sədr seçilmək üçün "İmza" Sosial İnkişafa Dəstək İctimai Birliyinin üzvü Xəyal Bəşirov və «Beynəlxalq Diaspora Mərkəzi» İctimai Birliyini təmsil edən Rəşad Quliyev namizədliyini irəli sürüb.

Keçirilən səsvermənin nəticəsinə əsasən iki il fəaliyyət göstərəcək İctimai Şuraya Xəyal Bəşirov sədr, Rəşad Quliyev sədr müavini, Xəzər Media Mərkəzinin əməkdaşı, tanınmış aparıcı Lalə Azərtaş isə katib seçilib.

Səsvermə başa çatdıqdan sonra Birliyin baş direktoru Ruslan Əliyev İctimai Şuranın üzvləri ilə görüş keçirib və müxtəlif məsələlər müzakirə edilib. Baş direktor Birlik yanında yaradılan İctimai Şuranın qaz təsərrüfatı ilə bağlı müvafiq rəy və təkliflərinin nəzərə alınacağını bildirərək, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, aprel ayının 30-da "Azəriqaz" İstehsalat Birliyi yanında İctimai Şuraya seçkilər keçirilib. Seçki prosesində namizədlərin heç biri ümumi seçicilərin 50 faiz səsini toplaya bilmədiyi üçün Seçki Komissiyası ikinci mərhələyə dair qərar qəbul edib. May ayının 7-də Birlik yanında İctimai Şuranın yaradılmasına dair yekun seçki prosesi keçirilib. Vətəndaş cəmiyyəti institutlarından təqdim olunan 17 namizəd arasından 11 nəfər səs çoxluğu ilə Şuraya üzv seçilib.

# Elman Rüstəmovun effektsiz qərarları...

## Bunu biz demirik, Hesablama Palatasının sənədindən belə nəticə çıxır

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatasının "2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinə və büdcənin icrasına dair illik hesabata verdiyi rəy açıqlandı.***



Rəydə kifayət qədər maraqlı nüanslara rast gəlinir. Bunlardan biri də Mərkəzi Bankın uçot dərəcələri üzrə faiz endirimi qərarları ilə bağlı Palatanın yanaşmasıdır. Həmin yanaşmadan belə aydın olur ki, ölkənin baş bankının sözügedən qərarları faktiki olaraq effektsiz təsir bağışlayıb.

Belə ki, qurumun sözügedən rəyində qeyd edilir ki, ötən il Azərbaycanda pandemiya ilə mübarizə tədbirlərinin reallaşdırılması bank sektoru üzrə əsas göstəricilərə əhəmiyyətli təsir edib, iqtisadi aktivliyin təşviq edilməsi məqsədilə il ərzində bir neçə dəfə uçot dərəcələri üzrə faiz endirimi qərarları reallaşsa da, kreditlər üzrə müsbət meyillər müşahidə edilməyib.

"İl ərzində faiz dəhlizinin parametrləri bir neçə dəfə müzakirə edilərək, uçot dərəcəsi mərhələlərlə 7,5%-dən 6,25%-ə qədər endirilib, qəbul edilən qərarlar iqtisadi aktivliyin dəstəklənməsi məqsədi daşıyıb, lakin kreditlərin həcmində illik müqayisədə azalma davam edib. Kreditlər və depozitlər üzrə artım trayektoriyasının aşağıya doğru istiqamətlənməsində azalan tələb amili ilə yanaşı, ilin əvvəlində bəzi bankların lisenziyasının ləğv edilməsi də mühüm rol oynayıb. İl ərzində təqdim olunmuş kreditlərin məbləği 767,8 milyon manat və yaxud 5% azalıb. Həmçinin, depozitlər 2019-cu illə müqayisədə 1 079,2 milyon. manat və yaxud 4,4% azalıb, ilin sonuna 23 666,9 milyon manata bərabər olub", - Hesablama Palatasının rəyində deyilir.

Bununla da ölkənin ali audit qurumu Elman Rüstəmovun rəhbərlik etdiyi Mərkəzi Bankın 2020-ci ildə uçot dərəcələri üzrə faiz endirimi qərarlarının qeyri-effektivliyinə açıq işarə vurub. Əks halda kreditlərlə bağlı müsbət tendensiyalar müşahidə olunardı.

Onu da deyək ki, Mərkəzi Bankın kreditlərlə bağlı siyasəti bu ilin əvvəlindən tənqid predmetidir. Məsələn, iki ay öncə elə Milli Məclisin iclasında deputat Fəzail Ağamalı ölkənin baş bankının ünvanına kreditlərlə bağlı sərt ittihamlar səsləndirmişdi. Deputat demişdi ki, 50-60 min manat kredit götürüb sahibkarlıqla məşğul olmaq istəyən iş adamları kiçik bir uğursuzluğa düçar olanda, kreditin ödənişini gecikdirəndə əlavə faizlərlə, cərimələrlə fantastik rəqəmə çevrilən kreditin əvəzinə girov qoyduğu 200-250 minlik daşınmaz əmlakını dərhal məhkəmənin hökmü ilə müsadirə edirlər: "Sual olunur - bu cür yanaşma, bu qədər yüksək faiz, bu qədər pula hərislik hansı ölkədə, hansı ölkənin bank sistemində var?".

Deputat əlavə etmişdi ki, bu cür anormal bank sistemində ciddi islahatlara böyük ehtiyac var: "Tam əminəm ki, nə qədər indiki bank siyasəti mövcuddur, nə qədər ki, bank-pul-krediti icrasında fundamental dəyişikliklər aparılmayıb, vətəndaş - bank münasibətləri hazırkı bataqlıqdan çıxmayacaq. Eyni zamanda, "Bank haqqında" qanun yenidən işlənilməli, Mərkəzi Bankın şəffaf olmayan maliyyə fəaliyyətinə, ştat cədvəlinin və illik smetasındakı müstəqilliyə son qoymalı və bu səlahiyyətlər Milli Məclisə verilməlidir. Dünyanın milyardlarla vəsaiti olan böyük banklarının Azərbaycana gətirilməsi önəmli olardı. Bu praktikanı ölkələrində tətbiq edən Cənubi Koreya, Sinqapur, Yaponiya və Çinin reallığı göz önündədir".

Onu da deyək ki, Mərkəzi Bankın sədri Elman Rüstəmovun özü ötən ilin dekabrında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında demişdi: "Azərbaycandakı banklarda kredit faizlərinin aşağı salınması məsələsi bizi də düşündürür. İstəyirik ki, ölkədə birrəqəmli faizlər olsun".

Əlbəttə, bu yalnız baş bankirin yox, bütün cəmiyyətin istəyidir. Lakin görünən odur ki, sadəcə istəməklə, arzulamaqla iş bitmir. Müşahidələrdən belə nəticə çıxır ki, Mərkəzi Bank rəhbərliyi kredit faizlərinin aşağı düşməsinə gətirib çıxaracaq siyasət yürütməkdə çətinlik çəkir, ümumiyyətlə, qurumun bu istiqamətdə addımları səmərəsiz təsir bağışlayır. Həmin addımlar nə bankların kreditlərini artırır, nə verilən kreditlərin faizlərini aşağı salır. Deməli, ölkənin baş bankı yaranmış vəziyyətdə mütəmadi olaraq bankları günahkar çıxarmaqdan əl çəkməli, öz qərarlarına, siyasətinə yenidən baxmalıdır...

***Ülviyyə Həsənli***

# DİN vətəndaşlara müraciət etdi

***Daxili İşlər Nazirliyi (DIN) 2021-ci il 31 may və 10 iyun tarixlərdən ölkəmizdə xüsusi karantin rejimi çərçivəsində tətbiq olunan məhdudiyyətlərin bir qisminin aradan qaldırılması barədə qərarlarla bağlı vətəndaşlara müraciət edib.***



DİN-dən "Unikal"a verilən məlumatda bildirilib ki, mövcud yumşalma tədbirləri arxayınlıq hissi yaratmamalı, daha məsuliyyətli olmalı, koronavirus infeksiyasının doğurduğu təhlükə bir an belə unudulmamalıdır: "Hər zaman özümüzü, doğmalarımızı və ətrafımızdakı insanları qorumalı, böyük və gərgin fəaliyyət nəticəsində yoluxmaların dinamikasında əldə edilmiş müsbət təmayül möhkəmləndirilməli və inkişaf etdirilməlidir. Iyun ayı ərzində Bakı şəhərində keçiriləcək iki beynəlxalq idman tədbirinin azarkeşləri də xüsusi karantin rejiminin tələblərinə ciddi riayət etməlidirlər.

Qapalı məkanlarda, o cümlədən iaşə müəssisələrində, ictimai nəqliyyatda nəfəs yollarını qoruyan tibbi maskadan istifadə etmək, açıq havada istirahət zamanı, çimərliklərdə olarkən sosial məsafə saxlamaq, ümumən karantin rejimi dövrü üçün qüvvədə olan qaydalara əməl etmək mütləq və vacibdir. Bütün qabaqlayıcı tədbirlər sağlamlığınızın qorunmasına xidmət edir. Biz amansız virusa yalnız birlikdə, qaydalara riayət etməklə qalib gələ bilərik".

# Zahid Oruc hökuməti tənqid etdi

## Deputat: “Kimin necə səsverməsinə yox, nə deməsinə diqqət etsin!”



***”Dövlət başçısının son iki ildə Yeni Hakimiyyət Quruculuğu siyasəti idarəçilikdə yeni keyfiyyət mərhələsi, xüsusilə əvvəlki məmur sahibkarlığından azad olmağa şərait yaratmaqla, təkcə kadrların deyil, eləcə də bütövlükdə idarəçilik tələblərinin dəyişdirilməsinə yol açdı, Yeni Elitanın formalaşmasına zəmin açdı və ən nəhayətdə,Vətən müharibəsində qələbəmizdə əhəmiyyəli rol oynadı”.***

Bu barədə parlamentin bu gün keçirilən plenar iclasında çıxış edən deputat Zahid Oruc bildirib.

Deputat qeyd edib ki, burada parlamentin tarixi məsuliyyətini də xatırlatmaq yerinə düşər-əvvəlki illərdə hesabatların müzakirəsi zamanı bir sıra hallarda səthi, formal yanaşmalar hazırda həbsdə olan yüksək ranqlı 10-dan çox məmurun mövcudluğu Milli Məclisin öz Konstitusion öhdəliklərinə daha tələbkar yanaşmasını ortaya qoyur:

”Bəli, məmur biznesinə yol açan iqtisadi siyasət effektli olmadı, çünki vəzifədən alınan kimi onlara bağlı iqtisadi və maliyyə sistemi də əngələ çevrildi. Ona görə də 2019-cu ildə bir neçə dövlət qurumunun ləğv edilməsi və ya birləşdirilməsi, bizneslə siyasət arasında sərhədlərin müəyyənləşdirilməsi idarəetmənin effektivliyi, hesabatlılıq və şəffaflıq baxımından mühüm tədbirlər idi və hamıya bir mesaj verirdi: Prezident müxtəlif nazirliklər və nazirlər çevrəsində yaranan kölgə iqtisadiyyatlarının tam ləğv edilərək elə bir komanda formalaşdırmasında maraqlıdır ki, onlar reputasiyaları ilə dövləti zərbə altında qoymasınlar.

Ötən ilin karantin və sərt məhdudlaşdırmaya görə Azərbaycan iqtisadiyyatında baş verən prosesləri obyektiv qiymətləndirməyə ehtiyac var.İlk növbədə, qapanmaların ən böyük təsirinin işsizliklə bağlı olduğu heç kimə sirr deyil.Nazirlər Kabinetinin 4 aprel 2020-ci il tarixində işini itirmiş insanlara yardım üçün 600 min aztəminatlı şəxsin müəyyən edilməsi və aprel-may ayları üzrə birdəfəlik ödəməyə 228 milyon manat ayrılması əmək bazarındakı qeyri-sabit durumu özündə əks etdirir.

Dövlət məşğulluq orqanlarında işsiz statusu alan şəxslərin sayı 81.3 min nəfər, işsizlik müavinəti alan şəxslərin sayı 6.9 min nəfər, Beynəlxalq Əmək Təşkilatının isə 258 min nəfəri qeyd etməsi fonunda 600 min rəqəmi çox düşündürücüdür.

Hökumətin 2-ci karantin tədbiri zamanı yarım milyondan çox insan üzərindən siyasətini davam etdirməməsi xeyli problemlər yaratdı və işsizliyin gerçək miqyasını, leqal, qeyri-leqal çalışanların həqiqi sayını müəyyənləşdirməyə imkan vermədi. Ölkəmizdə işsizlikdən sığorta olunanların işçi qüvvəsinin cəmi 32-faizini təşkil etməsi ən çox aşağı təminatlı insanlara təsir etdi. Lakin işsiz sayının artdığını hamımız bilirik. Əhalinin nominal gəlirlərinin 2, inflyasiyanın 2.8 olması fonunda məcmu gəlirlərin 5 faizə yaxın azalması işsizliklə bərabər, yoxsul insanların sayını da artırıb.

İqtisadi artım və inkişaf yalnız böyük büdcə ilə bağlı deyil. Dünyada maddi zənginliyi olan, lakin sabit inkişaf xəttini sonadək tapa bilməyən çoxlu ölkələr var. Bizim siyasi institutların vəziyyəti, peşəkar kadrların sayı, əmək bazarına hər il daxil olan 60-80 min insanın ali təhsilinin olmaması ciddi narahatlıq mənbəyidir. Biz müharibə zamanı hərbi ekspertlərin, reportyorların, xarici siyasət mütəxəssislərinin, ictimai kommunikasiya liderlərinin, media və siyasət araşdırıcılarının səngərdə döyüşən ordu qədər zəruri olduğunu gördük. Ölkəmizdə son illər bu sahədə xeyli istedadlı mütəxəssislər başqa sahələrə keçdikləri üçün kadr problemi inkaedilməzdir. Hökumət təkcə yüksək rəqəmləri, indeksləri, məqsədləri deyil, kadrları da istehsal etməlidir ki, onlar qazanılan parlaq qələbənin salnaməsini yaratsınlar, onu tarixin yaddaşına köçürsünlər, dünyaya çıxa bilən layihələri, məhsulları, ideyaları ixrac edə bilsinlər.

Pandemiya səngərində döyüşən həkimlərimizlə bağlı ortaya çıxan reallıq Hökuməti narahat etməlidir: əhalinin hər 10 000 nəfərinə düşən ixtisaslı həkimlərin sayı Bakıda 77, Lerik, Quba, Şabran və bir neçə rayonda 8-10 nəfər təşkil edir.Ümumiyyətlə, 50-yə yaxın rayonda ixtisaslı həkimlərin sayı 20 nəfərdən azdır və pandemiya dövründə paytaxtdan bölgələrə həkimləri göndərmək siyasətinin müqavimətlə qarşılandığı da hamıya bəllidir. Problemin həlli üçün effektli yollar tapılmasa, yollar açılanda xaricə axan səhiyyə turizmimiz davam edəcək.

Məşğul əhalinin dövlət və özəl sektorda payına yenidən baxaq. İcra sənədində göstərildiyi kimi, 53 və 47 faiz nisbəti kimidir. Konkret desək, muzdla çalışan işçilərin sayı 1 milyon 691 min nəfərdir və onun tərkibində 910 min nəfər dövlət,

781 nəfər isə qeyri-dövlət sektorunda çalışır. Bu isə aydındır ki, ən azı rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşmasına mənfi təsir edir. Gəlin, rəsmi səviyyədə mötəbərliyinə etibar etdiyimiz Dünya İqtisadi Forumunun hesabatında 69-cu yeri tutdugumuz halda hansı sahələrdə vəziyyətin ürəkaçan olmamasını göstərək. Azərbaycanın rəqabət qabiliyyətlilik baxımından digər ölkələrə nisbətən zəif olduğu sahələrdən yalnız bir neçəsi: Qeyri-işlək kreditlərin səviyyəsinə görə - 118-ci, Elmi məqalələrə görə - 108-ci, Əmək haqqı vergisinə görə - 106-cı,Özəl sektorun kreditləşmə səviyyəsinə görə - 99-cu, Geniş zolaqlı mobil əlaqə səviyyəsinə görə - 88-ci, Araşdırma institutlarının keyfiyyətinə görə 86-cı yerdəyik. Ümidvarıq ki, nəticələr Hökuməti də qane etmir.

Möhtərəm cənab Prezident çıxışlarının birində deyir: bizim qərarların yerinə yetirilmə vəziyyəti indi ölçülməlidir-nələr yerinə yetirilib, nələr yox. Əslinə qalsa, Parlament Hökumətin büdcənin icrası ilə bağlı hesabatlarına siyasi qiymət verir. Çünki yalnız rəqəmlər və statistika vəziyyəti tam izah etmir. Ona görə də büdcə öhdəliklərini, eləcə də dövlət proqramları və hökumətin müxtəlif layihələri arasında əlaqəni müəyyənləşdirmək vacib məsələdir-biz onları necə yerinə yetiririk? Məsələn, “Strateji Yol” xəritəsi ilə vidalaşırıqsa, onun nəticələrinə obyektiv qiymət verib Yeni Mərhələyə keçməliyik. Təəssüf ki, bəzən rəsmi statistik hesabatlarda əsaslı uygunsuzluqlar var. Ölkə başçısı bir dəfə dedi ki, mənə verilən rəqəmlərdə də müəyyən ziddiyətlər özünü göstərir. Nəhayət, hamının etibar etdiyi DATA bazalar yaratmaq, ikili statistik hesabatları aradan qaldırmağın vaxtıdır. Hökumət kimin necə səsverməsinə yox, nə deməsinə diqqət etsə, yaxşı olar”.

***Hüseyn İsgəndərov***



# Nazir Şamaxı və Ağsuda fermer təsərrüfatlarına baş çəkdi

***Nazir İnam Kərimov Şamaxı və Ağsu rayonlarına səfər edib, bu rayonlarda inşa edilməkdə olan kənd təsərrüfatı müəssisələrinə baş çəkib, taxıl biçininə hazırlıq işləri ilə tanış olub, intensiv bağlarda və heyvandarlıq məüssisələrində görülən işlərlə maraqlanıb.***

“Unikal” xəbər verir ki, Şamaxı rayonunda filokseraya davamlı calaqaltı üzüm tingçiliyi müəssisəsi inşa olunub. Kompleksin ərazisində 10 hektar sahədə süfrə üzümü, 10 hektar sahədə isə texniki üzüm sortları əkilib. Daha 10 hektar ərazidə isə filokseraya davamlı calaqaltı bağı salınıb. Kompleks yaxın zamanlarda tam istifadəyə hazır olacaq. Burada filokseraya davamlı üzüm calaqaltılarının kütləvi istehsalı nəzərdə tutulur.

Bu il Ağsuda yeni baramaqurutma məntəqəsi inşa edilərək istifadəyə verilib. 2021-ci il mövsümündə bu müəssisədə ilk dəfə ipəkqurdu toxumunun inkubasiyası həyata keçirilib, Ağsu və Hacıqabul rayonlarından olan kümçülərə təhvil verilib. Hazırda rayonda yaş baramanın qəbuluna hazırlıq gedir, kümçülərdən alınacaq yaş barama bu müəssisədə toplanaraq “AzərIpək” ASC-yə təhvil veriləcək.

“Aqroservis” ASC-nin Ağsu rayon bölməsində taxıl biçininə hazırlıq prosesi başa çatmaq üzrədir. Mexanizatorlar təlimlərə cəlb olunub, ilkin mərhələdə 25 mexanizator yeni istifadəyə verilən “AgroUber” mobil tətbiqində qeydiyyatdan keçib. Yaxın günlərdə daha 20 mexanozatorun bu tətbiqdə qeydiyyatdan keçcəyi gözlənilir. Rayon bölməsində olan kombaynlara texniki baxış başa çatıb, təmir işləri yekunlaşıb.

Dövlət dəstəyinin genişləndirilməsi səbəbilə Ağsuda son illər intensiv bağların salınmasına maraq artıb. Rayonun Qaraqoyunlu kəndində müasir üsulla salınmış alça bağında məhsul yığımına başlanıb. 11 hektar sahədə salınmış bağda müasir damla sulama sistemi quraşdırılıb, hər hektara vegetativ calaqaltısı olan 880 ting əkilib. Ötən il məhsula düşmüş bağda bu mövsüm ümumilikdə 45-50 ton alça yığılması proqnozlaşdırılır.

Çiyni kəndində isə 42 hektar sahədə salınmış intensiv badam bağında məhsul yığımı ərəfəsində son aqrotexniki işlər aparılır. Bağda tozlanmanın daha keyfiyyətli aparılması üçün əraziyə 200 arı pətəyi gətirilib. Cərgələr arasında şum aparılır, dərmanlama həyata keçirilir. Üç yaşı olan bağda bu il hər hektardan 6-7 ton məhsul yığılacağı gözlənilir. Bağ tam məhsula düşdükdən sonra orta məhsuldarlıq daha da artacaq. Ağsunun təbii-coğrafi iqlim şəraiti alça, badam, nar, əncir, zeytun yetişdirməyə imkan verir.

Nazir Ağsu rayonunda müasir heyvandarlıq müəssisələrinə baş çəkib, görülən işlərlə tanış olub.



## “Semaşko”dakı izdihamla bağlı RƏSMİ AÇIQLAMA

*Səhiyyə Nazirliyi vaksinasiya ilə bağlı bəzi poliklinikalarda yaranan növbələrə münasibət bildirib.*

Nazirlikdən Unikal.org-a verilən məlumata görə, Nazirlər Kabineti yanında Operativ Qərargahın sonuncu qərarından sonra peyvəndlə bağlı məntəqələrə gələn vətəndaşların sayı dəfələrlə artıb.

Qeyd olunub ki, problemlərdən biri də məntəqələrə müraciət edənlərin 90 faizinin qeydiyyatdan keçməməsidir: “Onların qeydiyyata alınması müəyyən vaxt alır, bu, onlayn qeydiyyatdan keçən vətəndaşların narazılığına səbəb olur. Çünki canlı növbədə olanlar onlayn qeydiyyatdan keçən vətəndaşların poliklinikaya daxil olmasına etiraz edirlər. Bilirsiniz ki, poliklinikalarda xüsusi mühafizə xidməti yoxdur, işləyən həkimlərin də əksəriyyəti qadındır. Bu səbəbdən növbəni tənzimləməkdə problemlər yaranır. Vətəndaşlarımızdan məntəqələrə gələrkən məsafəyə və növbəyə riayət etmələrini xahiş edirik. Sıxlıq yaradılanda həkimlərin də işində problem yaranır”.

## “Aqroservis” taxıl biçininə 700-dək kombayn çıxaracaq

*“Aqroservis” ASC regionlarda taxıl biçininə hazırlıqla bağlı maarifləndirmə tədbirlərinəstart verib.*



Kənd Təsərrüfatı Nazirliyindən “Unikal”a verilən məlumata görə, görüşlərə Ağcabədi, Tərtər, Bərdə, Ağdam, Zərdab, Yevlax, Füzuli rayonlarından başlanıb. Görüşlərin məqsədi fermerlərin biçinə hazırlığını təmin etməkdir. İlk növbədə ötən il biçinlə bağlı daha çox müraciətin daxil olduğu kənd və qəsəbələrdə yaşayan fermerlərlə görüşlər keçirilib. Biçin zamanı yanğın təhlükəsizlik qaydalarına və növbəlilik sisteminə riayət edilməsi ilə bağlı kənd və qəsəbələrdə vətəndaşlarla görüş keçirilir və onlara zəruri məlumatlar verilir.

May ayının sonundan ölkə üzrə taxıl biçininə başlanılacaq. Biçinin itkisiz və mütəşəkkil həyata keçirilməsi üçün “Aqroservis” mexanizatorlar üçün təlimlər təşkil edib, kombaynlarda sazlama işlərini tamamlayıb və GPS nəzarət sistemi quraşdırıb.

Biçin prosesində növbəlilik sistemi icra nümayəndəlikləri və bələdiyyələr tərəfindən təmin olunacaq. Biçinə və növbəlilik sisteminə nəzarəti Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) həyata keçirəcək.

Qeyd edək ki, ölkə üzrə biçinə ümumilikdə 2000-dək taxılbiçən kombayn cəlb olunacaq. 700-dək kombayn “Aqroservis” ASC-nin, 1284 ədədi isə fiziki şəxslərin və iri təsərrüfat sahiblərinin texnikalarıdır.

# “Azərbaycan Zəngəzurda delimitasiya prosesini Rusiya ilə razılaşdırıb” - Politoloq

***Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, mayın 24-dən 26-dək ordumuzun Kəlbəcər və Gədəbəy rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Geqarkunik vilayəti ərazisindəki düşmən mövqelərindən fasilələrlə atıcı silahlardan atəşə tutulub.***

Bu gün yenidən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində ərazimizə keçməyə cəhd göstərib. Son günlərdə Ermənistanın dövlət sərhədində təxribatlara əl atması yeni münaqişə zonası yaratmağa çalışmasından xəbər verir.

Məsələ ilə bağlı siyasi ekspert Elman Vəliyev Modern.az-a danışıb. Onun sözlərinə görə, Ermənistan tərəfi sərhəd istiqamətində atəşkəsi pozur, amma cavab atəşi açılmayıb. Bu isə yeni münaqişə təhlükəsindən xəbər verir:

“Ermənsitan bir neçə dəfə KTMT-yə müraciət edərək Azərbaycan tərəfinə qarşı tədbirlər görülməsini bildirib. Amma KTMT bunu qarşı hər hansı bir iş reallaşdırmadı. Ermənistan da sərhəddə təxribatlar törədərək Azərbaycan tə-



rəfinin əks həmlələr verməsini istəyir. Bununla KTMT-nin 4-cü bəndinin(üzvləri müdafiə) icrasına, həmçinin digər erməni yönümlü dövlətlərin də diqqətini çəkməyə çalışıraq Azərbaycana qarşı təzyiqlər etməyə səy göstərir. Biz bunu 44 günlük müharibədə də şahidi oduq. Son günlərdəki gərginlikdə ermənilərin təxribatları Fransanın ardınca Hollandiyanın Azərbaycanı Ermənistanın suverenliyini pozmaqla ittiham etməsinə səbəb oldu. Azərbaycanın delimitasiya proseslərinin genişləndirməsi Ermənistanı və bir çox dövlətləri narahatlıq içində qoyub. Amma Azərbaycan tərəfi bu proseslərdə Ermənistanla deyil, Rusiya ilə razılaşıb vəziyyətə uyğun hərəkət edir”-deyə ekspert söyləyib.

Elman Vəliyev Rusiyanın məsələdə maraqlarını qeyd edib.

“Ermənistan tərəfindən bildirilən yeni üçlü anlaşma müxalifətə bir fürsət yaratdı. Rəsmi olaraq bilinməsə də, bundan Paşinyan əleyhinə məharətlə istifadə edirlər. Vaxtı çatanda isə bu rəsmi olaraq bilinəcək. Seçkiqabağı bunun bilinməsi Paşinyana mənfi təsir göstərə bilər. Ermənistan tərəfinin cəbhədə təxribatları Azərbaycan tərəfinin anti-terror əməliyyatlarının keçirilməsinə təhrik edir. Amma hələki Azərbaycan tərəfi təmkinliyini qoruyur və diplomatik yolla məsələləri həll etməyə çalışır. Rusiya isə Ermənistanı hazırda gözləmə mövqeyində saxlayır. Azərbaycanı KTMT, AİB(Avrasiya İqtisadi Birliyi) kimi Rusiyanın maraqlarına xidmət edən təşkilatlara qoşmaq istəyir. Rusiya tərəfi Azərbaycanı KTMT-də görmək istədiyini, ancaq bunun üçün Ermənistan tərəfi ilə münasibətləri yaxşılaşdırmağın vacib olduğunu qeyd etmişdi”.

# Gömrük Akademiyasında Respublika Gününə həsr olunmuş tədbir keçirilib

***Dövlət Gömrük Komitəsinin Akademiyasında 28 May - Respublika Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Mətbuat tarixi və ideoloji iş metodları kafedrasının professoru, tarix elmləri doktoru Nəsiman Yaqublu, Akademiyanın rəhbərliyi, əməkdaşları və tələbələr iştirak ediblər.***

“Unikal” xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Öncə Azərbaycanın müstəqilliyi və suverenliyi, ərazi bütövlüyünün təmin olunması uğrunda canından keçən bütün şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub.

Giriş sözü ilə tədbiri açan Akademiyanın rəisi, gömrük xidməti generalmayoru Qulu Novruzov 28 May - Respublika gününün fərqli bir dəyər daşıyan əlamətdar tarixi gün olduğunu bildirib. Azərbaycan xalqının öz dövlətini yaratmaq nəsib olmuş xalqlardan biri olduğunu deyən Qulu Novruzov 103 il öncə müstəqil dövlətin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə yaradılmasından danışıb, bu hadisənin çox böyük tarixi əhəmiyyətini vurğulayıb. Akademiya rəisi Azərbaycanın dövlətçilik tarixinin keşməkeşli yolundan, azadlıq, müstəqillik uğrunda aparılan mübarizədən danışaraq, cümhuriyyətin XX əsrin 90-cı illərində yenidən bərpa olunduğunu deyib. Müasir Azərbaycan dövləti yenidən müstəqilliyə qovuşduqdan sonrakı dövrdə Azərbaycanı ictimai-siyasi burulğanlar içərisində öz müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xilas etdiyini qeyd edib. O, məhz həmin dövrdən sonra Azərbaycan dövlətçiliyinin formalaşması, dövlətin siyasi kursunun müəyyənləşdirildiyini diqqətə çatdırıb. Əsrlər boyu Ermənistanın Azərbaycana qarşı apardığı ərazi iddiaları və hərbi təcavüzü haqqında söz açan Akademiya rəisi Qarabağ münaqişəsinin tarixi aspektlərinə toxunub. 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun gücü ilə tarixi zəfər əldə edildiyini deyib. Müstəqilliyin qorunub saxlanmasının daha böyük missiya olduğunu deyən Qulu Novruzov 44 günlük Vətən müharibəsndə bütövlükdə Azərbaycan xalqının sıx birləşərək qələbəyə nail olduğunu və bu sevinci yaşadığını deyib. Akademiya rəisi Azərbaycan gəncliyinin bu prosesdə iştirakını xüsusi vurğulayıb. O, Respublika gününün bu il daha fərqli əhval-ruhiyyədə keçirildiyini deyərək bütün tədbir iştirakçılarına öz təbriklərini çatdırıb.

BDU-nun professoru, tarix elmləri doktoru Nəsiman Yaqublu 28 mayın tarixmizin ən böyük bir hadisəsi olduğunu deyərək bu günün çox böyük əhəmiyyət daşıdığını bildirib. O, bu il Respublika gününün qalib əhval-ruhiyyədə qeyd edildiyini vurğulayıb. Cümhuriyyətin tarixinə nəzər salan Nəsiman Yaqublu ilk dəfə 28 may 1918-ci ildə Azərbaycanda hüquqi əsaslarla, demokratik prinsiplərə əsaslanan dövlətin qurulduğunu diqqətə çatdırıb. Cümhuriyyətin ilk rəsmi sənədinin “İstiqlal bəyannaməsi” olduğunu deyən araşdırmaçı alim bu günün Azərbaycan tarixində istiqlal günü kimi adlandırıldığını deyib. O, cəmi 23 ay ömür sürən Azərbaycan Xalq Cümhuryyətinin qısa müddətdə böyük uğurlar və qalibiyyətlər əldə etdiyini



deyib, həmin dövrdə qəbul olunmuş sənədlərdən söz açıb. Bütün Şərqdə ilk dəfə olaraq parlamentli müstəqil Azərbaycan dövlətinin yaradılması, Azərbaycanda qadınlara səs hüququ verilməsi, o cümlədən milli ordu, milli pul, milli bank, demokratıya, azad seçkilər, beynəlxalq əlaqələr sahəsində ciddi işlərin görüldüyünü diqqətə çatdırıb. Nəsiman Yaqublu beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın istiqlalının tanınmasının təmin edildiyini bildirib. Cümhuriyyətin qurucularının fəaliyyətindən söz açaraq, onların hər birinin zəngin və maraqlı həyat yolunun olduğunu bildirib. O, Vətən müharibəsində xalqımızın qalibiyyət ruhunun oyandığını, işğal altında olan torpaqların azadlığı uğrunda 44 günlük müharibə nəticəsində əldə edilən şanlı qələbədə irsi ənənələrin olduğunu deyib.

Tədbirdə 28 May - Respublika Gününə həsr edilmiş video çarx nümayiş olunub. Akademiyanın tələbələri Respublika gününə həsr olunmuş ədəbi-musiqili kompozisiya təqdim ediblər, həmçinin tələbələrin ifasında şeirlər, o cümlədən xor qrupunun ifasında “Azərbaycan” mahnısı səsləndirilib.

# Tahir Mirkişili: “Daha çevik Büdcə Məcəlləsinin qəbuluna ehtiyac var”

***“2020-ci ilin Dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi-siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal və milli iqtisadiyyatda gedən proseslərin, COVID-19 pandemiyasının və Vətən müharibəsinin ictimal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla çevik formada icra olunmuşdur”.***

“Unikal”ın məlumatına görə, bunu Milli Məclisin iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili 2020-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin müzakirəsi zamanı deyib.

Onun sözlərinə görə, qanun layihəsi və hesabat komitə tərəfindən Hesablama Palatasına rəy üçün göndərilib və bu rəy palata tərəfindən Milli Məclis üzvlərinə təqdim edilib.

“Əlavə olaraq Maliyyə Nazirliyi tərəfindən Dövlət İnvestisiya Xərclərinin ünvanlı strukturu da komitəyə təqdim edilmişdir. Təqdim olunmuş sənədlər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 24 may tarixli iclasında ətraflı müzakirə edilmişdir. İclasda Maliyyə və İqtisadiyyat nazirlikləri, Hesablama Palatası, Dövlət Vergi Xidməti, Dövlət Gömrük Komitəsinin nümayəndələrinin iştirakı ilə dövlət büdcəsinin icrasının əsas parametrləri, 2020-ci ilin makroiqtisadi göstəriciləri ətraflı müzakirə edilib”.

T.Mirkişili daha sonra əlavə edib: “2020-ci il hər şeydən əvvəl Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi, işğalçı Ermənistan üzərində qazanılan möhtəşəm hərbi-siyasi-iqtisadi Qələbə ili kimi həkk olunmuşdur. Bu qələbə uzun illər ərzində ardıcıl olaraq, boyük işgüzarlıq, peşəkarlıq və ən əsası, milli birlik hesabına Azərbaycanın bütün resurslarının bir dəmir yumruq kimi birləşib düşmənlərmizi məğlub etməsilə mümkün olmuşdur. Bu qələbə indiyə qədər görülən və və inddən sonra görüləcək işlərin ən böyüyüdür”.

Komitə sədri xatırladıb ki, 2020-ci ilin əvvəlindən başlayaraq dünyada COVID-19 pandemiyasının sürətlə yayılması iqtisadi fəallığın zəifləməsinə, qlobal məcmu tələbin daralmasına və qaydasız oyun şəraitinin yaranmasına səbəb olub:

“Dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırmışdır. 2020-ci ilin iyun ayından başlayaraq Ermənistan işğalçı qüvvələrinin ölkəmizə qarşı müntəzəm təxribatları sonda vətən müharibəsinin başlamasına gətirib çıxarmışdır. Bax belə bir şəraitdə Azərbaycanın iqtisadi və maliyyə resursları və onların səmərəli idarə olunması hər 3 cəbhədə öz müsbət nəticəsini göstərmişdir. Pandemiyanın Azərbaycan iqtisadiyyatına mümkün mənfi təsirlərinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərlə ölkə iqtisadiyyatının tənəzzül fazasına daxil olmasının qarşısının alınması mümkün olmasa da, onun daha kəskin enişinin qarşısı alınmışdır. 2020-ci ilin dövlət büdcəsinin dürüstləşməsi zamanı büdcə mexanizmlərinin təkmilləşməsi və xərclərin artırılması, əhəmiyyətli miqyasda iqtisadi və sosial dəstək paketlərinin hazırlanması və icra olunması, iqtisadiyyatın lazımı resurslara malik olması və bütün bu tədbirlərin dövlət başçısının daim diqqətində olması iqtisadiyyatı kəskin şoklardan qorumuşdur”.

Deputat qeyd edib ki, il ərzində dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırıb.

“Böhran dünya əmtəə qiymətlərinin enerji sektorunda 18.3% ucuzlaşması, qeyri-enerji sektorunda 16.1% bahalaşması, dünya ərzaq qiymətləri 6.5%



yüksəlməsi, neftin qiymətinin isə 33% düşməsi ilə müşaiyət olunmuşdur.

2020-ci ildə ölkəmizdə Ümumi Daxili Məhsul real ifadədə 4.3% , o cümlədən qeyri-neft sektoru üzrə əlavə dəyər istehsalı 2,6 faiz, neft sektorunda isə 7,0 faiz azalmışdır. Lakin qeyri-neft ÜDM-in tərkibində aparıcı rola malik kənd təsərrüfatı üzrə 1,9 faiz, nəqliyyat və anbar təsərrüfatı üzrə 4,6 faiz, informasiya-rabitə sektoru üzrə 0,6 faiz, sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı üzrə isə 12,5 faiz artım müşahidə edilmişdir. Həmçinin, 2020-ci ildə ölkəmizdə inflyasiyanın səviyyəsi 2.8%, neftin bir barelinin orta illik qiyməti isə 43.7 dollar olmuşdur”.

T.Mirkişilinin sözlərinə görə, hesabat ilində izlənən mürəkkəb qlobal iqtisadi konyunktur ölkə üzrə ticarət dövriyyəsinə təsir etmiş, cari əməliyyatlar hesabı üzrə kəsir qeydə alınmış, neft sektoru üzrə profisitin azalması DNF-in mənfəət neftinin və qazının satışından daxilolmalarına əhəmiyyətli təsir göstərmişdir:

“Qeyd etmək istərdim ki, 2020-ci ilin büdcə dürüsləşməsi zamanı bizə təqdim olunan zərfdə ÜDM-in real ifadədə 5,0% azalacağı, inflyasiyasının 4.6% olacağı proqnozlaşdırılmış, hesablamalar neftin bir barelinin qiymətinin 35 dollar səviyyəsi ilə aparılmışdır. Real vəziyyətin proqnozlardan daha əlverişli olması bir tərəfdən dövlət büdcəsinin icrası üçün mühüm dəstək olmuş, digər tərəfdən büdcə parametrlərinin sürətli icrası da daha bədbin iqtisadi ssenarilərin qarşısını almışdır.

Ümumiyyətlə, 2020-ci ilin ağır və gözlənilməz şəraiti təcili və təxirəsalınmaz qərarların qəbulunu labüd etmiş, dövlət maliyyə idarəetməsində çevik qərarların qəbul edilməsi zərurəti yaratmışdır. Məhz bu səbəbdən də dürüstləşmiş 2020-ci iln büdcəsində büdcə qaydasının tətbiqi dayandırımış və iqtisadiyyatda daha pis, hətta mən deyərdim ki, faciəvi situasiyanın qarşısını almaq üçün adekvat addımlar atılmışdır.

Gözlənilməyən “COVİD-19” pandemiyası ilə mübarizə və onun gətirdiyi fəsadların aradan qaldırılması büdcənin icrasına da təsir etmiş, pre-pandemiya dövründə prioritet hesab edilən istiqamətlər hesabat ilində öz aktuallığını itirməklə sosial məzmunlu xərclərin yüksəldilməsini labüd etmiş, bu məqsədlə hökumət tərəfindən bır sıra istiqamətlər üzrə xərclər artırılmışdır.

Təcili şəkildə atılan fiskal addımlar həm əhali, həm də biznes üçün pandemiyanın doğurduğu fəsadların minimallaşdırılması məqsədi daşımış, bu addımların əsas mənbəyi kimi çıxış edən dövlət büdcəsi maliyyələşməni təmin etmək üçün əlverişli performansa sahib olmuşdur.

Müharibə şəraiti, döyüşün maliyyələşməsi, şəhid ailələrinə, əsgər və zabitlərə qayğının artırılması, işğaldan azad olan ərazilərin bərpası dövət büdcəsini icrası qarşısında mühüm hədəflərdən olmuşdur. Qeyd etmək lazımdır ki, bu hədəflərdən bir çoxu əvvəlcədən pronoqlaşdırıla bilinməyən, lakin icrası zamanı təcili tədbirlərin görülməsini tələb edən hədəflər olmuşdur”.

T.Mirkişilinin sözlərinə görə, 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24124,0 milyon manat proqnoza qarşı 24681,7 milyon manat təşkil edib. Proqnozla müqayisədə 557,7 milyon manat və ya 2,3 faiz cox icra olunub. 2020-ci il dövlət büdcəsinin xərcləri 27492,2 milyon manat proqnoza qarşı 26416,3 milyon manat və ya 96.1% az icra edilib:

“Bununla yanaşı qeyd etmək lazımdır ki, funksional təsnifatın bölmələri üzrə xərclərinin icrasını təhlili göstərir ki, bır sıra xərclərin 99,1% qədər icrasına nail olunmuşdur. Eyni zamanda, qeyd etməliyəm ki, büdcə gəlirləri üzrə Vergi və Gömrük orqanları üzrə 2020-ci ilin proqnozlarının ümumilikdə artıqlaması ilə yerinə yetirilməsinə baxmayaraq bəzi tədiyyə növləri üzrə proqnozlar kəsirlə icra olunmuşdur.

Dövlət büdcəsinin gəlirlərini təmin edən əsas fiskal qurumların (vergi və gömrük orqanları üzrə ümumilikdə) cari və əsaslı xərclərinin ödənilməsinə ayrılmış vəsaitlərin yığıma qarşı faiz nisbətləri 2019-cu illərlə müqayisədə 0,6 faiz artaraq 2,9%-ə yüksəlmişdir.

Pandemiya səbəbindən iqtisadi aktivliyin və əhalinin hərəkətinin məhdudlaşdırılması, eləcə də sosial ünsiyyətin məsafədən və təmassız qaydalarla həyata keçirilməsinin təşviq olunması nağdsız ödənişlərin həcminin əhəmiyyətli artımı ilə nəticələnmişdir ki, bu da təbii ki, vergilərin bəyan olunması və yığılması prosesinə müsbət töhvələr vermişdir.

2020-ci il ərzində POS-terminallar vasitəsilə ölkədaxili nağdsız ödənişlərin həcmi 2172,0 mln. manat, elektron ticarət vasitəsilə ölkədaxili əməliyyatların həcmi isə 3670,0 mln. manat təşkil etməklə 2019-cu illə müqayisədə müvafiq olaraq POS-terminallar üzrə 62,9%, elektron ticarət üzrə 25,0% artmışdır. Amma eyni zamanda fiziki və hüquqi şəxslər tərəfindən nağd qaydada bank hesablarından çıxarılmış pul vəsaitlərinin 2020-ci ildə təqribən 4,0 mlrd. manat həcmində olması və bu rəqəmin 2020-ci ilin proqnozundan isə 17,6% çox olması bu sahədə görüləcək işlərin hələ çox olmasını deməyə əsas verir”.

Komitə sədri bildirib ki, sosialyönümlü xərclərin 2020-ci il dövlət büdcəsində icrası xərclərin 36,5 faizi və ya 9654,2 milyon manat həcmində olub:

“Ümumiyyətlə, son 5 ildə sosialyönlü xərclərin dövlət büdcəsinin xərclərində xüsusi çəkisi natural ifadədə 3.5 mlrd manat və ya 1,6 dəfə artmışdır.

2020-ci ildə dövlət büdcəsindən 1.7 milyard manatlıq səhiyyə xərclərinin icrası təmin olunmuşdur.

İcbari Tibbi Sığortanın fəaliyyətini təmin etmək məqsədilə dövlət büdcəsindən 950 mln manat vəsaitin icrası təmin edilmişdir. Ölkədə koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirləri üçün 2 milyard manata yaxın vəsaitin icrası təmin olunmuşdur. Bu vəsaitdən sahibkarların dəstəklənməsi üçün 460 milyon, əhaliyə birdəfəlik ödəniş üçün isə 450 milyon manat icra edilmişdir”.

Deputatın sözlərinə görə, xarici və daxili dövlət borclanmaları üzrə icra vəziyyəti müəyyən edilmiş limiti keçməyib:

“Bütövlükdə, Azərbaycanın xarici dövlət borcu 8821,5 milyon ABŞ dolları və ya 2020-ci il üzrə ÜDM-in 20,7 faizini təşkil etmişdir.

2020-ci ilin dövlət büdcəsində 1 734,6 milyon manat məbləğində kəsir (defisit) yaranmışdır ki, bu da proqnoza nisbətən 1 633,6 milyon manat və ya 2 dəfəyə yaxın azdır. Kəsirin maliyyələşməsində büdcə zərfində təqdim edilmiş mənbələrdən istifadə edilmişdir”.

Komitə sədri həmkarlarına üz tutaraq deyib ki, təqdim olunan hər bir hesabat həm də gələcək fəaliyyətin təkmilləşməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

“2020-ci ildə dövlət büdcəsinin icrası zamanı bəzi çatışmazlıqlar da müəyyən edilmiş və bu çatışmazlıqlar tərəfmizdən müxtəlif icra orqanları ilə ətraflı şəkildə müzakirə olunmuşdur. Eyni zamanda, Hesablama Palatası tərəfindən Milli Məclisə təqdim olunmuş rəydə göstərilən arqumentlər müvafiq icra orqanları ilə ətraflı müzakirə edilərək təhlil edilmişdir. Qeyd etməliyəm ki, təhlillərin nəticəsi olaraq rəydə göstərilmiş arqumentlərin bir hissəsi İqtisafi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən doğru sayılmayaraq qəbul edilməmişdir.

Ümumiyyətlə, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aparılmış təhlillər və müxtəlif müzakirlər o qənatə gəlməyə imkan verir ki, Büdcə gəlir və xərclərinin planlaşdırılması və qüsursuz icrası üçün Büdcə sistemi haqqında qanunun təkmilləşməsinə və ya yeni, daha çevik Büdcə məcəlləsinin qəbuluna, maliyyə intizamının daha da gücləndirilməsinə, geniş innovativ həllərin tətbiqinə ehtiyac vardır. Dünyada son zamanlar böhranlı şəraitlərin tez tez baş verməsi il ərzində çevik qərarların verilməsini təmin edir ki, bu da bir çox halda klassik planlama prinsiplərinin və yanaşmalarının yenilənməsini tələb edir. Biz bu istiqamətdə Milli Məclis və hökumət arasında əməkdaşlığın daha da gücləndirilməsini faydalı sayırıq.

Ümumillikdə, 2020-ci il üçün dövlət büdcəsinin icrası əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, Vətən müharibəsində qələbənin təmin olunması, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, COVID-19 pandemiyası ilə mübarizə və iqtisadi subyektlərin dəstəklənməsi öz müsbət rolunu oynamışdır”.

# Ermənistanın müdafiə naziri ilə Baş Qərargah rəisinin münasibətləri gərgindir

***Ermənistanın müdafiə naziri səlahiyyətlərini icra edən Vaqarşak Arutyuyanla Silahlı Qüvvələrin Baş Qərargah rəisi Artak Davtyanın münasibətləri gərgindir.***

Bunu Ermənistanın "Joxovurd" qəzeti yazıb. Məqalədə qeyd olunub ki, ordunun rəhbərliyində fikir ayrılığı var. Qeyri-rəsmi mənbələr bildirib ki, Baş Qərargah rəisi A.Davtyan verdiyi əmr və tapşırıqları müdafiə naziri V.Arutyunyanla müzakirə etmir, onunla məsləhətləşmir.

Baş naziri səlahiyyətlərinin icra edən Nikol Paşinyanın da vəziyyətdən xəbərdar olduğu bildirilib. Başqa məlumatlara görə, Müdafiə Nazirliyində əsas fiqur Baş Qərargah rəisinin birinci müavini Arşak Karapetyandır. Nazirlikdəki bir çox məsələləri o, idarə edir.

"Başqa sözlə Arşak Karapetyan Baş Qərargah rəisi və müdafiə nazirinə tabe deyil və nazirliyin kölgə meneceridir. O, Müdafiə Nazirliyini idarə edir".

Qeyd edək ki, A.Karapetyan 2018-ci ilin aprelinədək Baş Qərargahın kəşfiyyat idarəsinin rəisi, hakimiyyət dəyişikliklərindən sonra baş nazirin müavini işləyib.

# Avropa İttifaqı Belarusa qarşı yeni sanksiyalar tətbiq edəcək

***Avropa İttifaqı (Aİ) Ryanair təyyarəsi ilə əlaqədar rəsmi Minskə qarşı sanksiyalar tətbiq etmək üçün yeni addımlar atacaq.***

"Report"un məlumatına görə, bunu Fransa Respublikasının Avropa və xarici işlər naziri Jan İv Lö Drian Senatda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Aİ təkcə Belarusdakı fərdi şəxsləri yox, eyni zamanda dövlət qurumlarını da "qara siyahı"ya salmağı düşünür:

"Bu addım onların Avropada fəaliyyət göstərmələrini, ticarətlərini və Avropanın bazar imkanlarından istifadə etmələrini çətinləşdirmək üçün atılacaq".

# "Britaniya Azərbaycanla birlikdə işləməyə davam edəcək" - Səfir

***Böyük Britaniyanın Bakıdakı səfiri Ceyms Şarp Azərbaycan xalqını 28 may Respublika Günü münasibətilə təbrik edib.***

Bu barədə səfirliyin "Facebook" səhifəsində bildirilib. "Əziz Azərbaycan xalqı, sizi Azərbaycanın Milli bayramı - Respublika Günü münasibətilə təbrik edirəm. Xalqlarımız arasında mövcud dostluq münasibətlərini və ölkələrimizin hərtərəfli əlaqələrini möhkəmləndirmək üçün Böyük Britaniya olaraq Azərbaycanla bütün sahələr üzrə qarşılıqlı əməkdaşlığın gələcəkdə də inkişafı naminə birlikdə işləməyə davam edəcəyik. Hər birinizə səadət və xoş günlər, ölkənizə isə firavanlıq, sülh və tərəqqi diləyirəm. Respublika Gününüz mübarək!".

# Azərbaycanlılar ABŞ-ın üç şəhərində aksiya keçirdi

***Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Amerika Azərbaycanlıları Koordinasiya Şurasının və Yuta-Azərbaycan İcmasının üzvü Kamran Qarayevin təşəbbüsü və təşkilatçılığı ilə ABŞ-ın 3 şəhərində 28 May - Respublika Gününün 103-cü ildönümünə həsr edilən məlumatlandırıcı aksiya keçirilib.***

Komitədən verilən məlumata görə, aksiya zamanı xalqımızın tarixində önəmli yer tutan bu hadisə barədə məlumatları əks etdirən Led ekranlı yük maşınlarının hərəkəti Nyu-York ştatının Manhettan şəhərində, Kaliforniya ştatının Los-Anceles şəhərində və Corciya ştatının Atlanta şəhərində təmin edilib.

Led ekranlarda "28 may - Azərbaycanın Respublika Günü" və "Şərqdə ilk demokratik respublika" sözləri yazılıb, Heydər Əliyev Mərkəzinin Azərbaycan və Türkiyənin dövlət bayraqları ilə işıqlandırılması, Azərbaycanın işğaldan azad olunmuş Şuşa, Zəngilan, Cəbrayıl, Ağdam şəhərlərindəki tarixi memarlıq və dini abidələrin, Xudafərin körpüsünün, hər güşəsində üçrəngli bayrağımızın dalğalandığı məmləkətimizin gözəl təbiətinin təsvirləri əks olunub.

Nyu-Yorkdakı hərəkət marşrutuna Brodvey, Uoll Strit, Vaşinqton Meydan Parkı, 5-ci Avenyu, Çambers Strit, Mərkəzi Park, BMT-nin inzibati binası və digər məşhur mərkəzi küçələr daxil edilib. Los-Anceles şəhərində Rodeo Drayv, Sanset Bulvarı, Mulholland Drayv, Hollivud Bulvarı, Melrouz Prospekti, Atlanta şəhərində Yüzilliyin Olimpiya Parkı, Piyemont-park, Vətəndaş və İnsan Haqları Mərkəzi, Ponse-Siti Marketi, Vest Piçtri Strit Şimal-Qərb, Piçtri Memorial Drayv Şimal-Qərb, Piçtri Roud kimi mərkəzi küçələr əhatə edilib.

# Ermənilər seçməlidir: ya həyat, ya məhv

***İyunun 20-də Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkilərində ənənəvi siyasi qüvvələrlə yanaşı, yeni partiyalar və seçki blokları da iştirak edəcəklər.***

Ermənistanın Mərkəzi Seçki Komissiyası seçkilərə qatılmaq niyyətində olan siyasi qüvvələrin seçki siyahılarının qəbulunu başa vurub.

20-dən artıq partiya və blok siyahıları təqdim ediblər.

Ermənistanda seçkiqabağı təbliğat kampaniyası iyunun 7-də başlanacaq.



Siyahını son təqdim edənlərdən biri Ermənistan Demokratik Partiyasıdır. Bu təşkilatın siyahısına iş adamı Tiqran Arzakantsyan rəhbərlik edir.

"Vətəndaş Seçimi" Partiyasının siyahısında ilk yerlərdə Suren Saakyan, Qor Hakopyan və İrina Hovvanisyan var.

"Şirinyan-Babacanyan" blokunun siyahısında ilk üç yer belədir: müstəqil deputat Arman Babacanyan, Ermənistan Xristian-Demokrat Partiyasının sədri Levon Şirinyan və vəkil Seda Safaryan.

Jirar Sefilyan rəhbərlik etdiyi Milli-Demokrat Qütb Hərəkatında yer almayıb. Sefilyanın təşkilatının siyahısında ilk yerlərdə Vage Qasparyan, Varujan Avetisyan və Kara Çobanyan var.

"Suveren Ermənistan"ın sədri David Sanasaryanın başçılıq etdiyi siyahının ilk üçlüyündə sonrakı yerləri Suren Poqosyan və Narine Martirosyan tutublar.

"5165" Milli-Mühafizəkarlar Hərəkatının siyahısına Karin Tonoyan rəhbərlik edir. Sonrakı iki yerdə müğənni Arsen Qriqoryan (Mro) və Ermənistanın tanınmış onkoloqu Gevorq Tamamyan durublar.

"Zartonk" Partiiyasının siyahısında ilk üç yerdə Ermənistan Vəkillər Palatasının sədri Ara Zöhrabyan, ictimai xadim Vaahn Çaxalyan və psixoloq Karine Nalçacyan var.

Rusiya Erməniləri İttifaqının sədri, milyarder Ara Abramyanın və "Alyans" sədri Tiqran Urixanyanın başçılıq etdikləri "Ermənistan Evimdir" Partiyasının siyahısının lideri Tiqran Urizanyandır. Sonrakı iki yerdə Vardan Ayvazyan və Sona Gülkanyan gəlirlər.

"Ermənistan Qartalları" Partiyasında ilk üç yerdə Xaçik Asryan, Araik Paronyan və Armine Vahramyan yer alıblar.

Ermənistanın sabiq prezidenti Robert Köçəryanın "Ermənistan" blokunun siyahısına elə R.Köçəryan liderlik edir. Sonrakı iki yerdə Daşnaksutyunun büro üzvü İşxan Saqatelyan və deputat Anna Qriqoryanın adları var.

Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın sədr olduğu Erməni Milli Konqresinin seçki siyahısına Ter-Petrosyan başçılıq edir.

Siyahıda ikinci yerdə sədr müavini Levon Zurabyan, üçüncü yerdə isə siyasətdə yeni adam olan İnessa Qabayan var.

Milyarder Qagik Sarukyanın sədr olduğu "Çiçəklənən Ermənistan" Partiyasının siyahısına elə təşkilatın rəhbəri başçılıq edir.

Bu partiyadan olan və Ermənistanda tanınan millət vəkilləri Naira Zohrabyanla Gevorq Petrosyan isə seçkilərə qatılmayacaqlarını bəyan ediblər.

Sabiq prezident Serj Sarqsyanın "Şərəflə xidmət edirəm" blokunun seçki siyahısına "Vətən" Partiyasının sədri Artur Vanesyan başçılıq edir.

Sornrakı iki yerdə İrəvanın sabiq meri Taron Marqaryan və S.Sarqsyanın sabiq köməkçisi Anna Mkrtçyan bərqərar olublar.

Və ən nəhayət, Ermənistanın baş naziri səlahiyyətlərini icra edən "Vətəndaş Sazişi" blokunun seçki siyahısı...

N.Paşinyanın başçılıq etdiyi siyahıda sonrakı iki yerdə parlamentin spikeri Ararat Mirzoyan və "Mənim Addımım" fraksiyasının lideri Lilit Makuns var.

Növbədənkənar parlament seçkilərində sürpriz ola bilər. Belə ki, Rusiyadakı erməni diasporunun və Moskvadakı bəlli siyasi dairələrin dəstəklədiyi sabiq prezident Robert Köçəryan Ermənistan vətəndaşlarına "xilaskar", "problemləri həll edəcək adam" kimi təqdim olunsa da, onun mövqeləri möhkəm deyil.

Ölkədə keçirilmiş son rəy sorğularının nəticələrinə görə, respondentlərin 14,4 faizi Robert Köçəryana, 25,3 faizi isə Nikol Paşinyana səs verəcəklərini deyiblər.

Səsverməyə qatılan ermənilər nə qədər az, seçici passivliyi nə qədər aşağı səviyyədə olarsa, N.Paşinyanın qələbə şansları bir o qədər çoxdur.

Sosial şəbəkələrdə sərhədlərin demarkasiyası və delimitasiyası, İkinci Qarabağ Müharibəsində Ermənistanın kapitulyasiyası və s. ilə bağlı isteriya səngimək bilməsə də, Nikol Paşinyan "xəyanətkar", "əclaf", "türk agenti" adlandırılsa da, Ermənistanın əyalətlərinin sakinləri revanşizmdən qorxurlar.

Onlar sərhədlərin açılmasını, dinc yaşayışı arzulayırlar.

Nikol Paşinyan da ermənilərə bunu vəd edir.

***Elçin Alıoğlu***

# Ermənistanda qubernator hökumətə etiraz olaraq istefa verib

***Ermənistanın Kotayk vilayətinin qubernatoru Mesrop Mesropyan hökumətin kadr siyasəti ilə razılaşmadığına görə istefa verib.***

"Report" "Sputnik Armeniya"ya istinadən xəbər verir ki, o, bunu mayın 27-də ölkənin Nazirlər Kabinetinin iclasından sonra jurnalistlərə bildirib.

M.Mesropyan qeyd edib ki, mayın 10-da istefa ərizəsi yazıb, hökumət onun mrüaciətini qəbul edib. O, Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Suren Papikyanın vilayətdə kadr məsələlərinə müdaxilə etdiyini də vurğulayıb.



M.Mesropyan ölkənin baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyanla münasibətlərinin şəxs deyil, yalnız işgüzar olduğunu bildirib.

Artıq Kotaykın qubernatoru vəzifəsinə yeni təyinat olub. Vilayətinin Qarni kəndinin başçısı Aqaron Saakyan qubernator təyin edilib.

Qeyd edək ki, M.Mesropyan Ermənistanda energetika sahəsində, o cümlədən "Qazprom Armeniya"da işləyib. 2019-2020-ci illərdə İctimai Xidmətin Tənzimlənməsi üzrə Komissyanın üzvü olub, 2020-ci ilin noyabrından Kotaykın qubernatoru işləyib.

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağda ziyanın hesablanmasına beynəlxalq təşkilatların cəlb olunması vacibdir

Faiq İsmayılov: " İƏT-in bu prosesə aktiv şəkildə qoşulması beynəlxalq səviyyədə Azərbaycanın ədalətli mövqeyinə çox böyük təkan verir və erməni vandalizminin ifşa edilməsində mühüm əhəmiyyət daşıyır"

***28 ildir ki, işğal altında saxlanılan torpaqların azad edilməsi nəticəsində dünya erməni vandalizminin əsl siması ilə tanış oldu. İndi əsas məsələlərdən biri də işğaldan azad olunmuş torpaqlarımızda törədilən vəhşiliyə görə Ermənistanın məşhər ayağına çəkilməsi, vurulan ziyanın ödətdirilməsidir.***

Hüquqşünaslar bunun üçün Azərbaycanın Dağlıq Qarabağ həqiqətlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, həmin vəhşilikləri dünyaya nümayiş etdirdikdən sonra vurulan ziyanın ödətdirilməsi ilə bağlı iddialar qaldırmaq lazım olduğunu söyləyirlər. Qeyd edək ki, Azərbaycan dəfələrlə beynəlxalq təşkilatları erməni vandalizmi nəticəsində abidlələrimizə dəyən zərəri hesablayıb qiymətləndirməyə dəvət edib. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) bütün beynəlxalq qurumlar içərisində bu məsələyə daha çevik reaksiya verərək Qarabağda mədəni abidələrə dəyən ziyanı hesablayacaq. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibinin iqtisadi məsələlər üzrə köməkçisi Ahmad Kavaesa Senqendo İƏT Təmas Qrupunun nümayəndə heyətinin Ağdama və Gəncəyə səfərlərinin nəticələrinə həsr olunmuş mətbuat konfransında deyib ki, İƏT Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanda mədəni abidələrə dəyən ziyanı qiymətləndirmək üçün iş aparacaq. O bildirib ki, bu münaqişə nəticəsində Azərbaycanda mədəni abidələrə ciddi ziyan dəyib: "Biz bu məlumatları həm dünya ictimaiyyətinə çatdırmaq, həm də dəymiş ziyanı qiymətləndirmək üçün fəaliyyət göstərəcəyik".

Mədəni irsin araşdırılması üzrə ekspert Faiq İsmayılov İƏT-in bu addımını müsbət qiymətləndirir. F.İsmayılovun sözlərinə görə, bu, beynəlxalq təşkilatların bizim həqiqətimizə dəstəyidir. Ekspert deyir ki, işğaldan azad edilmiş ərazilərimizdəki tarixi-mədəniyyət abidələrinə, bütövlükdə, mədəni irs nümunələrimizə beynəlxalq yanaşmanın olması, beynəlxalq səviyyədə Azərbaycan həqiqətlərinin aşkar



olunması deməkdir. Yəni bu çox vacib bir məsələdir. Bu baxımdan, İƏT-in Qarabağda mədəni abidələrlə bağlı atacağı bu addım təqdirəlayiqdir və erməni vandalizminə məruz qalan abidələrimizin beynəlxalq aləmdə tanıdılmasında mühüm rol oynayacaq.

Həmsöhbətimiz bildirir ki, "Abidələrə dəymiş zərərin qiymətləndirilməsi ilə bağlı 2014-2017-ci illərdə Nazirlər Kabineti yanında İtki və tələfatların qiymətləndirilməsi üzrə işçi qrupunun tərkibində olarkən aparılan qiyabi hesablamalara görə, ermənilər 177 milyard manat həcmində bizim daşınan və daşınmayan tarix-mədəniyyət abidələrimizə zərər vurublar: "İndi ərazilərimiz işğaldan azad olunub. Dəymiş ziyanın daha da dəqiqləşdirilməsi üçün müxtəlif monitorinq qruplarının tərkibində səfərlərim nəzərdə tutulub.Bu hesablamalar ona görə vacibdir ki, görək bizim qiyabi hesablamamızla onun arasında hansı fəqrlər var. Qarabağda erməni vandalizmi nəticəsində abidələrimizə dəymiş ziyanın İƏT tərəfindən hesablanması çox mühümdür və bunun bizim haqq işimizin dünyaya çatdırılmasında rolu böyükdür. İƏT-in bu prosesə aktiv şəkildə qoşulması beynəlxalq səviyyədə Azərbaycanın ədalətli mövqeyinə çox böyük təkan verir və erməni vandalizminin ifşa edilməsində mühüm əhəmiyyət daşıyır".

F. İsmayılov deyir ki, ümumiyyətlə bu prosesə beynəlxalq təşkilatların cəlb olunmasının böyük faydası var. Onun sözlərinə görə, bu prosesdə UNESCO-nun da iştirakı vacibdir: "Bildiyiniz kimi, UNESCO-ya müraciət olub. Azərbaycanın işğaldan azad edilən ərazilərində olan tarixi-mədəniyyət abidələrinin hamısı vandalizmə məruz qalıb. Bunların bir qismini ümumiyyətlə məhv edib, yer üzündən siliblər, bir qismini isə yararsız vəziyyətə salıblar. Xristian dövrü abidələrinin və xristianlığa qədər abidələrin bir qisminə ermənilər "erməni monastırı", "erməni kilsəsi" damğası vuraraq, onları "erməni abidələri" kimi xarici ölkələrdə təbliğ edirlər. Biz bunun qarşısını almalı, həmin abidələrin kimə məxsus olduğunu tarixi faktlarla ortaya qoymalıyıq".

Onu da qeyd edək ki, artıq dünya mətbuatında da Dağlıq Qarabağ həqiqətləri, Azərbaycana vurulan ziyanın ödənilməsi ilə bağlı məsələlər yer alır. ABŞ-ın Ceymstaun Fondunun "Eurasia Daily Monitor" jurnalında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Vasif Hüseynovun "Azərbaycan işğalda olmuş ərazilərə dəymiş zərərə görə Ermənistandan təzminat ödəməyi tələb edir" başlıqlı məqaləsi yayımlanıb. Məqalədə Ermənistanın işğalında olduğu dövrdə Azərbaycan rayon və kəndlərinin dağıdılmasına görə Ermənistanı beynəlxalq məhkəmələrə verəcəyi qeyd olunur. Azərbaycan Respublikasının Prezidentinə istinadən bildirilir ki, işğalda olmuş ərazilərin demək olar ki, 99 faizi ermənilər tərəfindən məhv edilib. Bildirilir ki, həmin ərazilərdə demək olar ki, hər şey, yaşayış binaları, inzibati binalar, məktəblər, xəstəxanalar da daxil olmaqla darmadağın edilib. "Beynəlxalq təşkilatların iştirakı ilə Azərbaycanın bu dağıntılar nəticəsində dəymiş zərəri hesablanacaq və Ermənistanı kompensasiya verməyə məcbur edəcək" deyə, V.Hüseynov əlavə edir. Müəllif erməni ekspertlərin və rəsmilərin məsələ ilə bağlı mövqeyinə də diqqət çəkir. Ermənistanın keçmiş Baş Prokuroru və Avropa İnsan Haqları Məhkəməsində Ermənistanın təmsilçisi olmuş Gevork Kostanyan qeyd edir ki, Ermənistan 10 noyabr bəyannaməsini imzalamaqla həmin əraziləri işğal etdiyini təsdiq edib və bununla da beynəlxalq məhkəmələr qarşısında öhdəlik daşıyacaq. O, Azərbaycanın uzun müddətdir ki, kompensasiya tələbi ilə çıxış etməyə hazırlaşdığını vurğulayaraq bildirir ki, Ermənistanın bu vəziyyətdə özünü müdafiə etməsi üçün hüquqi əsasları qalmayıb. Kostanyana görə, Ermənistan belə olan halda 50 milyard dollardan çox təzminat ödəmək məcburiyyətində qala bilər.

Xatırladaq ki, Haaqa hüququna əsasən mədəniyyət abidələrini və tibbi müəssisələri qorumaq üçün mümkün olan bütün tədbirlərin görülməsi tələb olunur. Bu tələblər digər beynəlxalq hüquqi sənəd olan "Döyüş əməliyyatları zamanı tarixi və dini abidələrin qorunmasına dair Konvensiya"da da əks olunub. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycan ərazisində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb. Mütəxəssislər belə hesab edir ki, münaqişə zamanı dəyən zərərlərin ölçülməsi istiqamətində iki üsuldan istifadə oluna bilər. Birincisi, birbaşa zərərlərin qiymətləndirilməsi, burada birbaşa olaraq dağıdılmış infrastruktura dəymiş zərərlərin real dəyəri ilə qiymətləndirilməsi aparılır. İkincisi, dolayı zərər, burada isə infrastrukturun məhvi nəticəsində itirilmiş imkanlar və əlavə faydaların qiymətləndirilməsi aparıla bilər. Hər bir halda Ermənistan dövlətinin Azərbaycana münaqişə dövründə vurduğu ziyanı ödəmək məcburiyyəti var. Çünki, düşmən torpaqlarımızı işğal müddətində nəinki dağıdıb, həm də ibadət yerlərimizi təhqir edib, tariximizin izlərini silməyə çalışıb. İşğal dövründə Azərbaycanın yüzlərlə abidəsi məhv edilib və ya yararsız hala salınıb ki, onların arasında 13 beynəlxalq əhəmiyyətli mədəniyyət nümunəsi də var. İşğal olunmuş ərazilərdə yerləşən məscidlərin əksəriyyəti yerlə yeksan edilib: 67 dini obyektdən 64-ü tamamilə dağıdılıb.

Ermənistanın işğal altındakı ərazilərimizə vurduğu ziyan sadəcə onun barbarcasına etdiyi dağıntılar ilə məhdudlaşmayacaq. Həmin ərazilərimizin böyük iqtisadi potensialını nəzərə aldıqda Ümumi Daxili Məhsula dəyən ziyanın da ayrıca hesablanması və təzminat məbləğinə daxil edilməsinə ehtiyac var. Artıq bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var. Ziyanın qiymətləndirilməsi prosesinə beynəlxalq ekspertlərin də cəlb edilməsi daha dəqiq məbləğin hesablanmasına imkan yaradacaq.

***Mələk Eyvazlı***



# Gəncədə kişi keçmiş arvadını öldürdü

***Mayın 26-da saat 13 radələrində Gəncə şəhəri ərazisində Günay Amanovanın bıçaqlanaraq öldürülməsi barədə şəhər Prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Unikal.org-a Gəncə Şəhər Prokurorluğundan məlumat verilib. Aparılan araşdırmalarla müəyyən edilib ki, zərərçəkmişin keçmiş əri Qafar Amanov şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla Günay Amanovaya xəsarətlər yetirərək sonuncunu qəsdən öldürüb.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Qafar Amanov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

# Şəmkirdə iki bacı bıçaqlandı

***Şəmkirdə bıçaqlanma hadisəsi baş verib.***

Unikal.org xəbər verir ki, hadisə rayonun Abbaslı kəndində qeydə alınıb.

33 yaşlı Süleymanova Şəhla və Tağıyeva Şəlalə bıçaqlanma diaqnozu ilə xəstəxanaya yerləşdiriliblər. Dərhal hər iki xəstə əməliyyat olunub, vəziyyətlərinin kafi olduğu bildirilir.

Hadisənin hansı səbəbdən baş verdiyi məlum deyil. Faktla bağlı araşdırma aparılır.

# Oğurluq edən keçmiş məhkum ələ keçdi

***Səbail rayonunda avtomobildən oğurluq edən keçmiş məhkum tutulub.***

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Unikal.org-a verilən məlumata görə, mayın 23-də rayon ərazisində bir avtomobildən 162 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən Cəbrayıl rayon sakini, əvvəllər məhkum olunmuş E.Əliyev Səbail Rayon Polis İdarəsinin 9-cu polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Hadisə ilə bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

# Neftçalada 10 ton çətənə kolu məhv edildi

***Neftçalada yabanı halda bitən 10 ton çətənə kolu məhv edilib.***

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupundan Unikal.org-a verilən məlumata görə, Neftçala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən “Xaşxaş-2021” şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayonun Mikayıllı kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib.

Polis əməkdaşları tərəfindən yabanı halda bitmiş ümumi çəkisi 10 ton olan 11 132 ədəd çətənə kolu kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

Faktla bağlı RPŞ-də araşdırma aparılır.

# Azərbaycanda şok olay: 14 yaşlı qız qoşulub qaçdı - "Gecə qərara gəldik ki..."



***Göyçay rayon sakini, 1997-ci il təvəllüdlü Əfqan bir qadına qarşı soyğunçuluq edib, bundan başqa, 16 yaşına çatmayan qızla cinsi əlaqədə olub.***

Teleqraf.com-un xəbərinə görə, o, 2019-cu ildə Bakı şəhəri, Nəsimi rayonu, 3-cü mikrorayon dairəsinin yaxınlığında Məryəm adlı qadına qarşı soyçunçuluq edib. Həmin qadına arxadan yaxınlaşaraq, içərisində 60 manat dəyərində “Nokia” markalı mobil telefon, 6 manat məbləğində pul olan çantanı alaraq qaçıb.

Bundan başqa, Əfqan 2005-ci il təvəllüdlü Məlahətlə (ad şərti verilib - red.) Oğuz rayonu Xalxal kəndində, daha sonra isə Göyçay rayonu Qızılağac kəndində yaşadığı evində cinsi əlaqədə olub.

İstintaq orqanı tərəfindən Əfqanın barəsində Cinayət Məcəlləsinin 180.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən soyğunçuluq törətmək) və 152.1-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham elan edilib.

Əfqan soyçunçuluq ittihamı üzrə özünü təqsirli bilməyib. O, yalnız 16 yaşına çatmayan qızla cinsi əlaqədə olmaqda özünü günahkar sayıb. Əfqan ifadəsində qeyd edib ki, soyçunçuluq cinayət əməli törədilərkən Emillə birlikdə olmayıb və cinayət hadisəsini törətməyib.

Onun ifadəsinə görə, 2005-ci il tarixdə anadan olmuş Məlahəti ailəvi dostları olan Qəbələ rayon sakini Fəridənin (ad şərti verilib - red.) vasitəsi ilə tanıyıb: “2019-cu ildən Məlahətlə birlikdə qeyri-rəsmi ər-arvad münasibətində yaşamışıq. Fəridə atamın yeznəsinin qardaşı qızıdır.

Fəridə 2019-cu ilin iyulun sonlarında yaşadıqları evdə yıxılıb və xəsarət aldığına görə Qəbələ Diaqnostika mərkəzində müalicə alıb. Fəridəni ziyarət etməyə gedən zaman onun yanında Məlahəti gördüm. Tanışlıqdan sonra aramızda səmimi sevgi münasibətləri yarandı. Bundan sonra ailə qurmaq fikrinə düşdük”.

Əfqan qeyd edib ki, Məlahətin atası qızının azyaşlı olduğunu, odur ki, hazırda heç kimə ərə verə bilməyəcəyini bildirib: “Məlahətlə danışan zaman onu qaçırmağımı tələb etdi. Qəbələ şəhərində Heydər Əliyev parkında Məlahət ailə üzvləri ilə birlikdə idi. Bu zaman ona yaxınlaşaraq qoşulub qaçmağa razı olub-olmadığını soruşdum. O da mənimlə qaçmağa razı olduğunu bildirdi.

Məlahətə yaşının az olduğunu, gələcəkdə peşman olub-olmayacağını bir daha soruşdum. O, məni sevdiyini, məndən başqa heç kimlə ailə qura bilməyəcəyini, odur ki, onu qaçırmağımı bildirdi. Məlahətlə parkdan çıxaraq birlikdə VAZ 2107 markalı avtomobilə əyləşdik və Qəbələ rayonu Zarağan kəndi ərazisinə gəldik”.

Təqsirləndirilən şəxsin ifadəsinə görə, Məlahətin azyaşlı olması səbəbindən atası onun geri qaytarmasını tələb edib: “Məlahət atasının tələbini yerinə yetirmədi. Bundan sonra tanımadığım başqa bir taksi fəaliyyəti göstərən “Mercedes” markalı avtomobilə əyləşərək Oğuz rayonunda yaşayan dostumun Xalxal kəndində olan evinə getdik. Həmin gün saat 23 radələrində Məlahətin razılığı ilə onunla cinsi əlaqədə oldum.

Bundan sonra Göyçay rayonu Qızılağac kəndində fərdi yaşayış evimdə Məlahətlə cinsi əlaqədə olmuşam. Törətdiyim əməlimdən peşmanam”.

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Məlahət bildirib ki, ailə üzvləri ilə birlikdə Qəbələ şəhərində yerləşən Heydər Əliyev parkındakı konsertə gəlib: “Həmin vaxt orada tanışım Səmayəni (zərərçəkmişin ifadəsində adı keçən şəxslərin bəzilərinin adları şərti verilib - red.) gördüm, onunla görüşdük. Bir qədər sonra valideynlərimin yanına gəldim. 10-15 dəqiqə sonra parkda Əfqanı gördüm, onun yanına getdim. Anamgilə Səmayəni də çay içməyə dəvət edəcəyimi dedim, onlardan ayrılaraq Əfqanın yanına gəldim, onunla görüşdüm.

Əfqan onunla qaçmaq barədə fikirləşib-fikirləşmədiyim ilə maraqlandı. Birlikdə qaça biləcəyimi bildirdim. Bundan sonra parkdan çıxaraq VAZ 2107 markalı taksiyə mindik, Zarağan kəndi ərazisinə Oğuz-Şəki yoluna gəldik. Həmin yerdə avtomobildən düşən zaman Əfqan taksi sürücüsünün mobil telefonu ilə atama zəng etdi, məni qaçırdığını bildirdi. Sonra telefonu söndürdü, yoldan keçən “Mercedes” markalı taksi avtomobilinə mindik, Oğuz rayonu Xalxal kəndinə gəldik. Əfqa məni dostu Turalın evinə apracağını və orada gecələyəcəyimizi bildirdi”.

Məlahətin sözlərinə görə, axşam saatlarında Əfqanın tanışının evinə gəliblər: “Həmin evdə Əfqanın dostu Tural, anası, atası, bacısı və arvadı olub. Ev sahibləri mənim kim olduğumu maraqlananda Əfqan sevdiyi qız olduğumu, valideynləri məni ona vermədikləri üçün qaçırdığını bildirdi. Həmin ev sahibləri yaşı barədə maraqlanadan Əfqan 18 yaşımın tamam olduğunu, lakin balaca göründüyümü dedi.

Şəxsiyyət vəsiqəsi evdə qaldığı üçün onlara yaşımı demədim. Həmin gün Turalgilin evində ayrı otaqlarda gecələməyimiz yer saldılar. Lakin yatanda fikirləşdik ki, əgər gecəni bir yerdə keçirib, cinsi əlaqədə olsaq, daha atamgil məni Əfqana razılıqla verərlər. Odur ki, Əfqanla ilk dəfə həmin gün təbii yolla cinsi əlaqədə oldum. Həmin vaxt Əfqan mənim qızlıq bakirəliyimi pozdu”.

Məlahətin sözlərinə görə, ertəsi gün atası, qayınatası Fuad və tanışları Oğuz rayonudakı qaldıqları evə gəliblər: “Bundan sonra Qəbələ rayon polis şöbəsinə gəldik, izahat verdik. Qəbələ rayon polis şöbəsindən çıxdıqdan sonra atama əgər yenə də məni Əfqana verməsən, Əfqanla qoşulub yenə də qaçacağımı dedim. Atam mənim Əfqanla birlikdə Göyçaya gəlməyimə razılıq verdi.

Göyçaya gələndən sonra Əfqanın yaşadığı Qızılağac kəndində olan evdə birlikdə gecəni keçirdik. Əfqanla yenə cinsi əlaqədə oldum. Bundan sonra Oğuz rayon polis şöbəsində olan zaman cinsi əlaqədə olmalarımızın qanunsuzluğunu və buna görə Əfqanın məsuliyyətə cəlb ediləcəyini bildiyimiz üçün daha birlikdə yatmadıq, cinsi əlaqədə olmadıq. Əfqanla tanış olanda mənim 14 yaşımın təzəlikən tamam olduğunu və 16 yaşımın tamam olmadığını bilib. Əfqandan heç bir şikayətim yoxdur”.

Bu cinayət işinə Göyçay rayon Məhkəməsində hakim İbrahim Fəttahovun sədrliyi ilə baxılıb.

Əfqanın barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq olunub. Ona 2 il sınaq müddəti olmaqla 3 il 10 ay 18 gün müddətinə şərti cəzas təyin olunub.

# "Ölkədə baş verən istənilən dəyişiklik ilk növbədə reklam bazarına təsir göstərir" - MÜSAHİBƏ

***"Unikal" 15 illik təcrübəyə malik "Instinct" reklam agentliyinin (10 ildir fəaliyyət göstərir) təsisçisi və rəhbəri Vüqar İsgəndərovun (Vüqar Sənani kimi tanınır) Fins.az-a müsahibəsini təqdim edir.***

***-Yerli reklam bazarını necə qiymətləndirərdiniz?***

-Təvazökarlıqdan kənar olsa da, düşünürəm ki, artıq 15 ilə yaxındır bazarda olduğum üçün bu barədə danışmağa haqqım çatır. Təbii ki, çatışmazlıqlar var, amma yerli reklam bazarı durmadan inkişaf edir. İstənilən ölkənin bazarı kimi, bu bazarın da özünəməxsusluğu var. Bir çoxları üçün bu bazar qarışıq görünə bilər, amma işini peşəkarcasına görən yerli şirkətlər üçün çox aydın və rahatdır. Müştəri bizi niyə seçir? Çünki biz onun



etimadını doğrultmuşuq. Yaxşı, sual verə bilərsiniz ki, onların etimadını necə dorğutlmuşuq? Reklam agentliyinə üz tutanlar satışlarını, gəlirlərini artırmaq istəyir. Buna görə, biz öz qazancımızdan əvvəl onun qazancını düşünürük. Bunu sözdə yox, əməldə isbat edirik. El dili ilə desək, müştərini razı salırıq ki, təkrar-təkrar qapımızı döysün. Vacib məsələlərdən biri də budur ki, bizim müştərilərə təklif edəcəyimiz bir neçə alət və ya xidmət var. Şirkətlər Müştərilərimiz bazara yaxşı bələddir və bilirlər ki, onlara lazım olan istənilən xidmət bizdə var.

***-Pandemiya bu bazara necə təsir edir? Nə dəyişiklər olub?***

-Ümumiyyətlə, nəinki pandemiya, ölkədə baş verən istənilən dəyişiklik ilk növbədə reklam bazarına təsir göstərir. Buna görə, istənilən iqtisadi proqnozdan biz əvvəlcədən xəbərdar oluruq. İstənilən krizis situasiyası medal kimidir və bu medalın iki tərəfi var: yaşanan dövr və yaşanandan sonrakı - psixoloji dövr. Bizdə artıq psixoloji dövr bitmək üzrədir. Bu, yaxın vaxtlarda reklam bazarında da özünü göstərəcək.

***-İstənilən böhran zaman biznes sahibləri ilk olaraq reklam büdcəsini azaldır. Sizcə, bu düzgün addımdır?***

-Kökündən yanlışdır! Təəssüf ki, bu da Azərbaycan bazarının özəlliklərindəndir. Azərbaycan bazarına oxşar bazarlarda da eyni vəziyyəti görmək olar. Amma inkişaf etmiş bazarlarda bir dənə də olsun belə bir misal yoxdur. Gəlin, bir anlıq fərz edək ki, böhran davam edir, siz isə bir biznes sahibisiniz. Təbii ki, siz də qazanc əldə etmək istəyirsiniz. Razılaşın ki, böhran vaxtı sizin həmişəkindən daha çox qazanca ehtiyacınız var. Böhran zamanı alıcılıq qüvvəsi xeyli aşağı düşür. Bazarda hər bir müştəri uğrunda qızğın mübarizə gedən zaman reklam xərclərini azaltmaq sizi uçuruma aparacaq. Düşünürəm ki, problemin kökü daha dərindədir. Sahibkarlarımızın əksəriyyətinin reklama yanaşması hələ də dəyişmir. Onlar reklama müəyyən dövrlərdə hansısa məqsədlər üçün istifadə olunan bir alət kimi baxır. Halbuki, reklam daimi bir strategiyadır.

Sahibkarlar dəyişmək istəyirmi? Son illərin tendensiyası göstərir ki, vəziyyət yaxşıya doğru dəyişir. Məncə PR və marketinq üzrə məsul şəxslər rəhbər şəxslərə daha çox təsir etməlidir ki, arzuolunan nəticəyə daha tez çataq.

***-Yerli sahibkarlara reklam və PR sahəsində nə tövsiyə edərdiz?***

-PR qığılcım yaradır, marketinq isə söndürülməsi mümkün olmayan bir alov! Razılaşın ki, qığılcım olmadan alov yarana bilməz. Siz dünyanın ən güclü piarını apara bilərsiniz, lakin sizi müştəri sabah səhər bir məhsul sifariş veribsə, əməkdaşlarınız isə 2 saat gecikmə ilə zəng edib deyirsə ki, biz 1 saat da yubanırıq, deməli, hər şey kələ-mayallaq gedir. Heç kim deməyəcək ki, PR əla idi, marketinq və satış isə pis. Müştəri sadəcə sizdən imtina edəcək. Unutmaq olmaz ki, yaxşı PR yalnız bir dəfə müştərini keyfiyyətsiz məhsul almağa inandıra bilər. Lakin müştəri məhsulun keyfiyyətsiz olduğunu bilsə, vəssalam. İnkişaf etmiş ölkələrin praktikası göstərir ki, əgər hər kəs reklamdan danışırsa, deməli bu pis reklamdır, əgər hər kəs məhsuldan danışırsa, əsl reklam budur! Gördüyünüz kimi, hər şey bir-birinə bağlıdır.

***-İllərdir bu biznesdəsiniz. Sizcə, bu sahə risklidir? Risk nədədir?***

-Bütün sahələrdə olduğu kimi, bu sahənin də öz riskləri var. Ən böyük risk imiclə bağlıdır. İndiyədək müştərilərimiz bizi yalnız etibarlı tərəfdaş kimi tanıyıb və səbəblərini müsahibənin əvvəlində izah etdim. Amma məsələnin başqa bir tərəfi də var. Məsələ burasındadır ki, biz müştərinin satışlarını artırmağa dəstək oluruq. Başqa sözlə, reklam müştərini qapıyadək gətirir, lakin məhsulu satıb-satmayacağı artıq onun öz əlindədir. Bu, subyektiv bir səbəbdir. Müştəri hansısa reklamdan sonra satışlarda ciddi artım görməsə, hərtərəfli araşdırma aparmalıdır. "Reklama filan qədər xərclədik, amma satışlar artmadı" deməklə kifayətlənmək olmaz. Səbəbi tapıb, problemi kökündən həll etmək lazımdır.

***-"QR kod" adlı yeni məhsulu təqdim etmisiniz. Bu məhsul sizə və müştərilərinizə nə verdi?***

-Biz istənilən məhsulumuzu müştərilərimizin və onların müştərilərinin rahatlığı üçün buraxırıq. Məhsul sırf televiziya reklamı üçün nəzərdə tutulub. Günü-gündən rəqəmsallaşan dünyada "QR kod" sistemi özünü doğrultdu və onun istifadəçilərinin sayı artmaqdadır. Bu tendensiyanı nəzərə alıb, bu məhsulu yaratdıq. Məsələn, televiziya verilişi zamanı ekrana çıxan "QR kodu" skan etsəniz, bir çox əməliyyatları sürətləndirə və rahatlaşdıra bilirsiz. TV-də "QR kod"u görən tamaşaçı kodu skan etməklə link vasitəsilə müştərinin saytına, sosial şəbəkə hesablarına, Google Play Market, Apple Store-dakı tətbiqlərinə və ya geniş videoməlumat üçün hər hansı bir video platformasına keçid edə biləcək. Bununla da həmin reklam kampaniyası haqqında geniş və rahat informasiya almaq imkanı əldə edəcək. Bir müddətdir bu məhsulu test etdik və çox yaxşı nəticələr əldə etdik. Düşünürəm ki, bu məhsula tələbat xeyli artacaq.

TV reklamlarının rəqəmsallaşması qaçılmazdır. Bu gün QR reklam yerləşdirən müştəri həm TV-də ənnəvi bant reklamı kimi böyük kütləyə xitab etmək imkanı, həm də reklamının effektivliyini rahatlıqla ölçmək imkanı əldə edəcək. Bu xidmətimiz haqqında ətraflı məlumat almaq üçün aşağıdakı linkə daxil ola və ya QR kodu skan edə bilərsiz.

## "Azərişıq" nizamnamə kapitalını 28% artıracaq




***Bu il "Azərişıq" ASC nizamnamə kapitalını 470,8 milyon manat və yaxud 28,05% artıraraq 1 milyard 678,7 milyon manatdan 2 milyard 149,5 milyon manata çatdıracaq.***

Məlumata görə, 2019-cu ildə səhmdar cəmiyyəti Nazirlər Kabinetinin göstərişi əsasında nizamnamə kapitalının artırılması üçün tədbirlərə başlasa da, dövlət orqanlarındakı struktur dəyişiklikləri ilə əlaqədar proses 2020-ci ildə tamamlanmayıb, 2021-ci ildə başa çatdırılması gözlənilir. Kapital artımı 325,8 milyon manat məbləğində əlavə ödənilmiş kapital və əvvəlki illərdə Maliyyə Nazirliyindən alınmış 145 milyon manat borcun nizamnamə kapitalına yönəldilməsi hesabına baş tutacaq. Həmin borcun öhdəlikdən kapitala keçirilməsi şirkətin xalis dövriyyə kapitalının təxminən 70 milyon manat artmasına səbəb olacaq.

## Azərbaycan neftinin qiyməti 69 dollara çatır



***Azərbaycan neftinin qiyməti bahalaşır. "Unikal" xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,24 dollar artaraq 68,99 dollar təşkil edib.***

Qeyd edək ki, "Azeri Light" neftinin bir barelinin qiyməti keçən il aprelin 21-də minimuma enərək 15,81 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.

## Hava nəqliyyatı ilə sərnişin daşımaları bərpa edilir

***Azərbaycanda hava nəqliyyatı ilə sərnişin daşımaları bərpa edilir.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə Qərarında deyilib.

Qərarda qeyd edilib ki, ölkənin şəhər və rayonlarından yerüstü və hava nəqliyyatı ilə sərnişin daşımaları bərpa olunur.

## "az" domenlərinin qeydiyyatı və istifadəsində dəyişiklik edilib

***"az" ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi Qaydaları"na və domen adlarının reyestrinə daxil edilən məlumatların siyahısına dəyişiklik edilib.***

Bu barədə "az" ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi Qaydaları"nın və "Domen adlarının reyestrinə daxil edilən məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov 2021-ci il 24 may tarixli Qərar imzalayıb.

Qərara əsasən, "az" ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi Qaydaları"nın və "Domen adlarının reyestrinə daxil edilən məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında dəyişiklik edilərək həmin qərarda "domen adlarının milli inzibatçısı" anlayışı verilib, domen adlarının milli inzibatçısı tərəfindən "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domen adlarının qeydiyyatına və onlara texniki xidmət göstərilməsinə görə ödənişin məbləğlərinin aidiyyəti dövlət orqanı ilə razılaşdırılmasına dair müddəalar əlavə edilib.



# Zakir Quliyev iclas keçirdi

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də Azərbaycan-İran Birgə Komissiyasının 50-ci görüşün Protokol layihəsinin müzakirəsi videokonfrans şəklində keçirilib.***

Unikal.org xəbər verir ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm Şərifovun verdiyi məlumata görə, Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan Respublikasının və İran İslam Respublikasının daimi fəaliyyət göstərən Birgə Komissiyasının 50-ci görüşün Protokol layihəsinin müzakirəsi Covid-19 koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də keçirilib.

Azərbaycan-İran Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda Səhmdar Cəmiyyətin şöbə müdirləri Əjdər Cavadov və Elxan Hüseyinov, Azərbaycan Ekologiya və Təbii Sərvətlər nazirliyinin nümayəndələri Mütəllim Əbdülhəsənov, Asif Verdiyev və Naxçıvan MR-nın Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Yəhya Allahverdiyev, Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev və Ekologiya və Təbii Sərvətlər naziri Mais Əliyev iştirak ediblər.

Videokonfrans şəklində keçirilən görüşdə bir sıra məsələlər müzakirə edilmişdir. Belə ki, Araz su anbarının 2021-ci il üçün iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilmiş, Araz çayında su sərfinin ölçülməsi qrafiki təsdiq edilmiş, Araz çayının su ehtiyatlarının qiymətləndirilməsi, idarə edilməsi və su bölgüsünün optimallaşdırılması məqsədilə avtomatik idarəetmə sisteminin yaradılması sahəsində aparılan işlərin sürətləndirilməsi və digər məsələlər müzakirə edilib.

Qeyd edək ki, "Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan-İran Birgə Komissiyası"-nın 50-ci yubiley iclası 31 may 2021-ci il tarixində Araz su anbarının səddində təntənəli şəkildə keçiriləcəkdir.

# Rusiyada ev heyvanlarının vaksinasiyasına başlanıldı

***Rusiyanın bəzi bölgələrində baytar klinikalarında ev heyvanlarına COVID-19 əleyhinə vaksin vurulmasına başlanılıb.***



Unikal.org xəbər verir ki, bu barədə Rusiya Federal Baytarlıq və Bitki Sağlamlığına Nəzarət Qurumu ("Rosselxoznadzor") məlumat yayıb.

"Heyvanları xəstəlikdən qorumaq üçün alimlər tərəfindən inkişaf etdirilən "Carnivac-Cov"un ilk partiyaları dünəndən etibarən Rusiyanın müxtəlif şəhərlərinə göndərilib. Vaksinasiya istehsalçı Federal Heyvan Sağlamlığını Qoruma Mərkəzindən vaksini satın alan özəl və dövlət klinikaları tərəfindən aparılır", - məlumatda qeyd edilib.

# Astaranın gənc döyüşçüləri...

***44 günlük Vətən Müharibəsi nəticəsində neçə-neçə qəhrəman oğullarımızı tanıdıq. Onlardan ikisini, Vətən Müharibəsi iştirakçılarını Qədəmullazadə Fərid Habil oğlu və Qədəmullazadə Fərid Habil oğlunu təqdim edirik.***

Qədəmullazadə Fərid Habil oğlu 30.08.1995-ci ildə anadan olub.O , 2001-2012 -ci illərdə Astara rayon Artupa kənd tam orta məktəbində təhsil alıb. 2012-2016-cı illərdə təhsilini Azərbaycan texniki Universitetində davam etdirib.Daha sonra həqiqi hərbi xidmətini yerinə yetirmişdir. 2020-ci ildən Astara Rayon İcra Hakimiyyəti aparatının baş mütəxəssisi vəzifəsində çalışmışdır. Fərid sentyabrda qismən səfərbərlik elan edildikdən sonra könüllü olaraq cəbhəyə yollanır.Füzuli istiqamətindən döyüşlərə qatılır.Əvvəlcə sürücü kimi fəaliyyət göstərir.Sonradan top atıcısı təyin edilir. Komanda müşahidə postuna aparılır.Orada teminata yardım edir.






Teminat meqsedli destek ucun Cebrayila dogru gonderilir. Fuzuli ugrunda geden doyuslerde yaralanaraq Füzuliyə - Əhmədbəylidə hospitala çatdırılıb.Ayağından ağır qəlpə yaraları ve basindan agir travma alıb. Qəlpələrin bir qismini çıxarıblar.Beş dəfə əməliyyat edilib.Sinirlə sümük arasında olan kiçik qəlpələri çıxarmaq mümkün olmayıb.Elə qəlpələri çıxarmaq təhlükəli olduğu üçün bu qəlpələri ömür boyu Fərid bədənində daçıyacaq.Üç ay xəstəxanada -nevrologiya və reablitasiya şöbəsində müalicə alan Fəridin ayağının funksiyası nisbətən bərpa olub. Cəbrayılın və Qubadlının azad olunmasına görə Azərbaycan Respublikası medalı ilə təltif olunmuşdur. Hal-hazirda mualicesini davam etdirir.

Digər Qəhrəman döyüşçümüz isə Qafarov Ilkin Polad oğlu 02.09.1993 tarixində Astara rayonunda anadan olub. 2010 cu ildə Artupa kənd tam orta məktəbini bitirib elə həmin ildədə Sumqayıt Dövlət Universitetinə qəbul olmuşdur 2014 cü ildə Sumqayıt Dövlət Universitetinin məzunu olmuşdur. 2014-2015 ci illərdə hərbi xirmətdə olmuşdur. Vətən müharibəsində könüllü iştirak etmişdim,8 oktyabr Xocavənd uğrunda gedən döyüşlərdə yaralanmışdır. Agcabədi hosbitalına aparılmış daha sonra Şəmkir xəstəxanasından evə buraxılmışdır. Cəsur döyüşçü medalı ilə təltif olunmuşdur.

***H.İsgəndərov***



# 18 il atasından xəbər tutmayan "HÖKMDAR": Bir dahi barədə bir neçə kəlmə

***"Yadımdadı, atam 37-ci ilin 29 sentyabrında həbs edildi. 9 yaşım vardı onda. O, Laçın rayonunun birinci katibi idi. 1938-ci ilin 4 iyununda isə "troyka"nın qərarıyla onu güllələdilər. Biz onun güllələnməsindən bir də 18 il sonra, 56-cı ildə xəbər tutduq. Ona bəraət veriləndə".***



Tahir Salahovun müsahibəsindəndi. SSRİ xalq rəssamı, bir çoxlarının "rənglər hökmdarı" adlandırdığı dahinin. O dahi ki dünən 92 yaşında Almaniyada dünyasını dəyişdi. Bacısı deyir ki, iki gün əvvəl aparılmışdı Almaniyaya, Moskvadan.

Hə, uzun illərdi ki, Moskvada yaşayırdı. 70 il əvvəl köçmüşdü sovetlərin paytaxtına. 1950-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirəndən sonra, nəinki keçmiş SSRİ-nin, dünyanın ən böyük incəsənət məktəblərindən olan Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuşdu. Və bununla da həyatı Rusiyaya bağlanmışdı. Amma həm özü, həm də yaradıcılığı birmənalı Azərbaycana bağlıydı...

Tahir Salahov 1928-ci il noyabr ayının 29-da Bakıda anadan olub. Yuxarıda qeyd etdiyimiz kimi, atası Teymur Salahov həbs olunub güllələndikdən sonra evdar qadın olan anası Sona xanım beş uşaqla tək qalmışdı. Böyük qardaşı Sabirin 11, ortancıl qardaşı Mahirin 10, özünün 9, kiçik bacısı Zərifənin 5 yaşı vardı. Körpə Leyla isə cəmi 2 aylıq idi.

1945-ci ildə Bakıda orta məktəbi bitirir. Əvvəl Əzimzadəyə daxil olur, oradan isə Surikova yollanır. 27 yaşında "Dalğa" və "Estakada"" adlı ilk əsərlərini çəkir. 1957-ci ildə diplom işi olan Bakı neftçilərinin həyatından bəhs edən "Növbədən qayıdanda" tablosu ona böyük şöhrət gətirir.

### "Növbədən qayıdanda"

Salahovun əsərlərində Bakı, Abşeron, qəhrəman neftçilərinin həyatı qırmızı xətlə keçir desək, yanılmarıq. Onun "Təmirçilər", "Xəzər üzərində", "Abşeron qadınları", "Nardaran kəndi" , "Dənizdə buruqlar", "Xəzərdə qayalar", "Xəzərdə axşam", "Mərdəkan qalası", "Nardaranda küçə" , "Xəzərdə sahil" əsərləri bu qəbildəndi. Sonradan Salahov öz xatirələrində yazacaqdı: "Mən bir neçə ay Neft Daşlarında neftçilərlə eyni yataqxanada qalmışam. Məhz əməksevən obrazlarımı da elə orada tapmışam".

Onun haqqında bir dəfə belə demişdilər: "Görkəmli Azərbaycan rəssamı, qüdrətli fırça ustası kimi Tahir Salahovu bütün dünya tanıyır. Deməli, Tahir Salahovun sənəti vasitəsilə beynəlxalq aləm həm də Azərbaycanı bir daha tanımaq imkanı qazanır".

Mövzusundan, üslubundan, yanaşma tərzindən asılı olmayaraq, Tahir Salahovun əsərlərinin əksəriyyətində bir parça, bir ovuc, bir cizgi Abşeron rəngi, ovqatı mövcuddur. Rəssamın yaradıcılığında "Sənə, bəşəriyyət!" tablosu xüsusi yer tutur.

### "Sənə bəşəriyyət"

Təsəvvür edin, bu əsər ilk dəfə 12 aprel 1961-ci ildə Bakıda təşkil edilmiş sərgisində nümayiş etdirilir. Həmin gün isə ilk insanın, Yuri Qaqarinin kosmosa uçduğu gün idi. Sonradan Salahov deyəcəkdi: "1959-cu ildə, insanın kosmosa uçuşundan iki il əvvəl gecənin bir vaxtı mən qəflətən yuxudan ayıldım və kosmik səmada yanar ulduzlar arasında uçan, antik çöhrəli kişi və qadın eskizi çəkdim. Az sonra mən həmin eskizi kətan üzərinə köçürdüm və məhz Yuri Qaqarin kosmosa uçan gün bu işi sərgidə nümayiş etdirdim".

Tahir Salahov əvvəl SSRİ məkanında və Azərbaycanda, sonra isə Qərbdə və dünyada "sərt stilin" yaradıcısı hesab olunur. Mütəxəssislərin qənaətinə görə, Tahir Salahovun tənqidi realist rəssam olduğunu qeyri-rəsmi şəkildə olsa da, mütləq əksəriyyət həmişə qəbul edib. Görkəmli sovet rəssamlarından Pavel Nikonov, Viktor İvanov, Qeliy Korjev və başqaları da sərt üslubda orijinal rəsm əsərləri çəkiblər. Amma bütövlükdə rəssamlıqda İttifaq miqyasında sərt realizm sənət məktəbini yaratmaq Tahir Salahova məxsus mühüm xidmətdir.

"O inanılmaz rəssam, görkəmli pedaqoq, çox gözəl oğuldur. Mən onun öz doğmalarına münasibətini, yanaşmasını görmüşəm. Öz anasına, mənim anama, qızlarına, nəvələrinə, mənə. İstənilən adam ondan bir xahiş eləsə, o heç vaxt həmin adamı qırmaz, çalışar ki, ona kömək etsin. O, çox gözəl yemək hazırlamağı bacarır. Şəxsən mənə bu işi Tahir öyrədib. Ümumiyyətlə, mən ondan çox şey öyrənmişəm. O mənim üçün təkcə dost, sevimli həyat yoldaşı deyil, həm də müəllimdir". Həyat yoldaşı Varvara Salahova deyir bu sözləri.

Sənətinə dövlət qayğısı göstərilən böyük sənətkar saysız-hesabsız mükafatlara sahibdir. O, Sovet İttifaqının ən yüksək təltifləri və ordenlərinə layiq görülüb, Sosialist Əməyi Qəhrəmanı adını alıb. Rusiyanın "Vətən qarşısında xidmətlərinə görə" ikinci və üçüncü dərəcəli ordeninə, müstəqil Azərbaycanın ali mükafatı olan "İstiqlal"və "Heydər Əliyev" ordenlərinə, Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin təltiflərinə, müxtəlif medallarına və mükafatlarına sahibdi. 2015-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə və dünya təsviri sənət xəzinəsinə layiqli töhfələrinə görə, "Heydər Əliyev" mükafatına layiq görülüb.

Tahir Salahov neçə il idi ki, ürəyindən müalicə olunurdu. Bu məqsədlə ildə iki dəfə Almaniyaya gedirdi. Bu, son gediş oldu. Onun böyük ürəyi də məhz Almaniyada dayandı...

***Səbuhi Məmmədli***

# 150 yaşlı "qəhrəman", yoxa çıxan lövhə, bir tarixin izi ilə - ARAŞDIRMA

***Göyçayda belə bir deyim var: "Ermənilər soyqırımı törətdilər, xalqımızın günahsız oğul və qızlarını öldürdülər, lakin kökümüzü kəsə bilmədilər. Ölən hər bir şəhidin yerinə 4 oğul dünyaya gəldi. Beləcə insanlar artdı, çoxaldı".***

Əslində, şəhərin mərkəzində ucalan, 150 ildən çox yaşı olan çinar ağacıyla bağlı yaranıb bu deyim. 1918-ci ildə Göyçay ərazisində baş verən döyüşlər zamanı Bozdağda quraşdırılan erməni topundan atılan mərmi şəhərin mərkəzindəki çinar ağacına dəyib və onu ağır zədələyib. Amma buna baxmayaraq o yenidən qol-budaq atıb ucalıb. Vaxt keçdikcə bir gövdədən 4 budaq çıxıb.




Vaxtı ilə bu ağacın üstünə lövhə də var idi. Gənc nəslə, şəhərin qonaqlarına bu tarixi xatırladan lövhə. Amma indi nədənsə gözə dəymir. Həmin lövhədə isə bu sözlər yazılmışdı: "1918-ci il 30 iyun. Erməni təcavüzkarlarının Bozdağdan atdığı top mərmisi bu çinarı sındırdı. Amma məhv edə bilmədi. Bir idi, pöhrələnib dörd oldu. Çinarlı şəhəri göyçaylılarla birlikdə türk dünyasının qəhrəman oğlu Nuru paşa və onun başçılıq etdiyi türk ordusu xilas etdi. Bu tarixi unutma. Bu çinarı unutma".

Şəhər sakinləri Lent.az-a deyir ki, bu ağac zamanla deformasiyaya uğrayaraq əvvəlki görünüşünü dəyişib.

"Əvvəl mərminin izlərini daha aydın görmək olurdu. Zamanla itib getdi. Amma lövhə elə son zamanlara qədər burada idi. Bilirsiz də, bura şəhərin ən qələbəlik yeridi, mərkəzdi. Kim hara getsə, yolu burdan düşür. Keçənlər ayaq saxlayıb lövhəni oxuyar, məlumatlanardılar. Çox təəssüf ki, artıq lövhə yoxdur və bilinmir kim hara söküb aparıb".

Görəsən, nə oldu o lövhəyə? Niyə götürülüb, kim götürüb? Yoxsa, daha tarixi xatırlatmağa ehtiyac yoxdur?

Göyçay rayon İcra Hakimiyyətinin humanitar məsələlər üzrə müavini Zivər Zeynalova Lent.az-a açıqlamasında bildirir ki, bu məsələnin onlara heç bir adiyyatı yoxdur.

"O ağacların mühafizəsi və qorunması məsələlərinə Ekologiya və Təbii Sərvətlər Nazirliyi baxır. Biz buna cavab verə bilmərik".

Göyçay rayon İcra Hakimiyyətinin Başçısının Göyçay şəhəri üzrə nümayəndəsi Rəşad Şükürov deyir ki, Göyçay rayonunda 200-ə yaxın qoca çinar ağacı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qorunur.

"Düzdür, əvvəllər həmin ağacın üzərində lövhə var idi. Daha sonra götürüldü. Belə deyirlər ki, ağacın məhz həmin çinar olmadığı müəyyənləşdirilib və buna görə lövhə götürülüb. Amma biz hamımız həmin rayonun sakini kimi ağacın tarixi abidə olduğunu bilirik. Bəlkə də onun tarixi abidə olduğunun əsaslı sübutu yoxdur. Onu da deyim ki, 2010-2015- ci illərdə həmin ərazidə, şəhərin mərkəzində bir sıra abadlıq işləri aparıldı. Hovuzlar tikildi. Yəqin ki, həmin vaxtda götürülüb".

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin əməkdaşı Arzu Səmədova isə deyir ki, hər tarixi abidənin üzərinə məlumatlandırıcı lövhənin qoyulması vacib deyil.

"Əvvəlcə həmin ağacın tarixi abidə olub-olmadığı araşdırılmalıdır. Əgər o həqiqətən tarixi abidədirsə, o zaman lövhə qoyulması ilə bağlı qərar haqda düşünmək olar. Amma əvvəllər ağacın üzərində lövhə qoyulub daha sonra götürülübsə, bunun da əsaslı səbəbi var. Belə deyim ki, ölkəmizdə tarixi abidələr çoxdur. Və onların hamısının üzərində də lövhə olmur. Yəni bəzi tarixi abidələrin üzərinə lövhənin yerləşdirilməsi vacib deyil".

Belə çıxır ki, 150 ildən çox yaşı olan bu tarixi ağacın üzərindəki lövhə qeybə çəkilib. Nə gördüm deyən var, nə də götürdüm. Niyə götürüldüyü də elə tarixi sirr olaraq qaldı.

Qeyd edək ki, 1918-ci ilin mart-iyun aylarında Nuru Paşanın rəhbərliyi ilə Türk Qafqaz İslam Ordusunun əsgərləri azərbaycanlı silahdaşları ilə birlikdə Göyçay ərazisində erməni-rus birləşmələrinin hücumunun qarşısını alıb. 1918-ci il iyunun 27-dən iyulun 2-dək Göyçay ərazisində gərgin döyüşlər baş verib. Göyçayın Qarabaqqal kəndinin ərazisi bir həftə davam edən ölüm-dirim savaşının dönüş nöqtəsi olub. Türk və azərbaycanlı əsgərlər daşnak erməniləri və bolşevik rusları məhz Göyçay ərazisindəki döyüşlərdən sonra geri çəkilməyə məcbur edərək, onları Bakıyadək qovublar. 1918-ci il sentyabrın 15-də Bakı erməni və rus birləşmələrindən azad olunub.

***Lamiyə Məmmədova***

# “CƏNNƏTDƏKİ İLK AD GÜNÜN MÜBARƏK - ELVİN...!”

## Qədim Zaqatala diyarından olan ilk şəhidin 20 yaşı bitdi...

***...Sanki hər gün səmada şəhidin əzizləri ilə ağlayırdı. Şıdırğı leysan yağırdı... 5 may 2021 -ci il tarixində... Zaqatala rayonunun İkinci Vətən Müharibəsinin ilk şəhidi olan Elvin Azər oğlu Qədirovun şəhadətə qovuşandan sonra ilk ad günü idi... 20 yaşı tamam olurdu həmin gün Elvinin... valideynləri, əzizləri, yaxın qohum-əqrəbası, dost - tanışları, təhsil aldığı məktəbin müəllimləri Vətən fədaisinin Yeni Suvagil kənd qəbristanlığındakı qəbri üstünə toplaşmışdı...***

Elə həmin gün gur yaz yağışının gur damcıları şəhidin qəbrini zayarətə gələnlərin, şəhid nənəsinin, anasının, şəhid bacısının, onu yad edənlərin göz yaşlarına qarışmışdı... Şəhid qəbrinin üstü sanki al xallıyla bəzədilmişdi... Elə bil qızıl güllərdə 19 yaşında işğal altında olan torpaqlarımızın erməni mənfurlarından təmizlənməsində, Vətənimizin bütövlüyü uğrunda həlak olan Elvin Azər oğlu üçün ağlayırdı... Qəm xəyallarından ayrılmamış şəhidin anası Zəminə xanım 27 sentyabr 2020 -ci il tarixindən əyninə geydiyi qara libasını oğlu Elvinin ad günündə sanki dəyişmək istəyirdi...

...Oğlu üçün xonça da, tortlar da, gül çələngləri də hazırlayıb düzmüşdü oğlunun qəbri üstünə, əbədi evinə gətirmişdi onları. Baş daşını qucaqlayıb: “Dur bala, dur oğlum, dur Elvin...sənin ad günündür, gör kimlər gəliblər... niyə danışmırsan, niyə susursan?...Axı, səni əsgərliyə yola salanda demişdin ki, ana nigaran qalma, hərbidən sağ-salamat qayıdacağam... ad günlərini bir yerdə keçirəcəyik, hələ göz altı etdiyim qıza nişan xonçaları da aparacaqsınız. Bəs, nə oldu - Elvin?... niyə bizi göz yaşlarına qərq etdin? Sənə qıyan o düşmənin də, müharibə edənlərin də anaları, əzizləri ağlar qalsınlar, bizim kimi mənim şəhid balam - Elvin! Ucalığa yüksələn gözəl balam...” deyən Zəminə ana astaca pıçıldayırdı...

...Şəhidin nənəsi İsmət ana isə iki şəhid əzizini - oğlu - Birinci Qarabağ Savaşında qəhrəmanlıqla həlak olan oğlu Akifin və nəvəsi Elvinin qəbirləri arasında gözlərinin yaşını axıda-axıda xəyallara dalmışdı... Şəhidin atası Azər bəy isə həmişəki kimi təmkinlə, səbrlə ürək yanğısı ilə baş verənləri seyr edirdi...

Qardaşları - Akifin qardaşı oğlu Elvin erməni düşmənləri ilə vaxtsız ölümlərinin acısını yaşadan əmisi Abid və bibisi Adilə Qədirovlar əzizlərinə təsəlli verə-verə qəlbləri paralansalarda özlərini daha iradəli, dözümlü aparmağa çalışırdılar...

“...Məktəbimizin fəxri, qüruru, hamımızın sevimlisi olan Elvinimiz ad günün mübarək! Hamımız istəyirdik ki, sənin ad gününü bir Vətən qəhrəmanı kimi sağlığında qeyd edək... Təəssüflənməli deyilik... Çünki, sən əmin Akif Qədirovun qəhrəmanlıq yolunu davam etdirdin. El yolunda, azadlığımız uğrunda, hələ gənc olmasına baxmayaraq yaşıdlarına, gələcək nəsilə nümunə, təkrar-təkrar öyrəniləcək şücaət göstərdin, dərs-təlim kitablarına köçürüləcək... O, ucalığa yüksəldin, düşmənə zərbə vura-vura, həm də qürurluyuq Elvin. Ona görə ki, Azərbaycanımızın ilk şəhidlərindən oldun... Min alqış sənin valideynlərinə, onların qarşısında biz hamımız daim baş əyməliyik, hörmətini - izzətini saxlamalıyıq.

Can əzizləri unutmasınlar ki, şəhid Elvin Azər oğlu Qədirov adı tarixə qızıl hərflərlə həkk edilən xoşbəxt qəhmanlardadır, əmisi Akif kimi...” Zaqatala rayonu Yeni Suvagil kəndi 2 saylı şəhid Akif Qədirov adına tam orta məktəbinin direktoru Cərullah Əhmədov məktəbin məzunu olmuş şəhid Elvin həlak olandan sonra Elvinsiz keçirilən ad günündə onun haqqında ürək sözlərini dedi...

Qəhrəmanımızın qısa ömür yoluna diqqət yetirək. Elvin Azər oğlu Qədirov 5 may 2001 -ci ildə Zaqatala rayonunun Yeni Suvagil kəndində Zəminə xanım və Azər bəyin ailəsində dünyaya göz açıb. O, 2007 - 2018 -ci illərdə Akif Qədirov adına 2 saylı Yeni Suvagil kənd tam orta məktəbində təhsil alıb və oranı müvəffəqiyyətlə bitirib. Bir il ev və təsərrüfat işlərində valideynlərinə yaxından köməklik göstərib. Ailəsindən bildirdilər ki, 209 -cu ilin iyul ayının 28 -də Azərbaycanın Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə gedib. Hərbidə olduğu dövrdə nizam-intizamlı, hərbi tapşırıqları uğurla yerinə yetirib, hərbi təlimlərdə fəal iştirak edib və bir neçə ay ərzində tam hazırlıqlı döyüşçü olub...

Şəhid Elvin Qədirovun bacısı, Yeni Suvagil kənd 2 saylı Akif Qədirov adına tam orta məktəbinin 8 -ci sinif şagirdi Nursel Azər qızı Qədirovanın qardaşı haqqında söylədikləri həyəcansız dinləmək mümkünsüzdür. Bacı üçün qardaşını vaxtsız itirməsi necə ağır dərd, necə ağır kədər, necə yanğı almasını çox yaxşı başa düşürük... Nursel qardaşı ilə bağlı unudulmaz xatirələrini böyük qürurla xatırladtı:

“Qardaşımın nəşi olan tabutu 28.10.2020 -ci il tarixində üç rəngli bayrağa bükülmüş vəziyyətdə həyətimizə gətirilən zaman elə bil hər tərəfə zil qaranlıq çökmüşdü, sanki qaranlıqdan bir ulduz bərq vururdu... Bir onda ayıldım ki, artıq qardaşımı əbədi bir məkana aparılan Bacının ürəyi dözmədi... Nəşi olan tabutun arxasınca qaça-qaça getdim. İnanmırdım ki, onu son mənzilə yola salırdılar...

İzdihamın arasından tabuta çatıb, onu qucaqlamaq istəyirdim. Lakin mümkünsüz idi... Həmin anlarda uşaqlıq xatirələri başımda dolanırdı. Elvinin xasiyyəti böyük qardaşım Akifdən daha fərqli idi... Daha çox ona yaxın idim. Həm oynayırdıq, həm zarafatlaşırdıq, həm də dalaşırdıq. Kiçik yaşlarımdan bəzən ona acıq vermək üçün gah onun oyuncaqlarını dağıdırdım, gah da ki, gizlədirdim. O, isə sakitcə gəlib söz demədən, məni istehza ilə süzüb sakitcə oyuncaqları yığardı. Mənə isə heç nə deməzdi. Elvin mülayim, xoş xasiyyətli, sadə, humanist, sadə qəlbli, xoş xasiyyətliydi. Əmim Akifin şəhid olmasını da o, mənə demişdi, onun göstərdiyi şücaətlərdən danışardı. Qardaşım əmimi böyük fəxrlə yada salardı...

Taleyin bir qismətinə baxın. 25 ildən sonra Elvin qardaşım İkinci Vətən Savaşında qəhrəmancasına şəhid oldu... Qardaşımın şəhadətə qovuşduğunu eşitdiyim andan onunla keçirdiyim hər anımı kino lenti kimi gözümün önündən keçirdim. O anlar artıq xatirlərə çevrildi... Anam və atam onun üçün çox xəyallar qurmuşdu... Anam və atam onun üçün çox xəyallar qurmuşdu... Amma Elvinin öz alın yazısı varmış... Anam artıq şəhid anası oldu... Düşünürdüm ki, bəzi şəhidlərin anaları yoxdur... Qardaşımın anam üçün birgə gətirdiyi böyük şərəflə yanında böyük bir ad gətirmişdi... Böyük qardaşım Akif əsgərlikdən sakitcə gəlmişdi... Anam Elvinin də belə gəlməsini gözləyirdi... Lakin belə qismət olmadı... Yaşamaq yanmaqdır - yaxşı deyiblər... Allah bütün şəhidlərin şəhadətini qəbul etsin, qəbirləri nurla dolsun...

**Qəhrəman qardaşım, şəhid qardaşım,**
**Qarşında baş əyir bütün bir millət.**
**Sən elə bir zirvə fəth eyləmisən,**
**Sənə bir ad yaraşır... əbədiyyət...”**

İkinci Qarabağ Savaşının ilk ağır günləri idi. Azğın düşmən xaincəsinə hərbi mövqelərimizi, yaşayış məntəqələrimizi, toplardan, minamyotlardan, ağır arteriya qurğularından ardıcıl atəşə tutmuşdu, sanki cəbhə bölgəsinə od ələnmişdi...

Müharibənin ilk günləri müharibədə qırğın vəziyyət yaranmışdı. Biz tərəfdən itkilərimiz çox idi. Hər gün cəbhədən sarsıdıcı, kədərli xəbərlər eşidilirdi, artıq oradan üçrəngli bayrağa bürünmüş, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhid tabutları gətirilirdi.

Müharibədən başlamazdan əvvəl ciddi hərbi təlimlər keçən Elvin və hərbiçi yoldaşları ilk günlərdən cəbhənin Ağdam bölgəsində mövqelərimizi qoyuyurdular. Ermənilərdə, məhz həmin istiqamətlərdən hücumları daha da aktivləşdirmişdirlər. Onlar hücumlara ara vermişdilər, vəhşi düşmən susdurmaq və məhv etmək üçün ölüm-dirim mübarizəsinə girişmişdilər...

Lakin... 27 sentyabr 2021 -ci il tarixdə, erməni azğınlarının xaincəsinə hücumu nəticəsində Ağdam cəbhəsində xeyli sayda hərbiçilərimiz şəhid oldular və yaralandılar... Elə həmin gün gənc döyüşçümüz, cəsur atıcı hərbiçimiz Elvin Azər oğlu Qədirov həmin döyüş zamanı düşmənin atdığı mərmilərdən ağır yaralanaraq, şəhadətə qovuşdu. Xatırlamaq yaxşı olar ki, Birinci Qarabağ Savaşında da Zaqatala rayonundan birinci şəhid rayonun Yeni Suvagil kəndindən Qədirov Akif Qədir oğlu qəhrəmancasına həlak olmuşdur. O, da Qədirovlar ailəsinin üzvü idi... Bu Savaşda da uşaqlıqdan Vətənpərvər ruhda böyüyən Elvin düşmənlə qısa müddətdə döyüş əməliyyatlarında iştirak edərək, Vətənimizin bütövlüyü uğrunda qəhrəmanlıqla həlak olan Zaqatala rayonunun ilk şəhidi kimi adını tarixlərə yazdı... qızıl hərflərlə...

..28 sentyabr 2020 -ci il tarixində isə Elvini böyük izdihamın, al bayraqların müşayiəti ilə Yeni Suvagilin igid oğulları Azərbaycanımızın xilaskarı kimi kənd qəbristanlığında son mənzilə yola salındı... Onu kənddən Birinci Qarabağ Savaşında şəhidlik zirvəsinə ucalan qəhrəmanların, şəhid əmisi Akif Qədirovun (Zaqatala rayonu Yeni Suvagil kənd 2 saylı tam orta məktəbi Ağdam rayonunun Qalayçılar kəndi uğrunda gedən döyüşlərdə həlak olan Akif Qədirovun adını daşıyır. E. M.) yanında dəfn etdilər.

Bəli, Elvin həmin gündən təkcə Azər qardaşımızın, Zəminə xanımın deyil, bütün qəlbi Vətən sevgisi ilə döyünən Azərbaycan xalqının oğlu, əzizi oldu... Belə qəhrəmanlar, şəhidlər ölmürlər, daima ürəklərdə yaşayırlar... Elvin və digərləri Zaqatalanın daha 32 şəhidi kimi...

...İndi Yeni Suvagil kəndindəki, Şəhidlər Xiyabanındakı şəhid qəbirlərinin sayı artıb...

İkinci Vətən müharibəsində daha iki qorxmaz, düşmənə qarşı göz dağı verən, özünü döyüşçü yoldaşlarını xilas etmək üçün əl qumbarasının üstünə atan Fəqan Vahid oğlu Məmmədov və Xüsusi Təyinatlıların fədakar döyüşçüsü olmuş Ehtiram Teyyub oğlu Əhmədov da həmin şəhidlərin sırasında uyuyurlar. Hər gün onlarla, bəzən də yüzlərlə insan onları ziyarət edirlər. Qəbirlərinin üstünə tər, al qırmızı gül dəstələri, əklillər əskik olmur... Gələcək nəsillərimizin nümayəndələri isə onların şücaətindən fəxarətlə, qürurla danışırlar, özlərinə örnək sayırlar...

**Bu gün cənnətdəki ilk ad günündür,**
**Ay şəhidim, şəhadətin mübarək.**
**Sən də tanrı dərgahına ucaldın,**
**Cənnətdəki ilk ad günün mübarək!**

Bu dəfə onun əzizləri, sevənləri, ictimaiyyət nümayəndələri, gənclər, məktəblilər qəbrinin üstünə şəhid Elvinin ad gününü, 20 illiyini qeyd etməyə toplaşmışdırlar. Cənnət bağında uyuyan Elvin Qədirovun...

Yenə də ürəkitəi sızıldadan xatirələr, ürək sözləri, qəlbi parçalayan fəryadlar, barəsində söylədikləri ürək sözləri, şeirlər... qəbrin üstünə düzülmüş gül xonçaları və sairə..

Yeni Suvagil kənd Akif Qədirov adına 2 saylı tam orta məktəbinin dil - ədəbiyyat müəllimi, şəhidin əmisi qızı Aysel (Qədirova) Heydərovanın çıxışı isə bir daha onu sevənlərin qəlblərini göynətdi... dedi: “Mən, bu savaşlarda, iki əzizimizi, ciyər paralarımı, əmim Akifi və əmim oğlu Elvini itirmişəm... belə ağır dərdlərə dözmək lazımdır... İradə, səbr... bir tərəfdən isə qürur hissi duyuruq ki, onlar öz adlarınını xalqın, elin xilaskarları kimi tarixə yazdırdılar, qəhrəmanlıq dastanları yaratdılar... unudulmaz hər an xatırlanacaq...

**Şair Nəbi Xəzri demişkən:**
**Mən onları anaların günəşlə tən tuturam,**
**Onlara gül çələngi məhəbbətdən tuturam.**
**Oğulları döyüşdən geri dönməyənləri,**
**Fəqət ürəklərində ümid sönməyənləri.**
**Bir gecədə saçını ağappaq hörənləri,**
**Bir gözüylə ağlayıb, bir gözüylə gülənləri,**



**Keçmiş qanlı davadan hər gün söz salanları,**
**Qəlbimiz olanları ləkəsiz qalanları,**
**Övlad məhəbbəti ilə isitmək istəyirəm.**
**Ürək hərarəti ilə isitmək istəyirəm...**

Əzizlərimizin adından, nəslimizin adından əyilməz analara əyilmək istəyirəm!”

Elvin orta məktəbdə oxuduğu zaman məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edib. Şəhidin atası Azər bəy deyir ki, oğlunun çərəfinə evdə yaradılmış güşədə oyuncaq avtomat silahı saxlanılıb. Elvin məktəb illərində hərbi vətənpərvərlik mövzusunda təşkil olunan tamaşa, şəhnəciklərdə Azərbaycan döyüşçüsü rolunu oynayıb... Tamaşada həmin avtomatla xeyli sayda düşməni öldürdükdən sonra... özü də torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına həlak olur... Qismətə bir baxın... Elvin real həyatda da hərbi xidmətdə olarkən də tamaşada olduğu kimi erməni düşmənlərinə qarşı döyüşərək Vətən yolunda şəhid olmuşdur.

... Bəli, oyuncaq avtomat silahdan da göründüyü kimi Elvində Vətənə qarşı sevgi hələ məktəb yaşlarından olub.

Şəhadət kürsüsünə yüksələn Vətən fadisi belə gənc yaşında hünərvərlik, şanlı, unudulmaz bir dastan yaratdı. Əhsən, el oğlumuza...!!

...Cəmi 19 il ömür sürmüş, şəhid el oğlumuz Elvin Azər oğlu Qədirov 2018 -ci ildə Zaqatala rayonu şəhid Akif Qədirov adına Yeni Suvagil kəndindəki 2 saylı tam orta məktəbini bitirdi... Bir il ailəsinin yaxın köməkçisi oldu. 2019 -cu il 28 iyul tarixində Milli Ordu sıralarına həqiqi hərbi xidmətə çağırıldı. Vicdanla, qeyrətlə, namusla, əsil kişi kimi hərbi xidmətini yerinə yetirdi... və 27 sentyabr 2020 -ci il tarixdə İkinci Vətən Müharibəsindəki ilk döyüşlərdə şəhidlik zirvəsinə ucaldı, zəfər qələbəsinə böyük töhfə verdi...

...Əsil Vətəni, analarımızın, bacılarımızın namusunu, qeyrətini qoruyan xilaskar hərbiçi necə olar? Əlbəttə ki, Elvin Azər oğlu Qədirov kimi...

...Bir daha şəhidin valideynlərinə - qəhrəmanımızın atası Azər bəyə, anası Zəminə xanıma, qardaşı Akifə, bacısı - tez-tez qardaşı barədə uşaqlıq xatirələrini danışan Nurselə və əzizlərinə can sağlığı, möhkəm təpər və gələcək ömür yollarında ancaq xoş günləri yaşamağı arzu edirəm.

...Bir daha deyirəm ki, Ruhunuz şad olsun, şəhid el oğlumuz...

...Cənnətdəki ilk ad günün mübarək olsun - Elvin!

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Məmmədbağır Bağırzadənin oğlu: “Anam atamın başqa qadınla yaşamasına razıydı”

***“Unikal” Kulis.az-a istinadən xanəndənin oğlu Rahim Bağırzadə ilə müsahibəni təqdim edir.***

***- Məmmədbağır bakılı idi. Amma onda bakılılara xas xüsusiyyətlər o qədər də nəzərə çarpmırdı.***

- Atam ansamblının adını ”Dilkeş” qoymuşdu, evdə də daha çox ərəb, türk kanallarına baxırdıq. Bir dəfə bunların səbəbini atamdan soruşanda mənə dedi ki, mən musiqilərimi yazanda, onları ifa edəndə elə bilirəm ki, Kərkükdəyəm. Orda yaşayan azərbaycanlıların keçirdiyi hissləri keçirirəm. Atam uzun illər ordakı insanların sevgisiylə, oraları görmək xiffəti ilə yaşayıb. O, dünyasını dəyişəndən sonra arxiv idarəsində işləyən tanışımızdan xahiş etdim ki, bizim nəslin şəcərəsini araşdırsın. Məlum oldu ki, atamın ulu babaları İraqda, Kərkükdə doğulublar. O, öz şəcərəsini genetik olaraq hiss etmişdi. Bu gün atamla bağlı bir çox şeylərə heyfislənirəm. Mənim ağlıma da gəlməzdi ki, o, həyatdan belə tezliklə köçəcək.

***- Geyimə qarşı çox həssas, tələbkar adam olub.***

- Anam rəhmətə gedəndən sonra atamın yanında ən çox olan adam mən olmuşam. O, geyiminə və xarici görünüşünə qarşı çox tələbkar idi. Hər yer üçün ayrıca kostyumları olurdu. Aldığı kostyumların pencək ciblərinin tikişlərini sökdürməzdi ki, birdən pencəyin cibləri sallanar, efirdə səliqəsiz görünər. Hətta bir dəfə uzaq yol gedib dostları ilə görüşəndə dostlarından biri zarafatla demişdi ki, Məmmədbağır bütün yolu deyəsən ayaqüstü gəlmisən, paltarında bircə qırış da yoxdur. Adamlar onun səliqəsinə heyrət edirdilər. Bəzən biz eyni vaxtda eyni libaslar alırdıq. Amma paltarları əynimizə geyinəndən sonra onunla mənim görünüşümün arasında yerlə-göy qədər fərq olurdu.

***- Bayaq dediniz atanızla bağlı heyifsləndiyiniz məqamlar olub. Nələrə görə heyifslənirsiniz?***

- Atam evdə İran muğamlarını, ərəb, fars musiqilərini çox gözəl ifa edirdi. Amma efirdə heç vaxt o mahnıları oxumadı. Ona heyifslənirəm ki, nahaq onun evdəki ifalarını, zəngulələrini kameraya çəkməmişəm. Özü razı olmasa belə gərək gizlincə həmin ifaları kamerayla çəkərdim. Bir dəfə özünə dedim ki, efirlərdə, səsyazma studiyalarında bu mahnılardan ifa et. Dedi, sən nə danışırsan? Adamlar var, gözləyirlər ki, mən İran musiqiləri ifa edim, ondan sonra məni topa tutsunlar.

***- O vaxtlar musiqiyə İran boğazları, çalarları gətirənləri bərk tənqid edirmişlər.***

- Məmmədbağır Bağırzadə bəlkə də Azərbaycanda yeganə müğənnidir ki, Qarabağın bütün bölgələrində onu çox sevirdilər. Təsəvvür edin ki, atam Ağdamda Yaqub Məmmədovun qarşısında toy aparırdı. Onun qarşısında ifa etmək hər adamın işi deyildi. Amma atamın özünü aparması, mədəniyyət və musiqidə köhnə yolla getməsi onu sevdirmişdi. Rəhmətlik Səxavət Məmmədovla əsgərlik dostu olmuşdular. Atamın toyunda da Yaqub Məmmədov, Arif Babayev, Səxavət Məmmədov oxuyub. Yaqub Məmmədovun ildə bir dəfə kəhrəba üzüm yetişəndə bizə qonaq gəlməsi yadımdadır. Babamın onun üçün açdığı süfrələrin tayı bərabəri olmazdı.

***- Məmmədbağırhəm də çox kövrək adam olub...***

- Həddindən artıq kövrək idi. O, ”Şur” muğamını çox sevirdi. Hərdən hamımız süfrə arxasında əyləşib televiziya kanallarında gedən musiqilərə qulaq asırdıq. Hansısa musiqi və ya bir alətin səsi onun ürəyinə toxunanda görürdük ki, tikəsini uda bilmir, ağlayır.

***- İlk dəfə dondurma yeyəndə də ağlayıb...***

- Dondurmanı ilk dəfə əlli bir yaşında yeyib. Yadıma gəlir, bacımın yaşı az idi. Atam evə zəng vuranda bacım ona dedi ki, gələndə ona dondurma alsın. Onda anam təzə rəhmətə getmişdi. Atam bir neçə ”karobka” cürbəcür dondurma alıb gətirdi. Bacıma dedi ki, qızım ürəyin nə qədər istəyir ye. Sonra o, özü də bizə qoşulub ikisini birdən yedi. Mən onda məətəl qaldım. Çünki atam səsinə görə heç vaxt soyuq şeylər yeməzdi. Bizim başımız dondurma yeməyə qarışanda gördük atam ağlayır. Bacım ondan ağlamağının səbəbini soruşanda atam onun başını sığallayıb dedi: ”Mən siz yaşda olanda pulum yox idi dondurma almağa, sonralar da sənətim



imkan vermədi”.

***- Ümumiyyətlə, ona nələr daha çox toxunurdu?***

- Həyatda yaşadığı çətinliklər sonralar ona çox təsir edirdi. Atam tək adam olub. Ona nə ata, nə əmi kömək etməyib. Hətta öz kəndçilərindən belə köməyi olmayıb. O, nə edibsə, hamısını öz zəhməti sayəsində edib.

***- Sizinlə bir dost münasibəti də vardı.***

- Əvvəllər anamla dostluq edirdim. Anam 44 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişdi. O, dünyasını dəyişəndən sonra bütün məhəbbətimi atama saldım. Anamın axırıncı cümə axşamında mənim qızım dünyaya gəldi. Atam ağlaya-ağlaya ona anamın adını qoydu, amma hamımızdan xahiş elədi ki, heç vaxt onun yanında qızımı öz adı ilə çağırmayaq.

***- Atanızla ananız bir-birlərini sevib ailə qurmuşdular?***

- Atamla anam qohum olublar. O, anamı həddindən artıq çox istəyirdi. Pis çıxmasın, mən hələ onun qədər qadınını çox sevən kişi görməmişəm. Ancaq anam da həmin sevgiyə, istəyə layiq qadın olub. Atamın bütün şıltaqlıqlarına dözməyi bacarırdı. Atamdan anama o qədər sözlər gəlib deyirdilər ki, onun yerinə başqası olsaydı, bəlkə də bacarmazdı. Ona görə də anam rəhmətə gedəndən sonra atam deyirdi ki, özümü öldürəcəm, gedim görüm o dünyada Naibə neynir. Biz yalvarıb yaxarırdıq ona ki, elə şey eləməsin.

***- Ananızdan sonra intihar etmək istəyirdi?***

- Bəli, buna cəhd edirdi. Anamdan sonra onun psixoloji vəziyyətində dəyişikliklər olmuşdu. Tez-tez deyirdi ki, daha yaşamaq istəmirəm, ölmək istəyirəm.

***- Atanızın xəstəliyi də qəfil olmuşdu. O vaxta qədər səhhətindən hansısa şikayətləri olurdu?***

- Atamın xəstəliyi elə anamla başladı. Anam xəstəxanada müayinə olunandan sonra həkim atamı çağırıb ona anamın xəstəliyinin şiddətləndiyini, çox yaşamayacağını xəbər verdi. Atam həkimlə danışanda qarnını qucaqladı, yerində ləngər vurdu. Bir dəqiqənin içərisində onun rəngi sapsarı oldu. Dedi ki, bu ölsə, mən neyləyəcəm? İkinci dəfə isə bacım uşağı ilə pilləkəndən yıxılanda mədəsindən möhkəm sancı tutmuşdu. Onda atam bərk qorxmuşdu. Qapımıza çatanda bizim qışqırığımızı eşitmişdi, elə bilmişdi ki, kimsə bizə hücum edib. O vaxtı qorxulu dövr idi. Atam toydan küllü miqdarda pulla çıxırdı. Hamı deyirdi, Məmmədbağır hər gecə evinə yeşiklə pul aparır. Mən maşın həvəskarı idim. Atam bahalı maşınlar almağıma razı olmurdu. Deyirdi, olmaz, kənd yeridi, hamının diqqəti üstümüzdədir.

***- Nardarana bağlı adam idi...***

- Nardarana da, oranın adətlərinə də bağlıydı. Bir dəfə Norveç də daxil olmaqla bir neçə xarici ölkəyə uzun müddətli qastrola getmişdi. Orda bığlarını qırxmışdı ki, təzələnsin. Qastroldan gələndən sonra böyük yeznəsi onunla görüşmək istəyir. Yadıma gəlir ki, atam əlini dizinə çırpıb dedi ki, indi onun yanına bığsız necə gedəcəm? Görüş vacib olduğundan məcbur olub getmişdi. Amma əvvəldən axıra qədər bığının üstündən dəsmalı götürmədi, yalandan dedi ki, dişimi çəkdirmişəm.

***- Rahim bəy, Zöhrə Abdullayeva ilə atanızın sevgili olması haqqında söz-söhbətlər uzun müddət səngimədi. Ancaq atanızın ölümündən sonra verilişlərin birində Zöhrə xanım sizin yanınızda yayılan şaiyələri təkzib etdi. Hətta ananızın sağlığında atanızın başqa bir qadınla uzun illik münasibəti olduğunu dilə gətirdi. Sizsə bu fikrə heç bir etiraz etmədiniz. Belə çıxır ki Zöhrə xanım haqlı idi?***

- Atamın həyatında başqa qadın olub. O, anamın sağlığında olub. Həmin qadın atam xəstə olduğu dövrlərdə də onun zəhmətini çox çəkib. Yəni belə bir fakt olub. Zöhrə xanım haqlı olduğu üçün mən heç bir etiraz edə bilmədim.

***- Bəs ananız heç bir etiraz etməmişdi?***

- Mən bayaq ona görə deyirdim ki, mənim anam dözümlü qadın olub. O, atamla bağlı hər şeyə qatlaşıb. Həm də bilirsiniz, o dövrdə gücü, imkanı olan kişilər üçün iki ailə saxlamaq qəbahət hesab olunmurdu. Əsas o idi ki, kişi öz ailəsinə yaxşı baxsın.

***- Məmmədbağırdünyasını dəyişəndən sonra dostları tərəfindən sizə olan münasibət əvvəlki kimi qaldı, ya etibarsızlıqlar gördünüz?***

- Mənim müəyyən şəxsi problemlərim oldu. Bu da öz günahlarım və tamahım ucbatından baş verdi. Düzdür, mən onun adını doğrultmaq üçün həmişə çalışıram. Amma həyatda hər şey ola bilər. Atamın dostları tərəfindən etibarsızlıq olmadı. Amma musiqiçilər, müğənnilər tərəfindən vəfasızlıqlar gördüm. İndi də görürəm. Amma misal üçün onun ən yaxın dostlarından biri Zöhrə xanım olub. Həqiqətən də kişi kimi qadındır. Bizim evə də kişi kimi gəlib gedərdi. Atam hərdən ona ”qədeş” də deyirdi. Bir dəfə Zöhrə xanım atama dedi ki, Məmmədbağır, mən sənin evinə, xanımın yanına alnıaçıq gəlib-gedirəm, onun yanında gözüm kölgəli deyil. Mən sözün əsl mənasında atama qarşı sədaqəti Zöhrə xanımda, Cavanşir Məmmədovda gördüm. Bu günə qədər atamın mahnılarından bir qəpik də pul qazanmamışam. Amma müğənnilərdən bircə xahişim var ki, atamın mahnılarını ifa edəndə onun adını qeyd etsinlər, bir də onun üslubuna toxunmasınlar. Hər halda onun öz üslubu uğurlu alınmışdı.

1973-cü ildə atam yaradıcılığının zirvəsini yaşamışdı. O vaxtın çörək satıcıları kaset satıcılarına deyirmişlər ki, Məmmədbağırın valları o qədər çox satılır ki, heç biz o qədər çörək satmırıq. Atam dəfələrlə toylardan qanıqara gəlirdi. Onun səsini yazmaqdan ötrü toyda adamlar bir-biri ilə dava edirmişlər, toy çadırını dağıdırmışlar ki, ağacların başından atamı görə bilsinlər. Amma atamın düşmənləri də vardı.

***- Kimlər idi?***

- 1975-76-cı illərdə atam ölkənin ən məşhur müğənnisi hesab olunurdu. Həmin dövrdə ”Kirpi” jurnalında ”Məmmədbağır, bir də bağır” başlıqlı yazılarla onu tənqid eləməyə başladılar. Bunu da o vaxtkı bədii şura qəsdən elətdirirdi. Ələkbər Tağıyev də o dövrdə həm bədii şuranın üzvlərindən biri, həm də hər şeyə gücü çatan adam idi. O, atama mane olan insanlardan birincisi idi.

***- Səbəb nə idi?***

- Səbəb atamın gecə toylarda oxuduğu mahnıların səhər bütün ölkəyə, hətta İrana, orta Asiya ölkələrinə qədər yayılması idi. Atamın irəli getməsi Ələkbər Tağıyevin diqqətindən yayınmamışdı. Onun həmin illərdə qılıncının dalı da kəsirdi, qabağı da. Mən istəmirəm kiminsə ürəyinə toxunum. Ələkbər müəllimin oğlu ilə dostuq. Amma mənim də yaşım az deyil, istəmirəm nə zamansa atama qarşı olunanlar ürəyimdə qalsın. Bilmirəm, birdə nə vaxtsa bu söhbətləri danışa biləcəm, yoxsa, yox.

***- Yəni demək istəyirsiniz ki, Ələkbər Tağıyev Məmmədbağırı irəliləməsinin qarşısını almışdı?***

- Bəli. Ələkbər Tağıyev görür ki, onun mahnılarını nə qədər məşhur müğənnilər oxusa da, Məmmədbağırın şöhrətini ötüb keçmir. Mahnıları o qədər məşhurluq qazanmır. Belə olan halda o, atama xəbər göndərir ki, onun bəstələrinə də müraciət eləsin. Atam isə onun təklifindən imtina edir. Deyir, mən ancaq öz mahnılarımı oxuyuram. Ələkbər müəllim də deyir ki, mən nə qədər sağam, Məmmədbağır nə radioya çıxa biləcək, də efirə.

***- Bu təzyiqlər nə qədər davam edir?***

- Bir ilə yaxın. Yəni ”Kirpi” jurnalında çıxanlarda və digər məsələlərdə Ələkbər Tağıyevin əli vardı. O, öz sözünü başqalarına dedirtdirib özü isə kənardan baxa bilən adam idi. Mən bilirəm ki, hansı bəstəkarlar onun dediyi ilə oturub-dururdular, onun sifarişi ilə atamı vurmağa çalışırdılar.

***- Amma sonralar MəmmədbağırƏləkbər Tağıyevin mahnılarını ifa edib.***

- 1977-ci ildə Ələkbər Tağıyev elə bir adamla bizə gəlir ki, atam ondan sonra onun təklifini qəbul edir. Ələkbər müəllim atama deyir ki, sən hər gün toylarda oxuyursan, bu sonra sənin üçün nöqsan olacaq. Sən uçuruma doğru gedirsən. Əgər mənim mahnılarımı oxumaq istəmirsənsə, onda başqa böyük bəstəkarların mahnılarını oxu. Bu söhbətlər də elə vaxtlara təsadüf edir ki, artıq atamın getdiyi kişi toylarında davalar çoxalır, adamlar yaralanır və.s. Hətta o dövrdə atam sosializmə zidd mahnılar oxuduğu üçün üç günlük həbs də olunur. Elə Ələkbər Tağıyevin vasitəçiliyi ilə atam həbsdən azad olunur. 1977-ci ildən atam artıq kişi toylarını tərgidir, ancaq kompaniya olan məclislərə gedir. İlk dəfə efirə Ələkbər Tağıyevin ”Azərbaycan oğluyam” mahnısı ilə çıxır. Onda da efirin Gülağa Məmmədov, Akif İslamzadə, Hüseynağa Hadıyev, Zaur Rzayev kimi kralları vardı. Ancaq atam orda da öz yerini tapa bilir. Yəni Ələkbər Tağıyev o vaxtı atamın istedadının toylarda itib-batmasının qarşısını alır. Ölən gününə qədər onun adı atamın dilindən düşmədi.

***- Rahim bəy, atanızın bacılarınıza qarşı hansısa mühafizəkarlığı olub?***

- Bacılarım məktəb oxumayıblar. Yəni hər ikisini səkkizinci sinifdən çıxarıb. Üç il o, qızlarının heç birini məktəbə getməyə qoymadı. O vaxtı dövr pis idi. Atam da çöldə-bayırda çox şeylər görürdü, özü də dəhşətli dərəcədə qısqanc adam idi. Həmişə mənə deyirdi ki, həyatda iki şeydən çox qorxuram: bir avtomobil qəzasından, bir də ailəmin ləkələnməsindən. Nə vaxtsa mən olmasam, ailəmdə namus söhbəti olsa, qəbirdə gorum çartlayar.



# Uşağın cinsiyyəti daha erkən öyrənilə bilər

***Körpələrin cinsiyyəti daha erkən öyrənilə bilər.***

4D ultrason körpənin ana qarnında hərəkətlərinin izlənildiyi bir texnologiyadır. 4D ultrason sayəsində körpə ana qarnında görünür. Eyni zamanda, anlıq görüntülər ilə ana qarnındakı körpə video kimi izlənilə bilər. Beləliklə, valideynlər körpənin gülümsəməsi və əsnəməsi kimi ilk hərəkətlərini izləyə bilərlər. Həmçinin bu texnologiya sayəsində uşaqda hansısa problemin olub-olmaması əvvəlcədən araşdırıla bilər.

**Narahatlıqlar azalır, daha rahat bir hamiləlik keçirirlər**

4D ultrasonun əslində bir çox faydaları vardır. Ailələr xüsusən uşağın kimə bənzədiyi ilə çox maraqlanırlar. Bununla yanaşı valideynlər uşaqları gördükləri zaman narahatlıqları azalır və daha rahat hamiləlik keçirirlər.

**Uşağın gerçək görüntüsü doğmadan bəlli olur**

4D ultrasonla uşağın inkişafı, dovşan dodaq və damaq, qol və ayaq anomaliyalar, çoxlu hamiləlik və s. erkən aşkarlana bilər.

**4D utrason hansı ayda edilə bilər?**

4D ultrason ilə körpənin hərəkətlərinin ən yaxşı izlənildiyi zaman 11-13-cü ilə 18-22-ci həftələrdir. Ultrasonun anaya və ya körpəyə hansısa zərəri yoxdur.

# Kimlər koronavirusu iki dəfə keçirir?

***RUDN Universitetinin Yoluxucu Xəstəliklər kafedrasının dosenti Sergey Voznesenski COVID-19-a yenidən yoluxma riskinin səbəblərini açıqlayıb. Onun sözlərinə görə, bu, oxşar immun çatışmazlığı və ya xroniki xəstəlikləri olan insanlarda olur.***



Milli.Az Rusiya mətbuatına istinadən xəbər verir ki, ekspertin sözlərinə görə, təkrarlanan hallar ola bilər, amma nadirdir.

"Bu, ya bir növ immun çatışmazlığı olan, ya da səhv tətbiq olunan peyvənd sxemi olan insanlarda, ya da bəzi digər xroniki xəstəlikləri olan insanlarda müşahidə olunur" , - "RİA Novosti"yə Voznesenskiyə bildirib.

Mütəxəssis eyni vaxtda koronavirus və qripə yoluxma hallarının qeydə alındığı insanların digər xəstələrə nisbətən 2,5 dəfə çox öldüyünü söyləyib. Üstəlik belə hallar yanaşı xəstəlikləri olan yaşlı xəstələrdə müşahidə olunur.

# Günəş şüalarının faydaları və zərərləri

***Günəş şüalarından az miqdarda və doğru zamanlarda istifadə etsəniz görmə organınızda (gözlərdə) günəş şüalarından çox müsbət təsir ortaya çıxar. Günəş şüaları depressiyanın qarşısını alır***

Günəş şüalarının psixologiyaya yaxşı təsir etdiyi və depressiyaya qarşı da faydalı olduğu sübut edilmişdir. Günəş şüaları D vitamini səviyyəsini artırır. Bədənimiz üçün son dərəcə əhəmiyyətli olan D vitaminini qida ilə almaq çox çətindir. Ya dərman preparatıyla alınır ya da günəşdən. Ən sağlıqlı olanı günəşdən alınan D vitaminidir. Gündəlik olaraq səhər saatlarında saat 10-a qədər və 16:00-dan sonra olan günəş işığında 15-20 dəqiqəlik ovuc içlərini günəşə doğru tutsanız bədəninizin yetəri qədər D vitamini ilə təmin etmiş olacaqsınız. D vitamini uşaqların böyüməsi üçün olduqca təsirli bir vitamindir. Yalnız uşaq deyil, böyüklər üçün də son dərəcə əhəmiyyətlidir. Sümük zədələnmələri və formalaşması üçün olduqca əhəmiyyətlidir.



**Günəş şüalarının zərərləri.**

Təəssüf ki, yanlış zamanda və səhv şəkildə istifadə edilən günəş şüaları ölümcül nəticələr yarada bilir. Sıx görülən dəri xərçənginin ən böyük səbəblərindən biri günəş şüalarıdır. Bu dərhal özünü göstərməz, amma illər keçdikcə dəri problemi meydana gələr və müəyyən bir zaman sonra bu vəziyyət dəri xərçənginə çevrilər. Çox insan solyarinin daha "günahsız" olduğunu düşünür. Lakin solyari üzündən dəri xərçəngi olan insan sayı, normal günəş şüalarından dəri xərçənginə tutulan insan sayı qədərdir. Yəni ikisi arasında heç bir fərq yoxdur, solyari də son dərəcə təhlükəli və dəri xərçənginin yaranmasına səbəb olan bir faktordur.

Yanlış günəş vannası qəbul etmək bədəndə qalıcı günəş ləkələri meydana gəlməsinə səbəb ola bilər. Günəş ləkələrinin səbəbi də bədənin günəş qarşısında çox müdafiəsiz qalması deməkdir.

Günəş erkən yaşlanmanın ən mühüm səbəbidir. Xüsusilə üz günəş şüalarına qarşı çox müdafiəsizdir. Hər zaman üzünüzü günəş şüalarından qorumalısınız.

# Dəri xərçəngi nədir?

***Onkoloji xəstəliklər sırasında ən çox rastlaşılan dəri xərçəngi 3-cü yerdədir. Dəri xərçəngi əsasən bədənin açıq hissələrində yaranır, 70%-i şişlər isə üz nahiyyəsində inkişaf edir. Bu şişlərin ən "sevimli" yerləri alın, burun, göz ətrafları, gicgahlar və qulaq seyvanıdır.***

**Səbəbləri**

Dəri xərçənginin yastı və bazal hüceyrələrinin inkişafı məlum deyil. Risk faktoru kimi tütün tüstüsü daxil olmaqla həddindən artıq günəş şüası, ionlaşdırıcı radiasiya, eləcə də, dəriyə düşən kimyəvi kanserogen təsiri göstərilə bilər. Xəstəliyin çoxalma və inkişafı yaş həddinə görə ehtimal olunur. Qadınlar və kişilər bu xəstəliyi eyni tezlikdə keçirirlər. Risk faktorlarına zəifləmiş immun sistemini də göstərmək olar, hansıki bu da QİÇS xəstələrində baş verir.

**Əlamətləri**

Formasından asılı olaraq dəri xərçəngi səthi eroziya, qabarcıq və düyün şəklində olur. Bəzən əlamət olmadan, bəzən isə qanama və ağrılar olmadan əmələ gəlir.

**Nə edə bilərsiniz?**

Dəri səthində şübhəli elemetlər gördüyünüz halda dermotoloqa müraciəti ləngitməməyə çalışın. Ehtiyac olduğu halda həkim-onkoloqa yönləndiriləcəksiniz.

**Həkim nə edə bilər?**

Dəri xərçənginin diaqnozu dərinin şübhəli hissələrində histoloji müayinə aparılaraq qoyulur. Xərçəngin müalicəsi əsasən cərrahi yolla aparılır. Bu şişlərin klassik yolla kəsimi, krioterapiya və yaxud da elektroaqulyasiyadır. Əlavə üsul kimi bəzən də şüa terapiyasından istifadə olunur. Erkən diaqnoz xəstəliyin proqnozlaşdırılması üçün faydalıdır.

**Profilaktikası**

Dəri xərçənginin qarşısının alınması üçün dəriyə fiziki və kimyəvi kanserogenlerin dəriyə təsirini azaltmaq lazımdır (siqaret tüstüsü, günəş şüaları, ultrabənövşəyi şüalar). Kanserogen tərkibli maddələrlə təmasda olduqdan sonra şəxsi gigiyenaya diqqət etmək, müntəzəm olaraq qidalandırıcı və günəşdən qoruyucu kremlərdən istifadə etmək lazımdır. Dəri xərçənginə irsi meylli olan şəxslərə isə müntəzəm olaraq onkolo müayinəsinə getmək tövsiyyə olunur.



# İmmuniteti yüksəldən və stressi aradan qaldıran qidalar

**1. Badam.**

Tərkibi Omeqa 3 yağı ilə zəngindir. O immun sistemi möhləmlətmək qabiliyyətinə sahibdir. Tərkibindəki E vitamini sayəsində badam antioksidant təsirə malikdir. Belə ki, E vitamini orqanizmdə olan zərərli sərbəst radikalların çoxalmasının qarşısını alır. Badamın tərkibində olan fosfor, kalium, maqnium, kalsium və bir çox mineral maddələr sinir sistemini möhkəmləndirir və stressin qarşısını alır.

**2. Sarımsaq.**

Bütün virus xəstəliklərinin sağalmasında yardımçı olur. Maddələr mübadiləsini yaxşılaşdırır, həzm sistemini normallaşdırır. Stressi aradan qaldırmaqla yanaşı sinir sistemini də gücləndirir. Sarımsağın tərkibi C, D, B qrup vitaminlərlə və faydalı minerallarla zəngindir.

**3. Brokkoli kələmi.**

Güclü immunitet artırıcı təsirə malikdir. Tərkibi sink, selen, A, C, D vitaminləri ilə zəngindir. Zərərli maddələrin və şlakların orqanizmdən xaric olunmasında yardımçı olur. Sinir sistemini möhkəmləndirməklə yanaşı stressi də aradan qaldırır.



**4. Dəniz balığı.**

Dəniz balığı yağ turşuları, Omeqa3, zülallar və aminturşularla zəngindir. Tərkibində olan A, B, E vitaminləri immun və sinir sistemini möhkəmləndirir.

**5. Turp.**

Turpun tərkibi orqanizmin ümumi müqavimətini yüksəldən mineral və vitaminlərlə zəngindir. O həzm sistemini normallaşdırır, bağırsaqdakı qazları çıxartmaqla yanaşı, bağırsaq fəaliyyətini yaxşılaşdırır, mədə üçün mikrob və bakteriyaları təmizləyici təsirə malikdir. Turp öddaşı xəstəliyindən əziyyət çəkən xəstələrə faydalı təsir göstərir. Belə ki, turpun böyrək və öddaşlarının əridilməsində rolu olduğu dəfələrlə öz sübutunu tapmışdır.

**6. Alma.**

Alma həzmi yaxşılaşdırır, bağırsağın yaxşı işləməsinə yardım edir. Bu səbədən də alma bağırsaqdakı möhtəviyyatla birlikdə, bağırsaq mikroblarının da xaric olunmasında iştirak edir.

**7. Zəncəfil.**

Zəncəfil qədim zamanlardan orqanizm üçün ən faydalı bitki hesab edilib. Onun tərkibində olan vitamin və minerallar orqanizmin immun sistemini möhkəmləndirməklə yanaşı, sağlam şəkildə arıqlamasına yardım edir. İltihab əleyhinə, ağrıkəsici, tərqovucu, bakteriya əleyhinə, tonuslandırıcı vasitə kimi istifadə edilir.

**8. Portağal.**

Portağal nəinki immuniteti qaldırır, o həm də əhval-ruhiyyəni yaxşılaşdırır və depressiyanı aradan götürür. İltihab əleyhinə, antimikrob təsirə və yara sağaltmaq qabiliyyətinə malikdir.

# Ronaldo da gəlir - Stoykoviç, Hacı və Rositski gözləmədə



***Avropa çempionatlarının ən uzunömürlüləri açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) final mərhələlərindəki ilk və son matçı arasında ən böyük müddət olan 4 futbolçunu müəyyənləşdirib.

Mütləq rekord Lotar Matteusa məxsusdur. Qarşıdakı Avropa çempionatında ikinci yerin sahibi dəyişə bilər. AVRO-2004-ün iştirakçısı olan Kriştiano Ronaldo 17 ildən sonra meydana çıxmaq şansına malikdir.

Lotar Matteus (Almaniya) - 20 il 6 gün Onun qitə çempionatının final mərhələsindəki debütü AVRO-1980-ya təsadüf edib. O, 2000-ci ildə də yarışda iştirak etmək imkanı qazanıb.

Draqan Stoykoviç (Yuqoslaviya) - 16 il 12 gün Matteus kimi son matçı AVRO-2000-ə təsadüf edib. Lakin onun ilk oyunu AVRO-1984-də baş tutub.

Georgi Hacı (Rumıniya) - 16 il 10 gün Onun da qitə çempionatı karyerası Stoykoviçlə paralel davam edib. AVRO-1984-ün iştirakçısı 2000-ci ildə də yarışa qatılıb.

Tomaş Rositski (Çexiya) - 16 il 6 gün İlk "üçlüy" üçün sonundu olan AVRO-2000 çexiyalı üçün debütlə yadda qalıb. O, 16 il sonrakı turnirdə də şans qazanıb.

# "Keşlə"nin qapıçısı: "Kimin qalacağını yalnız baş məşqçi bilir"

***"Keşlə" futbol klubunun moldovalı qapıçısı Stanislav Namaşko Azərbaycan kubokundakı qələbəni xüsusi qeyd etməyib.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə 35 yaşlı qolkiper ölkəsinin mətbuatına açıqlamasında deyib. Namaşko bu cür məsələlərə xüsusi yanaşmadığını bildirib.

Onun sözlərinə görə, matçdan sərhal sonra Moldovaya yola düşüb: "Ziyafət, əl yükü, aeroport... Kubokdakı qələbəni belə qeyd etdim. Çempionatdakı uğursuzluqdan sonra hədəf avrokuboklar və sonuncu olmamaq idi. Sonda istəyimizə çatdıq".



Təcrübəli qapıçı rəhbərliyin komandanın qarşısına qoyduğu məqsədə nail olduqlarını vurğulayıb: "Futbol ili çox qeyri-sabit keçdi, yaxşı və uğursuz oyunlar oldu, uğursuzluqlar da oldu. Amma yekunda ölkə kubokunu qazana bildik".

"Keşlə" ilə müqaviləsi başa çatan Namaşko gələcəyi barədə danışmaq istəməyib: "Komandada kimin qalacağını yalnız baş məşqçi bilir. Nəyisə təxmin etməyi sevmirəm. Yaxın günlərdə yığmaya qoşulacağam. Hazırda əsas fikrim millinin oyunlarındadır".

O, Azərbaycan millisi ilə iyunun 6-da Kişineuda keçirəcəkləri yoldaşlıq oyununa da toxunub: "Azərbaycanda 4 il birlikdə oynadığım uşaqları görmək xoş olacaq. Bəziləri ilə komanda yoldaşı, bəziləri ilə rəqib olmuşam. "Keşlə"dən milliyə dəvət alan Şəhriyar Əliyev və Azər Salahlı ilə danışmışam. Onlarla Kişineuda görüşəcəyik".

## Millimiz mövqeyində qaldı – FİFA reytinqində

***Milli komandaların FİFA reytinqi açıqlanıb.***



"Unikal" qəzetinin məlumatına görə, Azərbaycan millisinin də mövqeyi bəlli olub.

Hesabat dövründə heç bir matç keçirməyən yığmamız 1168 xalla dünyanın 110-cu komandasıdır. Son reytinq cədvəlində də eyni xala malik Canni de Byazinin yetirmələrinin mövqeyi də dəyişməyib.

İlk üç pillədə Belçika (1783), Fransa (1757) və Braziliya (1743) yığmaları yer alıb. Qardaş Türkiyə millisi 1505 xalla 29-cu sıradakı mövqeyini qoruyub.

## Rusiyalı gimnastlar Bakıdakı dünya çempionatından danışı

***Bakıda aerobika gimnastikası üzrə 16-cı dünya çempionatı yüksək səviyyədə keçirilir.***

"Unikal" qəzeti xəbər verir ki, bunu rusiyalı gimnastlar Aleksey Germanov, Anton Kolobov və Pyotr Perminov deyib.

A.Germanov bildirib ki, Bakıya ikinci dəfədir gəliblər:

"Görürük ki, Azərbaycan yarışlara tam şəkildə hazırlaşır. İdmançılar üçün bütün şərait yaradılıb. Hər şey bizim xoşumuza gəlir. Şəhər gözəldir, insanlar mehribandır".

Təsnifat mərhələsində çıxışları barədə danışan A.Kolobov ciddi səhvlərə yol vermədiklərini deyib:

"Bəzi çatışmazlıqlar oldu, amma ümumilikdə proqramı ciddi səhvlər olmadan yerinə yetirdik. Biz üçlükdə yeni heyətlə çıxış edirik, finalda əlimizdən gələni edəcəyik".

## Suares Messiya "qal" dedi

***Madrid "Atletiko"sunun hücumçusu Luis Suares "Barselona"nın superulduzu Lionel Messiyə komandasında qalmağı məsləhət görüb.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə "Marca" məlumat yayıb. "Dost və azarkeş kimi mən ona "Barselona"da qalmasını məsləhət görərdim", - deyə Suares bildirib. Qeyd edək ki, Suaresla Messi uzun müddətdir ailəlikcə dostluq edirlər.

## Bakıda işləmiş gürcüstanlı baş məşqçiyə vəzifə verildi



***Gürcüstanın "Dinamo" (Tbilisi) komandasının yeni baş məşqçisi bəlli olub.***

"Unikal" qəzeti klubun rəsmi feysbuk səhifəsinə istinadən xəbər verir ki, bu vəzifəyə Kaxaber Sxadadze gətirilib.

Rəsmi müqavilənin yaxın günlərdə imzalanacağı bildirilib.

Qeyd edək ki, Kaxaber Tsxadadze 2008-ci ildə Bakının "Standard", 2009 - 2014-cü illərdə isə "İnter" komandalarının baş məşqçisi olub. O, son olaraq Qazaxıstanın "Ordabaşı" komandasına rəhbərlik edib.

## Rusiyalı pilot: "Azərbaycan Qran-prisində daha yaxşı çıxış edəcəyik"



***"Monako Qran-prisində sonuncu olsaq da, çıxışımızdan razıyam. Çünki orada elə də çox şansımız yox idi. Sadəcə, gücümüz çatmadı".***

"Unikal" qəzetinin məlumatına görə, bu fikirləri "Formula 1"də çıxış edən "Haas" komandasının pilotu Nikita Mazepin son yarışdakı uğursuzluğu barədə danışarkən deyib.

Rusiyalı sürücü Azərbaycan Qran-prisində daha yaxşı mübarizə aparacaqlarını bildirib: "Bakıda vəziyyət fərqli olacaq. Çünki orada trek baş cürdür. Azərbaycanda daha yaxşı çıxış edəcəyik". Qeyd edək ki, Azərbaycan Qran-prisi 4 - 6 iyunda keçiriləcək.

## "Real Madrid" Zidanla yollarını ayırdı

***İspaniya "Real Madrid"i baş məşqçisi Zinəddin Zidanla yollarını ayırıb.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə "kral klubu"nun rəsmi saytı xəbər yayıb.

Bildirilib ki, fransalı mütəxəssis başa çatan müqaviləsini yeniləmək istəmədiyi üçün bu cür qərar qəbul olunub.

Qeyd edək ki, Zinəddin Zidan "Real Madrid"ə 2019-cu ildən başçılıq edirdi. O, daha əvvəl - 2016 - 2018-ci illərdə də Madrid komandasının sükanı arxasında olub. Klub təcrübəli mütəxəssisin rəhbərliyi altında 3 dəfə Çempionlar Liqasının qalibi və 2 dəfə İspaniya çempionu olub. Komanda 2020/2021 mövsümünü isə gümüş medalla başa vurub.

## "Həftənin futbolçusu adına namizədlər açıqlandı"- Avropa Liqası

***UEFA Avropa Liqasında həftənin oyunçusu adına namizədlər açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, bu, İspaniya "Vilyarreal"ı ilə İngiltərə "Mançester Yunayted"i arasında keçirilmiş final oyunundan sonra müəyyənləşib.

Namizədlər "Mançester Yunayted"dən yarımmüdafiəçi Skott Maktominay və hücumçu Edinson Kavani, "Vilyarreal"dan isə orta sahə oyunçusu Etyen Kapu və forvard Jerar Morenodur.

Qeyd edək ki, Polşanın Qdansk şəhərində təşkil olunmuş qarşılaşmanın əsas vaxtı heç-heçə ilə yekunlaşıb - 1:1. Penaltilər seriyasında "Vilyarreal" "Mançester Yunayted"ə 11:10 hesabı ilə qalib gəlib.

## "Valensiya"nın yeni baş məşqçisi müəyyənləşdi

***İspaniyanın "Valensiya" komandasına yeni baş məşqçi təyin olunub.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, "yarasalar"ın sükanı arxasına Xose Bordalas gətirilib. 57 yaşlı mütəxəssislə 2 illik müqavilə imzalanıb.

İspaniyalı baş məşqçinin son klubu yerli "Xetafe" olub.

Qeyd edək ki, "Valensiya" ötən mövsüm La Liqanı 13-cü pillədə başa vurub.

Səhifəni hazırladı: Aygün İlqarqızı